RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 55 (8648) CÜMƏ, 12 mart 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





## Böyük Zəfər böyük uğurlara zəmin yaradır

Yeni Azərbaycan Partiyasının VII qurultayında partiya sədri, Prezident İlham Əliyevin proqram xarakterli nitqində həm postmüharibə dövrü üçün Azərbaycanın gələcək inkişafını şərtləndirəcək hədəflər göstərildi, həm də partiya üzvlərinin qarşısında yeni vəzifələr qoyuldu.

Öncə vurğulamalıyıq ki, partiyanın budəfəki qurultayı demokratik ənənələrin inkişafına ciddi töhfə verəcək vacib qərarların qəbul edilməsi ilə yadda qaldı. Yeni Nizamnamə qəbul olundu, 40 nəfərdən ibarət tərkibdə İdarə Heyəti seçildi, 6 siyasi partiyanın YAP-a qoşulmasına dair qərar qəbul edildi. Nizamnamədəki dəyişikliyə əsasən isə partiyanın Qadınlar Şurası ləğv edildi. Bir daha bəlli oldu ki, tamamilə yeni strategiyanın əsasını qoyan Cənubi Qafqazın ən böyük siyasi təşkilatında mühüm dəyişikliklər olacaq. Bu isə partiya fəaliyyətinin tənzimlənməsində çeviklik və səmərəliliyi daha da artıracaq.

### Kompleks tədbirlər, dərinləşəcək islahatlar

Qurultayın keçirilməsi 44 günlük Vətən müharibəsində tarixi Zəfərin yaratdığı yeni reallıqlar dövrünə təsadüf etdi və İlham Əliyev bir daha aparılan mütərəqqi islahatların real nəticələrini dəyərləndirərərk qarşıdakı dövrdə həyata keçiriləcək sosial-iqtisadi layihələrin, aparılacaq islahatların konturlarını müəyyənləşdirdi. Əlbəttə ki, qalib ölkə üçün postmüharibə dövrü, yəni yeni reallıqlar yeni hədəfləri diktə edir ki, bu da kompleks tədbirlərin həyata keçirilməsi, islahatların dərinləşdirilməsi zərurətini yaradır.

Son 17 illik tarixə nəzər yetirsək aydın şəkildə Azərbaycanın genişmiqyaslı islahatlar aparan ölkə olduğunu görə bilərik. Ötən illər ərzində İlham Əliyev tərəfindən qarşıya qoyulan konkret hədəflərin düzgün müəyyən edilməsi, onların icrası ölkədə həm siyasi, həm də iqtisadi sahədə dayanıqlı inkişafı təmin edib. Eyni zamanda Azərbaycanın beynəlxalq aləmdə nüfuzu daha da yüksəlib.

*Ardı 4-cü səh.*

## Avropa Yenidənqurma və İnkişaf Bankı ilə əməkdaşlığa güvənirik



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 11-də Avropa Yenidənqurma və İnkişaf Bankının yeni prezidenti xanım Odil Reno-Bassonu və bankın rəhbərliyinin digər nümayəndələrini videoformatda qəbul edib.

AZƏRTAC xəbər verir ki, qonaqları salamlayan **Prezident İlham ƏLİYEV** dedi:

- Xanım prezident, hörmətli xanımlar və cənablar, sizi görməyə çox şadam. Sizinlə gələcək planlarımız barədə söhbət etmək imkanına görə şadam. Əlbəttə, bilirsiniz ki, pandemiya səbəbindən biz videokonfrans vasitəsilə görüşmək imkanından istifadə etməli oluruq. İlk növbədə, mən bankın Azərbaycana göstərdiyi bu diqqətə görə minnətdarlığımı ifadə etmək istərdim. Düşünürəm ki, demək olar, son 30 ildə biz çox güclü tərəfdaşlıq əlaqələri qurmuşuq. Bank ölkənin transformasiyasında, iqtisadiyyatımızın şaxələndirilməsində bizi dəstəkləyib. Bizim 3 milyard avrodan çox məbləğdə layihələrimizin maliyyələşdirilməsi faktı bunu açıq-aşkar nümayiş etdirir. Hazırda bu portfelin yarısının özəl sektora yönəlmiş vəsait olması da mühüm əhəmiyyət kəsb edir. Bu da əməkdaşlığımızın yaxşı göstəricisidir.

Bizim dövlət şirkətləri tərəfindən həyata keçirilən infrastruktur layihələrinə gəlincə, onların, demək olar ki, hamısı tamamlanıb.

*Ardı 2-ci səh.*

## "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 18-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 2, maddə 56; 2015, № 2, maddə 92, № 5, maddə 496, № 7, maddə 821; 2016, № 6, maddələr 999, 1007; 2017, № 10, maddə 1769; 2018, № 7 (I kitab), maddə 1425, № 11, maddələr 2204, 2205; 2019, № 2, maddə 187, № 4, maddə 579, № 5, maddə 797, № 6, maddə 986; 2020, № 7, maddə 831, № 11, maddə 1338) aşağıdakı məzmunda 21.1.4-1-ci maddə əlavə edilsin:

"21.1.4-1. doktoranturaya qəbul üzrə ilk imtahandan müvəffəqiyyətlə keçən çağırışçılara - 3 ay müddətinə;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 fevral 2021-ci il*

## Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 774 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət qulluqçularının mükafatlandırılmasının növləri və qaydaları haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 774 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 8, maddə 494; 2009, № 6, maddə 419; 2017, № 5, maddə 810) ilə təsdiq edilmiş "Dövlət qulluqçularının mükafatlandırılmasının növləri və qaydaları haqqında Əsasnamə"nin 12-ci hissəsində "əməkhaqqı fondunun (vəzifə maaşına əlavələr istisna olmaqla)" sözləri "vəzifə maaşının" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 mart 2021-ci il*

## İşğaldan azad edilmiş ərazilərdə görülən işlər böyük qayıdışın başlanğıcıdır

### Prezident ən qısa müddətdə yurd həsrətli insanları o yerlərə qaytarmaqda qərarlıdır

30 ilə yaxın bir müddətdə məcburi köçkün həyatı yaşayan yurd həsrətli soydaşlarımız öz torpaqlarına nə vaxt qayıda biləcəklər? İndi bu, hamını düşündürən bir sualdır. Təsadüfi deyil ki, Prezident İlham Əliyevin yerli və xarici media nümayəndələri üçün keçirdiyi mətbuat konfransında da həmin sual müxtəlif formalarda səslənmişdir.

Dövlət başçısı bu barədə belə məlumat vermişdir: "Mən də özüm-özümə bəlkə hər gün eyni sualı verirəm. Çünki mən də istəyirəm ki, nə qədər mümkünsə, qısa müddət ərzində biz buna nail olaq. Amma bunun üçün, əlbəttə ki, kompleks tədbirlər görülməlidir. Bu barədə mən artıq demişəm. Minalardan təmizləmə prosesi başa çatandan sonra və artıq bununla paralel olaraq biz bu işləri başlayırıq".

İşğaldan azad edilmiş ərazilərin bərpasında minalardan təmizləmə ən əsas məsələlərdən biridir və Prezident bu işi gücləndirmək üçün dövlət qurumu yaradıb və formalaşdırıb. Çünki ANAMA adlanan bu qurumun statusu çox qeyri-müəyyən idi. O, vaxtilə işğaldan azad edilmiş ərazilərin bərpası üzrə mövcud olmuş komissiyanın nəzdində yaradılmışdı. Agentliyin səmərəli işləməsi üçün bu ilin investisiya proqramında təqribən 100 milyon manat ayrılacaq. O cümlədən ən müasir avadanlıq, distant xarakterli robotlar və minatəmizləyən maşınlar alınacaq. Bu işə maksimum diqqətin ayrılması nəzərdə tutulur.

*Ardı 7-ci səh.*



## 118 mindən 118 milyona...

### Son 1 ildə koronavirusa yoluxanların sayı min dəfə artıb

Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) koronavirusun yayılmasını bir il əvvəl pandemiya elan edib. Həmin vaxt 114 ölkədə ümumilikdə 118 min yoluxma halı qeydə alınmışdı, gündə isə təxminən 5 min yeni hal aşkar edilirdi.

Düz bir ildir bütün dünyanın nizamını alt-üst edən, insanların həyat tərzini dəyişən COVID-19 pandemiyası hələ də yayılmaqda davam edir. Hazırda Antarktida da daxil olmaqla, demək olar ki, bütün ölkələr və qitələr infeksiya ilə əhatə olunub. Pandemiya ili ərzində yoluxanların ümumi sayı min dəfə artaraq təxminən 118 milyon təşkil edib, 21 ölkədə isə yoluxanların sayı artıq 1 milyonu ötüb. Koronavirus səbəbi ilə il ərzində 2,6 milyondan çox xəstə həyatını itirib.

Digər tərəfdən, koronavirusun mutasiyaya uğramış yeni ştammları da müxtəlif ölkələrdə yayılmaqdadır. İlkin olaraq ötən ilin sentyabrında Böyük Britaniyada aşkar edilən və daha yüksək yoluxdurma imkanına malik koronavirusun VOC 202012/01 ştammı, bir həftə ərzində daha beş ölkədə aşkar edilib.

*Ardı 5-ci səh.*

## Ermənistan prezidenti yenə də Paşinyana qarşı çıxdı

Ermənistanda hökumət başçısı ilə ordu arasında, eləcə də hakimiyyət daxilində yaranan ziddiyyətlər davam edir. Bu arada orduda da qəribə hadisələr baş verir. Belə ki, baş nazir Nikol Paşinyanın erməni generallarla görüşündən sonra keçmiş baş qərargah rəisi Onik Qasparyanın səlahiyyətlərini müvəqqəti icra etmək vəzifəsi general-leytenant Stepan Qalstyana həvalə edilib. Buna qədər Qalstyan Qasparyanın müavini olub. O da Paşinyanın istefasını tələb edənlərdən biridir.

Nikol Paşinyan silahlı qüvvələrin baş qərargah rəisi vəzifəsinə isə Artak Davtyanın təyin olunması barədə prezident Armen Sarkisyana vəsatət təqdim edib. Lakin prezident vəsatəti təmin etməyib və etiraz qeydləri ilə geri qaytarıb. Bundan dərhal sonra Paşinyan vəsatəti ikinci dəfə prezidentə göndərib. Bütün bunlar baş nazir və prezident arasında ciddi ziddiyyətlərin yaranmasından xəbər verir.

Bu cür proseslərin fonunda baş nazirin mövqeyinin gücləndiyi görünür. Müxalifət xalqın baş nazirdən üz döndərəcəyini gözləsə də, indi tamam əks vəziyyət müşahidə edilir. İnsanların müxalifətə və hərbi xuntaya dəstək verməməsi baş nazirin mövqelərini daha da möhkəmləndirib. Bunu Ermənistanda keçirilən sonuncu sorğu da təsdiqləyir. Belə ki, ABŞ-ın Beynəlxalq Respublikaçılar İnstitutunun Ermənistanda keçirdiyi sorğuda iştirak edənlərdən "Bu bazar seçki olsa, kimə səs verərdiniz?" deyə soruşublar. Respondentlərin 42 faizi "heç kimə səs verməyəcəm" cavabını verib, 33 faizi Nikol Paşinyanın rəhbərlik etdiyi "Mənim addımım" partiyasına səs verəcəyini deyib. Rəyi soruşulanlardan 3 faizi Qaqik Çarukyanın rəhbərlik etdiyi "Çiçəklənən Ermənistan" partiyasına, 2 faizi Robert Koçaryana, 1 faizi Serj Sarkisyanın rəhbərlik etdiyi "Respublikaçılar partiyası"na səs verəcəklərini bildiriblər.

Qeyd edək ki, müharibədən sonra Ermənistan iqtisadiyyatında daha da sürətlənən geriləmə, sosial-rifah halının gündən-günə pisləşməsi ölkədə pessimizmi daha da gücləndirmişdir.

*Ardı 5-ci səh.*

# Avropa Yenidənqurma və İnkişaf Bankı ilə əməkdaşlığa güvənirik

Əvvəli 1-ci səh.



Mənə məlumat verilib ki, bizdə 13 layihə var, onların 12-si uğurla tamamlanıb və sonuncusu tamamlanma prosesindədir. Mən, həmçinin Avropa Yenidənqurma və İnkişaf Bankının bizim enerji layihələrinə, xüsusilə "Cənub qaz dəhlizi"nə, onun Avropa Yenidənqurma və İnkişaf Bankı tərəfindən 1 milyard avro məbləğində maliyyələşdirilmiş sonuncu hissəsi olan TAP-a verdiyi dəstəyə görə minnətdaram. Bildiyiniz kimi, ötən ilin son günündə biz TAP və "Cənub qaz dəhlizi"nin açılışını qeyd etdik. Bu, həqiqətən də Avrasiyanın enerji xəritəsini dəyişən tarixi nailiyyət idi. Bildiyiniz kimi, hazırda bizim əsas məqsədimiz iqtisadiyyatımızın şaxələndirilməsini davam etdirməkdir. Düşünürəm ki, xüsusilə bu il və ötən il pandemiyaya baxmayaraq, nəticələr çox ümidvericidir. Ümumi daxili məhsulda müəyyən azalmaya baxmayaraq, bizdə qeyri-enerji sənayesi istehsalında artım var. Bu iki ayda bizdə artım 12 faizdən çox olub. Beləliklə, bu, bizim sənayemizin şaxələndirilməsinin yaxşı göstəricisidir. Biz neft satışlarından topladığımız vəsaiti özəl sektoru, sənaye potensialımızı dəstəkləməyə yönəltməyə nail olduq və qeyri-enerji sənayesində 12 faiz artım həqiqətən də əlamətdar hadisədir.



Hazırda bizim əsas məqsədimiz işğaldan azad edilmiş ərazilərin bərpasıdır. Ermənistan tərəfdən 25 ildən çox, demək olar ki, 30 il davam edən işğal nəticəsində hər şey dağıdılıb. Əcnəbi diplomatlar və media nümayəndələri işğaldan azad edilmiş ərazilərə artıq dəfələrlə səfər ediblər və özləri hər şeyin tamamilə dağıdıldığının şahidi olublar. Şəhərlər dağıdılıb, kəndlər dağıdılıb. Odur ki, biz öz doğma torpaqlarına qayıtmağı gözləyən insanlar, bir milyondan çox keçmiş məcburi köçkün üçün layiqli həyat şəraiti təmin etmək məqsədilə 10 min kvadratkilometrdən böyük bir ərazini yenidən qurmalı olacağıq. Beləliklə, bu, bizim əsas vəzifəmizdir və biz artıq buna başlamışıq. Münaqişənin və müharibənin faktiki sonu olan bəyanatın imzalanmasından yalnız dörd ay keçməsinə baxmayaraq, biz artıq işlərə başlamışıq. Biz indi beynəlxalq hava limanı tikirik, avtomagistrallar tikirik, dəmir yolu xətlərini inşa edirik, artıq başlamışıq. Bu ilin sonuna kimi, bütün Qarabağ ərazisi üçün, demək olar ki, enerji təchizatını 100 faiz tamamlamağı planlaşdırırıq və bizim bir çox başqa planlarımız da var.

Əlbəttə ki, biz bu məsələlərdə Avropa Yenidənqurma və İnkişaf Bankı ilə əməkdaşlığa güvənirik. Mən işğaldan azad olunmuş torpaqları "yaşıl enerji" zonası elan etmişəm. Biz əsasən bərpaolunan enerji mənbələrindən, su, günəş və külək mənbələrindən istifadə etməyi planlaşdırırıq. Bizim böyük beynəlxalq enerji şirkətləri ilə yaxşı iş təcrübəmiz var. Yeri gəlmişkən, Avropa Yenidənqurma və İnkişaf Bankı bu investisiya layihələrinin maliyyələşdirilməsində iştirak edir. Ümid edirik, eyni təcrübə azad edilmiş ərazilərdə də tətbiq olunacaqdır. Çünki bərpaolunan enerji mənbələri baxımından orada böyük potensial var. Başqa sözlə, bu, Azərbaycanın və regionun inkişafında yeni bir dövr və ya hətta yeni bir eradır. Demək olar ki, 30 il davam edən Dağlıq Qarabağ münaqişəsi öz həllini tapdıqdan sonra regional inkişaf, regional əməkdaşlıq, bağlılıq üçün yeni imkanlar var və Azərbaycan bunlara hazırdır. Mən artıq ictimaiyyətə bunu açıqlayaraq demişəm ki, biz əməkdaşlıq, düşmənçilik səhifəsini geridə qoymaq, regionda daha yaxşı vəziyyəti və daha da proqnozlaşdırıla bilən vəziyyəti təmin etmək üçün qonşularımızla dürüst şəkildə işləməyə hazırıq. Beləliklə, bu, görülmüş işlərin və bəzi planlarımızın nədən ibarət olmasının kiçik xülasəsi idi. Əlbəttə ki, müzakirələr zamanı biz gələcək tərəfdaşlığımızın praktiki addımlarını daha geniş müzakirə edəcəyik. Görüşmək üçün irəli sürdüyünüz bu təşəbbüsə görə bir daha təşəkkür edirəm. Sizi bir daha görməyə çox şadam.

* * *

Avropa Yenidənqurma və İnkişaf Bankının yeni prezidenti xanım **Odil Reno-BASSO** dedi:

- Cənab Prezident, çox təşəkkür edirəm. İlk təqdimata görə sağ olun. Sizi COVID-19 böhranı ilə bağlı vəziyyətin uğurla idarə olunmasına görə təbrik etmək istərdim. Bütün ölkələr hazırda bu çağırışla üz-üzədir və bu böhran bir çox yerlərdə iqtisadi problemləri şərtləndirir. Digər ölkələrlə müqayisədə sizdə vəziyyət daha yaxşıdır.

Sonra xanım Odil Reno-Basso Azərbaycanla əməkdaşlığa toxunaraq dedi: "Ötən il biz diqqətimizi özəl sektor üzərində cəmləşdirdik, kiçik və orta sahibkarlığın dəstəklənməsi, sosial əhəmiyyətli və ətraf mühitə təsirlə bağlı yerli valyuta ifadəsində layihələrin icrası uğurla həyata keçirildi. Biz Mərkəzi Bankla SVOP (valyuta mübadiləsi) sazişi bağlamaqla yerli valyutada layihələrin maliyyələşdirilməsi sahəsində əməkdaşlığımızdan da məmnunuq. Bu da öz növbəsində kiçik və orta sahibkarlığın dəstəklənməsi baxımından vacibdir. Sevindirici haldır ki, böyük həcmdə maliyyə töhfəsi verdiyimiz "Cənub qaz dəhlizi" layihəsi başa çatdı. Biz bu layihədə yaxından iştirak edirdik və şadıq ki, həmin layihə artıq tam şəkildə icra edilib. Biz enerji sahəsində əməkdaşlığımızı yüksək qiymətləndiririk".

Avropa Yenidənqurma və İnkişaf Bankının yeni prezidenti xanım Odil Reno-Basso Azərbaycan hökuməti ilə külək və günəş enerjisi sahələrində əməkdaşlıq etdiklərini deyərək, bununla bağlı qanunvericilik bazasının qəbul edilməsinin önəminə toxundu, bu sahədə əməkdaşlığın əhəmiyyətindən danışdı.

Söhbət zamanı Azərbaycanla Avropa Yenidənqurma və İnkişaf Bankı arasında əməkdaşlığın səviyyəsindən məmnunluq ifadə olundu, bu əməkdaşlığın daha da dərinləşdiriləcəyinə əminlik bildirildi.

Görüşdə nəqliyyat, bərpaolunan enerji, "Gəncə - Green City" layihəsi, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi", telekommunikasiya, bank sektoru və işğaldan azad edilmiş rayonlarda həyata keçirilən və icra olunacaq layihələrlə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

## Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 3 sentyabr tarixli 569 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət orqanlarında dövlət qulluqçularına ixtisas dərəcələrinin verilməsi Qaydaları"nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 3 sentyabr tarixli 569 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 9, maddə 584; 2003, № 8, maddə 441; 2005, № 11, maddə 1009; 2009, № 6, maddə 419; 2010, № 3, maddə 183; 2013, № 12, maddə 1506; 2015, № 2, maddə 120; Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 26 dekabr tarixli 1218 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Dövlət orqanlarında dövlət qulluqçularına ixtisas dərəcələrinin verilməsi Qaydaları"nın 13-cü hissəsinin ikinci cümləsində "əməkhaqqı fondunun (vəzifə maaşına əlavələr istisna olunmaqla)" sözləri "vəzifə maaşının" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 mart 2021-ci il*

## Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 28 yanvar tarixli 665 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət orqanlarında dövlət qulluqçusuna dövlət qulluğunda qulluq stajına görə əlavə haqqın məbləğlərinin müəyyənləşdirilməsi Qaydaları"nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 28 yanvar tarixli 665 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 1, maddə 48; 2003, № 8, maddə 441; 2004, № 8, maddə 613; 2005, № 3, maddə 172; 2009, № 6, maddə 419) ilə təsdiq edilmiş "Dövlət orqanlarında dövlət qulluqçusuna dövlət qulluğunda qulluq stajına görə əlavə haqqın məbləğlərinin müəyyənləşdirilməsi Qaydaları"nın 6-cı hissəsində "əməkhaqqı fondunun (vəzifə maaşına əlavələr istisna olunmaqla)" sözləri "vəzifə maaşının" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 mart 2021-ci il*

## Azərbaycana Rusiya və İsveç şirkətlərinin istehsalı olan COVID-19 vaksinləri gətiriləcək

Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov COVID-19-la bağlı dərman vasitələrinin idxalı barədə sərəncamlar imzalayıb.

Bu barədə AZƏRTAC-a Nazirlər Kabinetinin Mətbuat xidmətindən məlumat verilib.

Sərəncamlara əsasən, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi ilə Rusiya Federasiyasının "HUMAN VACCINE" MMC şirkəti arasında imzalanmış dərman vasitəsinin tədarükünə dair təchizat Sazişinə əsasən 300 000 (üç yüz min) doza "Sputnik V", GAVİ ALLİANCE arasında imzalanmış dərman vasitəsinin tədarükünə dair 2020-ci il 18 sentyabr tarixli Sazişə əsasən isə İsveç Krallığının "AztraZeneca" şirkətinə məxsus 432 000 doza COVID-19 vaksin dərman vasitəsinin Azərbaycana idxalı həyata keçiriləcək.

Sənədlərdə dərman vasitələrinin idxalının 180 gün müddətində həyata keçiriləcəyi qeyd olunub.

## Milli Məclisin Gənclər və idman komitəsində idmançılarla görüş keçirilib



Martın 10-da Milli Məclis sədrinin müavini, Gənclər və idman komitəsinin sədri Adil Əliyev Olimpiya Oyunlarının mükafatçıları, dünya və Avropa çempionatlarının qalibləri Rövşən Bayramov, Hacı Əliyev, Həsən Əliyev, Cəbrayıl Həsənov, Əlisa Abbasov, həmçinin bir qrup fəal gənclə görüş keçirib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, vitse-spiker ölkəmizdə bədən tərbiyəsi və idman siyasətinin, habelə gənclərlə bağlı aparılan işlərin daim ön planda olmasından, bu sahədə Gənclər və İdman Nazirliyinin, Milli Olimpiya Komitəsinin, habelə Milli Məclisin Gənclər və idman komitəsinin fəaliyyətindən danışıb, ölkə başçısının idmançılara diqqət və qayğısından məmnunluğunu ifadə edib.

Görüşdə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuzun həyata keçirdiyi uğurlu hərbi əməliyyatla ölkəmizin tarixində yeni səhifə açılmasından, hazırda işğaldan azad edilmiş ərazilərimizə böyük qayıdışın təmin olunması üçün görülən işlərdən danışılıb.

Adil Əliyev Yeni Azərbaycan Partiyasının qurultayında dövlət başçısının şəhid ailələrinin və qazilərin daim diqqət mərkəzində saxlanması barədə fikirlərini xatırladaraq ölkəmizdə bu sahədə aparılan işlərdə hər kəsin səfərbər olmasının vacibliyini vurğulayıb.

Söhbət zamanı vitse-spiker Olimpiya Oyunlarının mükafatçısı Rövşən Bayramovun Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin üzvü təyin edilməsi münasibətilə təbrik edərək idmançılarımızın ölkəmizin ictimai-siyasi həyatında da yaxından iştirakını yüksək qiymətləndirib.

Görüşdə gənclərin idmana marağının artırılması, bu amilin gənclərdə vətənpərvərlik hissinin formalaşmasına təsiri və onların zərərli vərdişlərdən uzaq olmasında rolu barədə də fikir mübadiləsi aparılıb.

Sonda ölkəmizi beynəlxalq yarışlarda uğurla təmsil edən idmançılara, habelə Vətən müharibəsində xidmətlər göstərən bir qrup şəxsə Milli Məclisin Gənclər və idman komitəsinin Fəxri fərmanı təqdim edilib.

## Milli Məclisin plenar iclasında Nazirlər Kabinetinin hesabatı dinləniləcək

Martın 16-da Milli Məclisin növbəti plenar iclası keçiriləcək. AZƏRTAC xəbər verir ki, plenar iclasda Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci ildə fəaliyyəti haqqında hesabat məruzəsi dinləniləcək.

## Azərbaycanın və Polşanın xarici işlər nazirləri arasında telefon danışığı olub




Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə Polşanın xarici işlər naziri Zbiqnyev Rau arasında telefon danışığı olub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, nazir Ceyhun Bayramov bölgədə mövcud olan vəziyyət, 2020-ci il 10 noyabr və 2021-ci il 11 yanvar tarixli üçtərəfli bəyanatların həyata keçirilməsi ilə bağlı məsələlər, o cümlədən ölkəmiz tərəfindən bu istiqamətdə görülən işlər barədə polşalı həmkarına məlumat verib. Nazir Ceyhun Bayramov işğaldan azad olunan ərazilərdə çoxsaylı minaların olmasına və beləliklə də gündəlik əsasda insanların həyatına birbaşa təhdid təşkil etdiyinə diqqəti cəlb edərək, Ermənistan tərəfinin bugünədək mina xəritələrini Azərbaycana verməkdən imtina etdiyini vurğulayıb. Polşa naziri Zbiqnyev Rau öz tərəfindən üçtərəfli bəyanatların icra edilməsi, ölkələr arasında münasibətlərin normalaşması və bu xüsusda, beynəlxalq qurumların rolunun əhəmiyyətini qeyd edib.

Nazirlər həmçinin ikitərəfli əməkdaşlıq gündəliyinin müxtəlif məsələləri, o cümlədən siyasi dialoqun uğurla davam etdirilməsi, iqtisadi sahədə əməkdaşlığın genişləndirilməsi, bu xüsusda, iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın fəaliyyəti, habelə parlament xətti də daxil olmaqla yüksəksəviyyəli qarşılıqlı səfərlərin həyata keçirilməsi məsələləri üzrə fikir mübadiləsi aparıblar.

Telefon danışığı zamanı tərəflər digər qarşılıqlı maraq doğuran məsələləri də müzakirə ediblər.

## Ekoloji Məsələlər üzrə İşçi Qrupun növbəti iclası

Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həll edilməsi üçün yaradılmış Əlaqələndirmə Qərargahının nəzdində fəaliyyət göstərən İdarələrarası Mərkəzin Ekoloji məsələlər üzrə İşçi Qrupunun növbəti iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, azad edilmiş torpaqlarda ekoloji məsələlərin təşkili işlərinin əlaqələndirilməsi məqsədilə aidiyyəti dövlət orqanlarının nümayəndələrinin cəlb olunduğu Ekoloji məsələlər üzrə İşçi Qrup işğaldan azad olunan ərazilərdə ətraf mühitə və təbii sərvətlərə vurulan zərərin ilkin qiymətləndirilməsi, bioloji müxtəlifliyin bərpası, su ehtiyatlarının idarə edilməsi, ətraf mühitin monitorinqinin aparılması, hidrometeoroloji şəbəkənin bərpası, mövcud mineral xammal resurslarının monitorinqi və ehtiyatlarının yenidən qiymətləndirilməsi, müvafiq tematik və topoqrafik xəritələrin hazırlanması, faktiki əkin altında olan ərazilərin müəyyənləşdirilməsi, deqradasiya olunmuş torpaqların bərpası, kənd təsərrüfatı sahələri üçün müvafiq resursların planlaşdırılması, işğaldan azad edilmiş ərazilərdə ərzaq və qida təhlükəsizliyi məsələlərinin təmin edilməsi üzərində işləyir.

Aidiyyəti qurumlar tərəfindən Qrupun sahəvi tədbirlər planının icrasına başlanılıb. Belə ki, ekoloji vəziyyətin qiymətləndirilməsi üçün işğaldan azad edilmiş rayonlarda kompleks monitorinqlər aparılır və transsərhəd çaylara nəzarət edilir.

Zəngilan rayonunda yerləşən Bəsitçay Dövlət Təbiət Qoruğunda qiymətləndirmə və bərpa işlərinin planlaşdırılması üçün Azərbaycan Milli Elmlər Akademiyasının mütəxəssislərinin iştirakı ilə ərazidə monitorinqlər aparılır.

İşğaldan azad olunmuş ərazilərdə radioloji və radioekoloji vəziyyətin öyrənilməsi məqsədilə aidiyyəti dövlət orqanları ilə birgə plan-proqram hazırlanıb və sahəvi plana əlavə olunub.

Kəlbəcər rayonu ərazisində mövcud olan termal-mineral su yataqlarının vəziyyətinin qiymətləndirilməsi məqsədilə hidrokimyəvi monitorinq işləri aparılıb və monitorinq nəticələri işğaldan əvvəlki dövrün məlumatları nəzərə alınmaqla təhlil olunub.

Ağdam, Füzuli, Cəbrayıl və Zəngilan rayonlarında filiz və qeyri-filiz, inşaat materialları yataqlarında geoloji-axtarış və qiymətləndirmə işləri, Kəlbəcər və Şuşa rayonlarında yeraltı şirin su və termal-mineral suların monitorinq və qiymətləndirmə işləri üzrə layihələr hazırlanıb və hazırda sahə işləri planlaşdırılır.

Qarabağ iqtisadi rayonu üzrə 13 filiz yatağının fond məlumatları əsasında xəritələri hazırlanıb.

İşğaldan azad olunmuş rayonların topoqrafik xəritələrin hazırlanması işləri davam etdirilir.

İşğaldan azad edilmiş ərazilərin bərpaolunan enerji mənbələri potensialının ölçülməsi məqsədilə Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin əməkdaşları tərəfindən Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı və Laçın rayonlarında potensial günəş enerjisi ərazilərinə baxış keçirilib və Zəngilan rayonunda ölçmə-müşahidə stansiyası quraşdırılıb.

Hidroenerji potensialından səmərəli istifadə ilə bağlı İşçi Qrupun aidiyyəti qurumları tərəfindən müvafiq işlər aparılır.

Regionda balıqçılığın inkişaf etdirilməsi məqsədilə balıqçılıq təsərrüfatlarının yaradılması üçün münasib ərazilərin müəyyən edilməsi, həmçinin mövcud olmuş və dağıdılmış təsərrüfatların bərpası üçün işlər aparılır.

Sahəvi Tədbirlər Planına uyğun olaraq işğaldan azad edilmiş ərazilərdə hərbi əməliyyatlar nəticəsində torpaqlarda baş vermiş deqradasiyanın peyk təsvirləri əsasında ilkin qiymətləndirilməsi və xəritələşdirilməsi işləri aparılır. Deqradasiya olunmuş torpaqların bərpası üçün qrupun aidiyyəti elmi institutları tərəfindən qiymətləndirmə işləri aparılır. İşğaldan azad edilmiş rayonlarda kənd təsərrüfatı fəaliyyətinin bərpası və təşkili məqsədilə peyk təsvirləri əsasında potensial əkin sahələri müəyyən olunmuş və xəritələşdirilmişdir.

Qrup fəaliyyətini İdarələrarası Mərkəzin digər İşçi qrupları ilə sıx əlaqə və məlumat mübadiləsi formatında həyata keçirməkdədir.

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 24 noyabr tarixli Sərəncamı ilə yaradılmış Əlaqələndirmə Qərargahına Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev rəhbərlik edir.

# *“HorraPress”:* “Azərbaycanın mədəniyyət diplomatiyası və Mehriban Əliyevanın gözəl işləri”

“HorraPress” Avropa Azad Mətbuat Mərkəzi Azərbaycan-İberiya-Amerika beyin mərkəzinin (CEPAI) “Azərbaycanın mədəniyyət diplomatiyası və Mehriban Əliyevanın gözəl işləri” sərlövhəli məqaləsini dərc edib.

AZƏRTAC xəbər verir ki, məqalə Azərbaycan rəhbərliyinin, xüsusən Birinci vitse-prezident Mehriban Əliyevanın həyata keçirdiyi mədəniyyət diplomatiyasına həsr edilib.

Materialda qeyd olunur ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva öz “Instagram” səhifəsində qədim Qarabağ torpağındakı dini abidələrin və məscidlərin bərpası layihəsinin işə salınması barədə paylaşım edib. “HorraPress” Mehriban Əliyevanın həmin paylaşımını sitat gətirir: “Bu günlər biz hamımız Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasının qürurunu və sevincini yaşayırıq. 30 ilə yaxın Ermənistanın işğalı altında olan torpaqlarımız Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında qəhrəman əsgər və zabitlərimizin şücaəti sayəsində azad edilmişdir.

Heydər Əliyev Fondu fəaliyyət göstərdiyi ilk gündən Azərbaycanda müxtəlif sahələri əhatə edən layihə və proqramlar həyata keçirir. Fondun tarixi, mədəniyyət və dini abidələrin qorunub saxlanılması və bərpası istiqamətindəki fəaliyyəti hər kəsə məlumdur. Bu gün isə qürur hissi ilə sizə Heydər Əliyev Fondunun qədim Qarabağ torpağında Azərbaycan xalqının milli sərvəti olan dini abidələrimizin, məscidlərimizin bərpası üzrə layihəyə başladığını bildirmək istəyirəm. Layihə çərçivəsində yerli və xarici mütəxəssislərin iştirakı ilə bölgədəki ziyarətgahlarımızın bərpası, konservasiyası və yenidən qurulması həyata keçiriləcəkdir. İşğal illəri ərzində Şuşa şəhərində və Ağdam rayonunda dağıntılara məruz qalmış dini ibadət yerlərinin bərpası üzrə müvafiq işlərə artıq başlanılmışdır.

Bir zamanlar ermənilərin vəhşicəsinə dağıtdığı, tövləyə çevirdiyi müqəddəs dini məkanlarımız yenidən dirçələcək və bütün Qarabağ ərazisindəki məscidlərimizdə azan səsləri eşidiləcək, dualar oxunacaqdır!”

“HorraPress” oxucuların diqqətinə çatdırır ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva ölkənin xaricdə populyarlaşmasına, habelə sosial siyasətin həyata keçirilməsinə, elmin, təhsilin, mədəniyyətin və idmanın inkişafına mühüm töhfələr verir. Mehriban Əliyevanın təşəbbüsü ilə həyata keçirilən layihələr milli dəyərlərin qorunub saxlanmasına və möhkəmlənməsinə, humanizm prinsiplərinin təbliğinə yönəlib.




Mehriban Əliyevanın Heydər Əliyev Fondu ilə UNESCO arasında əlaqələrin inkişafına yönəlmiş fəaliyyəti xüsusi vurğulanır, qeyd olunur ki, bu fəaliyyət Azərbaycan mədəniyyətinin və mədəniyyətlərarası dialoqun beynəlxalq səviyyədə təbliği üçün böyük əhəmiyyət kəsb edir. Azərbaycanın birinci xanımının fəaliyyətinin etirafı kimi 2004-cü ildə o, qeyri-maddi mədəni irsin təbliğinə və qorunmasına görə xoşməramlı səfir seçilib.

Bildirilir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən işlənib hazırlanmış siyasətin həyata keçirilməsi və Birinci vitse-prezident Mehriban Əliyevanın xoşməramlı səfir kimi fəaliyyəti nəticəsində Azərbaycan muğamı, Azərbaycan aşıq sənəti, ənənəvi Azərbaycan xalçaçılıq sənəti, ənənəvi çövkən at oyunu, kəlağayı qadın baş örtüyünün hazırlanması və geyim mədəniyyəti və simvolikası, Lahıc misgərlik sənəti, Novruz bayramı, lavaş, katırma, jupka, yufka - nazik çörək növlərinin hazırlanması, dolmanın hazırlanması ənənələri UNESCO-nun Qeyri-Maddi Mədəni İrs Siyahısına daxil edilib. 2019-cu ildə Azərbaycanın qədim Şəki şəhərinin tarixi mərkəzi və Şəki Xan Sarayı UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil olunub.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu mədəniyyətlərarası və dinlərarası münasibətlərin inkişafına, digər ölkələrlə humanitar sahədə ikitərəfli münasibətlərin dərinləşməsinə kömək edir. Məqalədə qeyd olunur ki, 2009-cu ildə Heydər Əliyev Fondu “Tolerantlığın ünvanı - Azərbaycan” layihəsi çərçivəsində XIV əsrə aid Strasburq Kafedral Kilsəsinin beş vitrajının bərpası üçün maliyyə vəsaiti ayırıb. 2012-ci ildə fond Müqəddəs Marçelini və Piyetro katakombalarını bərpa edib.

“HorraPress” yazır ki, tolerantlıq və dialoq sahəsində görülmüş işlər nəticəsində 2016-cı ildə Papa Fransisk Azərbaycana səfəri zamanı Müqəddəs Bakirə Məryəm məbədində olub, Azərbaycanı sivilizasiyalar arasında körpü adlandırıb.

Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən bütün layihələr bir daha göstərir ki, “Bakı prosesi”nin təşəbbüskarı olan Azərbaycan müxtəlif xalqlar və mədəniyyətlər arasında əməkdaşlığın möhkəmlənməsi və səmərəli dialoqun təbliği sahəsində işi ilə bütün dünyada sülhə və təhlükəsizliyə töhfə verir, mədəni müxtəliflik dəyərlərini irəlilədir, sivilizasiyalar arasında qarşılıqlı anlaşma, multikulturalizm və dialoqun inkişafında mühüm rol oynayır.

Mehriban Əliyevanın ictimai-siyasi fəaliyyəti fəal və dünyəvi Azərbaycan qadını imicinin formalaşmasında əvəzsiz rol oynayır.

# Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin iclası keçirilib

Martın 11-də Yeni Azərbaycan Partiyası (YAP) Gənclər Birliyinin iclası keçirilib. YAP-ın Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə iclasda Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.



İclasda çıxış edən YAP sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Yeni Azərbaycan Partiyasının VII qurultayının ölkəmizin ictimai-siyasi həyatında mühüm hadisə olduğunu bildirib. Tahir Budaqov qeyd edib ki, qurultayda partiyamızın sədri, Prezident İlham Əliyevin proqram xarakterli nitqi YAP üzvləri qarşısında yeni vəzifələr müəyyələşdirir. 44 günlük Vətən müharibəsində müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun işğal altında olan torpaqlarımızı azad etdiyini, ölkəmizin ərazi bütövlüyünün təmin olunduğunu deyən YAP sədrinin müavini bununla da müasir Azərbaycanın tarixində yeni səhifənin açıldığını söyləyib. Onun sözlərinə görə, qazanılan Zəfərdən sonra Azərbaycanın qarşısında daha möhtəşəm vəzifələr dayanır. Ona görə də Yeni Azərbaycan Partiyasının gələcək fəaliyyətində bu vəzifələrin yerinə yetirilməsi xüsusi diqqət mərkəzində olacaq.

Yeni Azərbaycan Partiyasının Ümummilli Liderimiz Heydər Əliyevin adı ilə bağlı olduğunu deyən Tahir Budaqov qeyd edib ki, hər bir şəxs üçün Ulu Öndərin yaradıcısı olduğu partiyanın üzvü olmaq böyük şərəfdir. YAP-ın yaranma tarixindən, o dövrün ictimai-siyasi proseslərindən bəhs edən Mərkəzi Aparatın rəhbəri bildirib ki, 1990-cı illərin əvvəllərində respublikada xaos, anarxiya hökm sürürdü və dövlətçilik məhv olmaq təhlükəsi ilə üzüzə qalmışdı. Belə bir şəraitdə Azərbaycanın gələcəyini düşünən ziyalılar Ulu Öndər Heydər Əliyevə Yeni Azərbaycan Partiyasının yaradılması ilə bağlı müraciət etdilər. YAP yarandıqdan qısa müddət sonra xalqın təkidli tələbi ilə Ulu Öndər Heydər Əliyev hakimiyyətə qayıtdı, ölkəni məhv olmaq təhlükəsindən xilas edərək inkişaf yoluna çıxardı.

YAP-ın ötən dövrdə böyük yol keçdiyini deyən Tahir Budaqov söyləyib ki, bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə partiyamız yeni inkişaf mərhələsini yaşayır. YAP Cənubi Qafqazın ən böyük siyasi qüvvəsinə çevrilib. O bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dünyada söz sahibi olan dövlətə çevrilib, artıq ölkəmizin həyatında yeni inkişaf mərhələsi başlayıb. Bu baxımdan, YAP qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi üçün fəaliyyətini yeni, müasir tələblərə uyğun olaraq davam etdirməlidir. Bu prosesdə partiyamızın gəncləri də fəal iştirak etməlidir.

Ölkəmizdə uğurlu dövlət gənclər siyasətinin həyata keçirildiyini deyən Tahir Budaqov ölkəmizdə gəncliyin inkişafı üçün bütün imkanların yaradıldığını diqqətə çatdırıb. Onun sözlərinə görə, YAP-ın gəncləri bundan sonra da Heydər Əliyev irsinin dərindən öyrənilməsi və təbliği, Prezidentimizin siyasətinin fəal təbliğatı, milli-mənəvi dəyərlərin qorunması və s. sahələrdə fəallığını gücləndirməlidir.

YAP Mərkəzi Aparatının rəhbəri qeyd edib ki, partiyanın yeni Nizamnaməsinə əsasən, YAP Gənclər Birliyinin sədri və müavinləri partiya sədrinin təqdimatı əsasında İdarə Heyəti tərəfindən təsdiq edilir. Artıq bu barədə müvafiq qərar qəbul olunub. Belə ki, Bəxtiyar Qabil oğlu İslamov YAP Gənclər Birliyinin sədri, Sevinc Saleh qızı Qasımova və Fəsli Nəbi oğlu Nəbiyev sədrin müavini təyin olunublar. Eyni zamanda, 30 nəfər YAP Gənclər Birliyinin üzvü seçilib.

Tahir Budaqov YAP Gənclər Birliyinin yeni rəhbərliyini və üzvlərini təbrik edərək onlara fəaliyyətlərində uğurlar arzulayıb. Bu il Azərbaycanın dövlət müstəqilliyinin bərpa olunmasının, gələn il isə YAP-ın yaranmasının 30 illiyinin tamam olacağını deyən YAP sədrinin müavini bu əlamətdar hadisələr ərəfəsində gənclərin yeni təşəbbüslərlə çıxış etmələrinin vacibliyini vurğulayıb. Bütövlükdə, YAP gəncləri ölkəmizin inkişafı prosesinə öz töhfələrini fəal şəkildə verməlidir.

Tədbirdə YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov çıxış edərək göstərilən yüksək etimada görə təşəkkürünü bildirib və bu etimadı doğrultmaq üçün səylə çalışacağını vurğulayıb.

İclasda həmçinin Milli Məclisin deputatları Aydın Hüseynov, Ramin Məmmədov və Cəbi Quliyev çıxış ediblər.

# Sədərək Radio-Televiziya Ötürücü Stansiyasının yeni binası istifadəyə verilib

Martın 11-də Sədərək Radio-Televiziya Ötürücü Stansiyasının yeni binası istifadəyə verilib.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov Sədərək Radio-Televiziya Ötürücü Stansiyasının binasında yaradılan şəraitlə tanış olub.

Naxçıvan Muxtar Respublikası “Radio-Televiziya Ötürücü Mərkəzi” publik hüquqi şəxsin direktoru Hikmət Əhmədov məlumat verərək deyib ki, muxtar respublikanın davamlı inkişafı teleradio yayımı sahəsini də əhatə edib, rəqəmsal televiziya şəbəkələrinin tətbiqi ilə əlaqədar mühüm layihələr həyata keçirilib. Nəticədə muxtar respublikada telekommunikasiya sahəsi müasir tələblər səviyyəsində qurulub. Bu gün Sədərək Radio-Televiziya Ötürücü Stansiyasının yeni müasir bina ilə təmin olunması da görülən işlərin davamıdır. Hikmət Əhmədov muxtar respublikada telekommunikasiyanın inkişafına göstərilən diqqət və qayğıya görə Ali Məclisin sədrinə minnətdarlıq edib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov yeni stansiyanın istifadəyə verilməsi münasibətilə kollektivi təbrik edərək deyib: “Bu gün Sədərək rayonunu əhatə edən radio-televiziya ötürücü stansiyası istifadəyə verilir. Bununla da rayon ərazisində teleradio yayımının keyfiyyəti yaxşılaşacaqdır. Teleradio yayımı əhəmiyyətli məsələdir. Ona görə də muxtar respublikada televiziya kanallarının paket formasında yayımı həyata keçirilir. Çünki teleradio yayımının düzgün tənzimlənməsi həm də milli-mənəvi dəyərlərimizin qorunmasına xidmət edir. Hazırda bir çox ölkə beynəlxalq qanunlara əhəmiyyət vermədən televiziya verilişlərini öz sərhədlərindən kənara da yayımlayır. Bu da ölkədaxili televiziyaların yayımına, eyni zamanda, milli-mənəvi dəyərlərin aşılanmasına təsir edir. Əhalini bu təsirlərdən qorumaq üçün muxtar respublikada müasir ötürücü stansiyalar qurularaq teleradio yayımı həyata keçirilir”.

Ali Məclisin sədri deyib: “Muxtar respublikada ötən illərdə bu sahədə xeyli işlər görülmüş, 2014-cü ildən rəqəmsal yayıma keçilmiş, verici stansiyalar yenidən qurulmuş, müasir avadanlıqlarla təmin olunmuşdur. Sədərəkdə avtomat köklənmə sistemi ilə təchiz edilmiş FM verici avadanlıqları quraşdırılmışdır. Bu avadanlıqlar bütün muxtar respublika ərazisində qurulmalıdır. Naxçıvan dağlıq ərazidə yerləşir. Buna görə də monitorinqlər aparılmalı, hansı ərazidə siqnallar zəifdirsə, paket şəklində təqdim olunan kanallar məhduddursa, həmin ərazilərdə tədbirlər görülməlidir ki, əhali ölkəmizdə yayımlanan televiziya və radio verilişlərinə baxa və dinləyə bilsinlər. Bunun üçün lazımi şərait vardır. Dövlət tərəfindən bu işlərin həyata keçirilməsinə lazımi dəstək göstərilir. Aidiyyəti təşkilatlar da bu işlərə məsuliyyətlə yanaşmalı, vericilər müasir tələblərə cavab verməli, avtomatik köklənmə sistemləri ilə təmin olunmalı, muxtar respublika ərazisində yayım keyfiyyəti yüksəldilməlidir. Ölkənin təbliğatı və əhalinin məlumatlandırılması media üzərindən aparılır. Eyni zamanda gənc nəslin vətənpərvər və milli dəyərlərə sadiq yetişməsində də televiziya və radiolar mühüm əhəmiyyət kəsb edir. Son 2 ildə Naxçıvan Dövlət Televiziyasına ümumi dəyəri 500 min manata yaxın olan avadanlıqlar alınmışdır. Bütün bunlar keyfiyyətin yüksəldilməsi üçün edilib. Artıq əhali keyfiyyətli verilişlərə baxa bilir”.

Ali Məclisin sədri deyib: “Bu gün Sədərəkdə istifadəyə verilən stansiya müasir avadanlıqlarla təmin olunub. Müasir avadanlıqlar isə yeni mütəxəssislərin yetişməsini və onların işə müasir yanaşmasını təmin edəcəkdir. Yaxşı iş şəraiti burada çalışanlar üçün də rahatlıq deməkdir. Ona görə də qurulub-yaradılanlar qorunmalı, işə məsuliyyətlə yanaşılmalı və ərazidə keyfiyyətli teleradio yayımı həyata keçirilməlidir”.

Sədərək Radio-Televiziya Ötürücü Stansiyasının mexaniki Elşən Səfərli kollektiv adından minnətdarlıq edərək deyib: “Bu gün muxtar respublikanın sərhəd rayonu olan Sədərəkdə belə bir stansiyanın istifadəyə verilməsi kollektivimizlə yanaşı, bütün əhalinin sevincinə səbəb olub. Biz yeni, rahat iş şəraitinə malik bina ilə təmin olunuruqsa, ötürücü stansiyanın istifadəyə verilməsi ilə sədərəklilərin televiziya verilişlərinə keyfiyyətli şəkildə baxmaları təmin edilir”.

Stansiyaya baxış zamanı məlumat verilib ki, muxtar respublikada 6 ötürücü, 44 azgüclü verici stansiya fəaliyyət göstərir. Hazırda muxtar respublikanın bütün ərazisi rəqəmsal yayımla əhatə olunub. Sədərək Radio-Televiziya Ötürücü Stansiyasında radio-televiziya vericiləri, efirə nəzarət, mühəndis, server, mətbəx və digər iş otaqları vardır. Efirə nəzarət otağında radio proqramlarının monitorinqi üçün radioqəbuledici, 3 monitor, texniki şkaf quraşdırılıb, muxtar respublikada ilk dəfə olaraq stansiyada 12 kanalın bir monitorda izlənməsinə imkan verən proqram təminatlı “Multiview” sistemi istismara verilib.

Stansiyada 2 enerji tənzimləyicisi, generator, rəqəmsal televiziya vericisi, İtaliyanın “Elenos” şirkətinin istehsalı olan avtomatik köklənmə sistemi ilə təchiz edilmiş 3 yeni FM verici, fiber-optik sonlandırma avadanlıqları, “Azercell”, “Naxtel”, “Azərconnect” mobil operatorlarının baza stansiyaları quraşdırılıb. 75 metrlik qüllədə isə mobil operatorların baza stansiyalarının, rəqəmsal televiziya və radio vericilərinin anten-fider sistemləri, radio-rele linklərinin verici-qəbuledici avadanlıqları qoyulub.

Ali Məclisin sədri muxtar respublikada televiziya və radio yayımlarının keyfiyyətinin artırılması sahəsində işlərin davam etdirilməsi və yeniliklərin tətbiqi barədə tapşırıqlar verib.

## Sədərək Gömrük Sərhəd-Buraxılış Məntəqəsi üçün müasir kompleks qurulur

Naxçıvan Muxtar Respublikasında gömrük infrastrukturunun yenilənməsi və maddi-texniki bazanın müasir tələblər səviyyəsində qurulması diqqətdə saxlanılır. Bu istiqamətdə həyata keçirilən tədbirlərin davamı olaraq Sədərək Gömrük Sərhəd-Buraxılış Məntəqəsi üçün müasir kompleks tikilir.

Martın 11-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov kompleksdə görülən işlərlə maraqlanıb.

Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səhət Həbibbəyli və “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının komandiri, general-leytenant Niyaməddin Tağıyev Ali Məclisin sədrinə raport veriblər.

Məlumat verilib ki, ümumi sahəsi 104 min kvadratmetr olan kompleksdə inzibati bina, sürətli keçid üçün VİP və CİP xidmətləri binası, yüklərin rəsmiləşdirilməsi binası, kinoloji xidmət, yoxlama-baxış sistemləri bölməsi, yeməkxana və yardımçı tikililər yerləşir ki, bu da kompleksdə sərhəd və gömrük xidmətinin yüksək səviyyədə təşkilinə imkan verəcək. Rahat və sürətli keçidin təmin olunması üçün giriş və çıxış istiqamətlərinin hər birində istiqamətverici monitorlar olan 6 hərəkət zolağı yaradılıb. 3 zolağın avtobus və minik nəqliyyat vasitələrinin, 1-i tranzit olmaqla, 2 zolağın yük nəqliyyat vasitələrinin hərəkəti, 1 zolağın isə sürətli keçid üçün istifadəsi nəzərdə tutulur. Hərəkət zolaqları üzrə sərhədkeçmə vaxtının ölçülməsi sistemi, eləcə də nəqliyyat vasitələrinin dövlət qeydiyyat nişanlarının oxunması üçün 36 kamera quraşdırılıb. Yük nəqliyyat vasitələrinin çəkilməsi üçün müvafiq hərəkət zolaqlarının üzərində 60 tonluq 2 tərəzi, həmçinin bütün hərəkət zolaqlarının üzərində radiasiya səviyyəsinin müəyyənləşdirilməsi üçün qurğular qoyulub.

Kompleksdə gömrük nəzarəti və rəsmiləşməsi “bir pəncərə” prinsipinə uyğun həyata keçiriləcək, “Yaşıl kanal” və “Qırmızı kanal” buraxılış sistemləri tətbiq olunacaqdır. “Qırmızı kanal”a daxil olan minik nəqliyyat vasitələrinin yoxlanılması üçün 3 zolaqda maşınaltıbaxış sistemi qurulub. Sərnişin keçid zalında giriş və çıxış istiqamətlərinin hər birində “Qırmızı kanal”la bəyan edilməli olan yüklərin gömrük nəzarətindən keçirilməsi üçün 2 müasir rentgen-baxış qurğusu, həmçinin şəxslərin üzərinin təkrar yoxlanılması üçün “body-scan” qurğusu vardır. “Yaşıl kanal” buraxılış sistemindən gömrük sərhədindən keçirilən əl yükündə və müşayiət olunan baqajında yazılı formada bəyan edilməli mallar olmayan sərnişinlər istifadə edəcəkdir. Giriş və çıxış istiqamətlərində pasport nəzarəti 2-si Azərbaycan, 2-si xarici ölkə vətəndaşları üçün olmaqla, 4 məntəqədə həyata keçiriləcəkdir. Sərnişin keçid zalında rüsumsuz ticarət mağazası və kafe fəaliyyət göstərəcəkdir. Bütün rəsmiləşmə və keçid zallarında quraşdırılmış elektron bəyanetmə köşklərində gömrük qanunvericiliyi ilə bağlı məlumat almaq və Dövlət Gömrük Komitəsinin 234 nömrəli informasiya-sorğu xidməti ilə birbaşa əlaqə yaratmaq imkanı vardır.

Anbarlarda yüklərin yoxlanılması üçün 3 rentgen-nəzarət qurğusu, yoxlama-baxış sistemləri bölməsində giriş istiqaməti üzrə yük və minik nəqliyyat vasitələrinə gömrük nəzarətini həyata keçirmək üçün 2 X-Ray tipli rentgen-nəzarət qurğusu quraşdırılıb. Kompleksdəki bütün rentgen-nəzarət və baxış qurğuları Almaniyanın “Smiths Dedection” şirkətinin istehsalıdır. Gömrük nəzarəti zonasında yoluxucu xəstəliklərə qarşı mübarizə məqsədilə ölkəyə giriş istiqamətində avtonəqliyyat vasitələri üçün müasir dezinfeksiya baryeri, sərnişin zallarında hərarəti məsafədən ölçən termovizorlar quraşdırılıb, tibb məntəqəsi yaradılıb. Kompleksin ərazisində yüksək görüntü keyfiyyətinə malik olan 90 kameralıq video-nəzarət sistemi qurulub.



Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səhət Həbibbəyli yaradılan şəraitə görə Ali Məclisin sədrinə minnətdarlıq edib.

Ali Məclisin sədri kompleksdə işlərin aprel ayına qədər başa çatdırılması və xidmətin müasir tələblər səviyyəsində təşkili ilə bağlı tapşırıqlar verib.

## Sədərək rayonunda Bayraq Meydanı yaradılıb

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev deyib: “Bizim bayrağımız qürur mənbəyimizdir. Bizim bayrağımız canımızdır, ürəyimizdir. Bu gün Azərbaycanın hər yerində dövlət bayrağı dalğalanır...” Ulu Öndərin ideyalarına sadiqlik nümayiş etdirən ölkə başçısı dövlət rəmzlərini və atributlarını daim uca tutur, ölkəmizin hər yerində bayraq meydanları yaradılır, əzəli Azərbaycan torpaqlarında üçrəngli bayrağımız dalğalandırılır.

Martın 11-də Sədərək rayonunda Bayraq Meydanı istifadəyə verilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak edib, yaradılan şəraitlə tanış olub.

“Sədərək rayonundakı Bayraq Meydanında üçrəngli bayrağımız İkinci Qarabağ müharibəsində qazanılan qələbə və şəhidlərin xatirəsinə qaldırılır” deyən Ali Məclisin sədri qurğunu işə salıb, üçrəngli dövlət bayrağımız əbədi yüksəkliyə ucalıb.

Məlumat verilib ki, Sədərək rayonunda Bayraq Meydanının tikintisinə 2020-ci ilin aprel ayında başlanılıb. Bayraq dirəyinin hündürlüyü 33,5, bayrağın eni 8, uzunluğu isə 16 metrdir. Bayraq dirəyinin oturacağı siyanit plitələrlə üzlənib. Sahəsi 6 min 312 kvadratmetr olan meydanda geniş abadlıq işləri aparılıb, müasir işıqlandırma sistemi qurulub, dekorativ ağac və gül kolları əkilib.

Yeni Azərbaycan Partiyası Sədərək rayon təşkilatının sədri Arif Qasımov minnətdarlıq edərək deyib: “Ümummilli liderimiz Heydər Əliyevin dövlətçilik ideyaları bu gün Naxçıvanda uğurla həyata keçirilir. Dövlətimizin qayğısı nəticəsində 30 il əvvəl müharibə şəraitində yaşayan Sədərək rayonu artıq müasirliyə qovuşub, burada insanların rahatlığı və sabitliyi üçün hərtərəfli şərait yaradılıb. Müstəqilliyimizin rəmzi olan Bayraq Meydanı isə burada böyüməkdə olan gənc nəslin vətənpərvərlik ruhunda yetişməsində mühüm əhəmiyyətə malikdir. Çox qürurvericidir ki, bu gün burada dalğalanan bayrağımız ötən il işğaldan azad olunmuş rayonlarımızda da dalğalanır”.

Ali Məclisin sədri deyib ki, Sədərək rayon kimi formalaşır, əhalinin yaşayışı yaxşılaşır, imkanlar artır. Dəmirçi kəndinin rayona birləşdirilməsi kadr və investisiya potensialını yaxşılaşdıracaq, rayonun gəlirlərini artıracaqdır. Bütün bunlar Sədərək rayonunun inkişafına xidmət edir. Burada qəsəbənin qurulması, su-kanalizasiya sistemlərinin çəkilməsi, əhalinin içməli su ilə təminatı, infrastrukturun yenilənməsi, əkinəyararlı olmayan torpaqların əkin dövriyyəsinə qatılaraq istifadəyə verilməsi muxtar respublika üçün əhəmiyyətli olan bu rayonun inkişafına səbəb olub.

Ali Məclisin sədri Bayraq Meydanında abadlığa və təmizliyə nəzarət olunması, yaşıllıqlara qulluq göstərilməsi barədə tapşırıqlar verib.

# Dünənin, bugünün və sabahın partiyası



# Böyük Zəfər böyük uğurlara zəmin yaradır

## İlham Əliyev YAP-ın qurultayında gələcək inkişafla bağlı hədəfləri müəyyənləşdirdi, partiya üzvləri qarşısında tələblər, vəzifələr qoydu

*Əvvəli 1-ci səh.*

Bu müddət ərzində Azərbaycanın həyatında baş verən hadisələr arasında ən önəmlisi isə ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsi, Vətən müharibəsində parlaq Qələbənin əldə olunmasıdır. 44 günlük Vətən müharibəsinin Zəfər marafonundan bizə həm sonsuz sevinc və qürur, həm də böyük məsuliyyət qaldı. Işğaldan azad olunan doğma yurdlarımızın bərpası və Böyük qayıdışın ən effektiv şəkildə təşkil olunması qarşıdakı bir neçə ilin ən vacib çağırışıdır desək, yanılmarıq.

Prezidentin söylədiyi kimi, İkinci Qarabağ müharibəsinin nəticələri həm də bölgə üçün yeni reallıqlar, yeni əməkdaşlıq imkanları yaratdı. Uzunmüddətli sülhün təmin edilməsi üçün çox önəmli şərtlər və eyni zamanda yeni dövrə qədəm qoymaq üçün yeni imkanlar formalaşdı.

### Heç kimə hesabat verməyən ölkə, ən islahatçı Lider

Əminliklə deyə bilərik ki, İlham Əliyev tərəfindən müəyyən edilən əsas konsepsiyalar ölkənin müharibədən sonrakı dövrdə daha sürətli inkişafını təmin edəcək. Elə hakim partiyanın da fəaliyyətinin prioritet istiqamətləri məhz bu məqsədlərə çatmağa yönəldilib.

Bu gün İlham Əliyev tərəfindən həyata keçirilən həm daxili, həm də xarici siyasət kursu yeganə düzgün kursdur. Məhz bu kursa dəstək olmaq üçün İlham Əliyev qurultaydakı yekun nitqində öz siyasi həmfikirlərini dövlət səviyyəsində müəyyənləşdirilmiş siyasət çərçivəsində ölkədə gedən bütün proseslərə, islahatlara və quruculuq işlərinə dəstək verməyə, partiya üzvlərini bu məqsədlər ətrafında səfərbər olmağa dəvət etdi.

Azərbaycanın dünyada tam müstəqil siyasət yürüdən ölkə olduğunu deyən Prezident bir daha bəyan etdi ki, heç kim bizimlə diktə dili ilə danışa bilməz. Bu il müstəqilliyinin 30 illiyini qeyd edəcək Azərbaycan indiyədək heç kimə hesabat verməyib, bundan sonra da bu siyasət davam etdiriləcək. Müstəqilliyimizin 30 illiyi Qələbə qazanmış, Zəfər çalmış xalq kimi qeyd ediləcək.

Göründüyü kimi, ən islahatçı Prezident bu gün həm də yeni reallıqlar yaradır. Məhz bundan əvvəlki dövrlərdə İlham Əliyevin təşəbbüsləri ilə reallaşan bir çox layihələr bölgəyə yenilik gətirmiş, əməkdaşlığın yeni formatlarını şərtləndirmişdi. Azərbaycan Prezidentinin uğurlu enerji siyasəti, nəqliyyat siyasəti nəinki enerji və nəqliyyat dəhlizlərinin yaranmasına gətirib çıxarmış, eyni zamanda bölgədə və geniş mənada Avrasiya məkanında yeni əməkdaşlıq formatlarını formalaşdırmışdır.

Prezidentin söylədiyi kimi, bu gün həmin layihələr ətrafında birləşən və bu layihələri Azərbaycanla bərabər icra edən ölkələrin sayı artmaqdadır. Bu, istər-istəməz həmin ölkələr arasında, hətta əvvəlki dövrlərdə bir-biri ilə o qədər isti münasibətləri olmayan ölkələr arasında da əməkdaşlığı labüd edir.

### Postmüharibə dövrü əməkdaşlıq üçün yeni imkanlar açır

Vətən müharibəsindən sonrakı durum isə bu əlaqələrin daha da şaxələnməsini, reallaşacaq layihələrdə tərəfdaş olmaq istəyən ölkələrin sayının artacağını şərtləndirir. Axı bölgədə tam başqa vəziyyət yaranıb. Prezident də bunu dəyərləndirərkən vurğulamışdır ki, İkinci Qarabağ müharibəsinin nəticələri bölgə üçün yeni reallıqlar, yeni əməkdaşlıq imkanları yaradıb. Uzunmüddətli sülhün təmin edilməsi üçün çox önəmli şərtlər yaradılıb və eyni zamanda ölkəmizdə də yeni dövrə qədəm qoymaq üçün yeni imkanlar formalaşıb. Nikbinliyə səbəb olan digər amil odur ki, qonşu dövlətlər də Azərbaycanla eyni mövqeni bölüşürlər. Regionun gələcək inkişafı, inteqrasiya layihələrinin icrası ilə bağlı fikir ayrılığı yoxdur. Postmüharibə dövrü doğrudan da yeni imkanlar açır, əməkdaşlıq, qarşılıqlı ticarət, kommunikasiyaların açılması, yeni nəqliyyat dəhlizlərinin yaradılması üçün çox nadir imkanlar yaradır. Əgər təkcə Zəngəzur dəhlizinə fikir versək görərik ki, bu, yalnız Rusiya, Azərbaycan, Türkiyə, İran və Ermənistanın maraqlarına cavab vermir, bu, qonşu ölkələrin maraqlarına da uyğundur. Yəni İlham Əliyevin dediyi kimi, Avrasiyanın yeni nəqliyyat damarının açılması da mümkündür. Bu da, əlbəttə ki, bölgədə, uzunmüddətli sülhün əsas təminatçısı ola bilər.

Bütün bunlar bir daha təsdiqləyir ki, regionun tərkib hissəsi olan Azərbaycan hər zaman uğurlu əməkdaşlığın nümunəsi, məsuliyyətli ölkə kimi qiymətləndirilib. Yeni reallıqlar da göstərir ki, İlham Əliyevin yeni inkişaf konsepsiyasına uyğun olaraq Azərbaycan doğru yolda inamla addımlayır.

**_Rəşad BAXŞƏLİYEV,_**
**_"Azərbaycan"_**

# İslahatların siyasi istinadgahı

## YAP hakim siyasi partiya kimi bundan sonra da respublikamızın yüksəlişinə layiqli töhfələr verəcək, fəallığı ilə cəmiyyətə nümunə olacaqdır



Cəmi bir neçə aydan sonra Azərbaycanın dövlət müstəqilliyinin bərpasının 30-cu ili tamam olacaq. Hər birimiz üçün olduqca qürurvericidir ki, xalqımız üçün əlamətdar olan bu yubileyi dövlətçilik və müstəqillik tariximizi rövnəqləndirən möhtəşəm hadisələr fonunda qarşılayırıq. Azərbaycan əhalisinə və ərazisinə görə kiçik olsa da, beynəlxalq münasibətlərdə rolu, qlobal problemlərin həllində iştirakı olduqca böyükdür. İkinci Qarabağ müharibəsində qazanılan möhtəşəm Qələbə isə vətənimizi daha da yüksəltdi.

Lakin unutmamalıyıq ki, 30-cu ilinə qədəm qoyan müasir müstəqil dövlətçiliyimiz olduqca mürəkkəb, çətin mərhələ və proseslərdən keçmişdir. Müstəqilliyimizin ilk illərində baş verən proseslərin acı nəticələri o dövrü yaşayan bütün vətəndaşlarımızın xatirində dərin iz buraxmışdır. Bu gün arxaya boylanıb baxarkən bir daha görürük ki, məmləkətimizin son dərəcə ağır və kəşməkəşli günlərində, ölkəmizin ciddi sınaqlara məruz qaldığı bir dövrdə Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyasının yaranması xilasımız yolunda ən doğru addım və böyük siyasi hadisə olmuşdu.

Martın 5-də keçirilən Yeni Azərbaycan Partiyasının VII qurultayında dərin məzmunlu nitqində Prezident İlham Əliyev Azərbaycanın müstəqillik dövründə keçdiyi tarixi yola nəzər saldı, YAP-ın yaranma zərurətinin geniş təhlilini verdi. Tariximizin acı reallıqlarından biri odur ki, müstəqilliyimizin ilk illərində Azərbaycanın üzləşdiyi böhran və fəlakət xalqımızn sabaha olan ümidlərini demək olar ki, qırmışdı. Naşı rəhbərlik və onların yarıtmaz idarəçiliyi nəticəsində yaranan xaos, parçalanma, dövlətin məhvi kimi problemlər AXC-Müsavat iqtidarının ilk günlərindən etibarən Azərbaycanda yeni siyasi gücə böyük ehtiyac yaratmışdı. Prezident İlham Əliyevin qurultayda dediyi kimi: "Yeni Azərbaycan Partiyasının yaradılması zərurət idi. O vaxt, yenə də deyirəm, cəsarətli, qorxmaz insanlar açıq-aydın görürdülər ki, təzə-təzə müstəqilliyə qovuşmuş gənc ölkəmiz böyük fəlakətlə üz-üzədir və artıq ölkədə gedən proseslər idarəolunmaz xarakter almışdır. Hərbi məğlubiyyət eyni zamanda daxili böhranla tamamlanır. Ölkə daxilində gedən xoşagəlməz proseslər, siyasi çəkişmələr, hakimiyyət uğrunda mübarizə ölkəmizin müstəqil yaşamasını sual altına qoymuşdur".

Bəli, dövlət müstəqilliyi qazanıldıqdan sonra hakimiyyətdə olanların anormal idarəetmə metodları daxili situasiyanı gərginləşdirməklə yanaşı, gələcək perspektivləri də ciddi təhlükə altına salmışdı. Ölkəni bürümüş dərin siyasi, iqtisadi, sosial gərginlik xalqı, o cümlədən ziyalıları, tanınmış insanları son dərəcə narahat edirdi. Belə bir şəraitdə onlar, eləcə də vətəndaşların mütləq əksəriyyəti çıxış yolunu Ulu Öndər Heydər Əliyevin fəal siyasi səhnəyə qayıtmasında, onun rəhbərliyi altında hakimiyyət uğrunda sivil mübarizə aparacaq siyasi təşkilatın yaradılmasında görürdülər.

1992-ci ilin noyabrında Heydər Əliyevin rəhbərliyi ilə YAP-ın yaranması respubilikanın siyasi-ictimai həyatında böyük hadisəyə çevrilmişdi. Ulu Öndərə olan böyük inamın nəticəsi idi ki, qısa müddətdə partiyanın sıralarında on minlərlə insan birləşmişdi. Ozamankı hakimiyyət dairələrini bu, ciddi narahat etsə də və onlar tərəfindən yaradılan əngəllər, təzyiqlər olsa da, YAP-ın ölkənin ən aparıcı siyasi partiyasına çevrilməsinin qarşısını ala bilmədilər. Onu da qeyd edim ki, YAP müxalifət partiyası kimi təsis olunmuşdu. Lakin bəzi indiki dağıdıcı müxalifət partiyalarından fərqli olaraq, YAP Azərbaycanın milli maraqlarına qarşı müxalifətdə deyildi. YAP ölkəni anarxiya və xaosa sürükləyən, yeni qazanılmış dövlət müstəqilliyini itirmək təhlükəsi qarşısında qoyan hakimiyyətə, Azərbaycanı parçalamaq istəyən dairələrə qarşı müxalifətdə idi.

1992-1993-cü illlərin hadisələri, ölkəni bürüyən siyasi böhran xalqı Heydər Əliyevi Bakıya - ölkənin taleyini həll etmək üçün çağırmağa vadar etdi. Beləliklə də, tarixi proseslər Heydər Əliyevə ölkə rəhbəri, YAP-a isə hakim partiya statusu həvalə etdi. Heydər Əliyevin ali hakimiyyətə qayıdışı ilə Azərbaycanda müstəqil dövlətçiliyin əsaslarının formalaşması prosesi başlandı. Qurultaydakı nitqində bu məsələyə toxunan Prezident, YAP-ın sədri İlham Əliyev çox doğru olaraq dedi ki, müstəqillik tariximiz məhz ondan başladı: "Ona görə bizim əsl müstəqillik tariximiz Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Çünki ona qədər müstəqillik sözdə var idi, amma faktiki olaraq yox idi".

YAP hakim partiya statusu qazandığı ilk gündən proqramında qarşıya qoyduğu vəzifələrin icrasına, ictimai həyatın bütün sahələrində tərəqqiyə nail olmaq məqsədilə yüksək fəallıq nümayiş etdirməyə, Azərbaycanı düçar olduğu təhlükə və böhranlardan qurtarmaq üçün özünün məqsədyönlü fəaliyyətinə başladı. Güclü lideri, mükəmməl proqramı, təkmil siyasi platforması, xalqın marağı naminə qətiyyət və prinsipiallığı sayəsində, digər tərəfdən azərbaycançılıq və dövlətçilik mövqeyində durduğu üçün qısa müddətdə öz sıralarında yüz minlərlə insanı birləşdirdi. Partiyanın öz məramında və praktik fəaliyyətində demokratik prinsiplərə, ümumbəşəri dəyərlərlə milli xüsusiyyətlərin vəhdətinə, hüquqi dövlətçiliyə, azad vətəndaş cəmiyyətinə, sərbəst iqtisadiyyatın yaradılmasına üstünlük verməsi, güclü sosial müdafiə proqramı ilə çıxış etməsi onu xalqın əsas siyasi istinadgahına çevirdi.

Heydər Əliyevin 1993-cü ildə xalqın istək və tələbi ilə hakimiyyətə qayıdışından sonra YAP sadəcə hakim siyasi partiyaya çevrilmədi. YAP həm də Ümummilli Liderin siyasi və ideoloji irsinin, dövlətçilik təcrübəsinin və quruculuq fəaliyyətinin harmoniyasını özündə əks etdirməklə, ölkənin siyasi səhnəsinin ön cərgəsində özünə layiqli yer tutdu.

2003-cü ilin oktyabrında prezident seçkilərindən öncə xalqımıza müraciət edən Ulu Öndər Heydər Əliyev deyirdi: "Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək".

2003-cü ildə keçirilən prezident seçkilərində cənab İlham Əliyevin seçilməsi xalqımızın Heydər Əliyev ideyalarına inamının və YAP-a olan etimadının növbəti təcəssümü idi. Bu seçki Heydər Əliyev siyasi kursunun alternativsizliyini bir daha nümayiş etdirdi. İlk gündən həyata keçirdiyi uğurlu siyasətlə Prezident İlham Əliyev xalqın Heydər Əliyev ideyalarına olan inamını daha da gücləndirdi. Dövlət başçısının uğurlu siyasi kursu YAP-ın nüfuzunu artırdı, dayaqlarını daha da möhkəmləndirdi. Respublikamızda YAP-ın güclü siyasi partiya kimi özünü göstərməsi, o cümlədən geniş beynəlxalq əlaqələr qurması İlham Əliyevin fəaliyyəti ilə bağlıdır.

YAP-ın tarixində əlamətdar hadisələr çoxdur. 1993-cü ildən bəri keçirilən seçkilərdə qazanılan qələbələr tək YAP-ın deyil, bütün xalqımızın uğuru olmuşdur. Azərbaycanda 50-dən çox siyasi partiya mövcud olsa da, onların heç biri sosial bazasına, siyasi-ictimai nüfuzuna və gücünə görə YAP-la müqayisə oluna bilməz. YAP-dan başqa Azərbaycanın tarixində indiyə qədər üzvlərinin sayı yüz minlərlə ölçülən siyasi təşkilat olmayıb. Bu gün YAP-ın sıralarında 760 min nəfərin birləşməsi həmin insanların YAP-a, partiyanın yaradıcısı Ulu Öndər Heydər Əliyevin zəngin siyasi irsinə, YAP-ın sədri, ölkə Prezidenti İlham Əliyevin həyata keçirdiyi siyasətə münasibətin, Azərbaycandakı ictimai-siyasi duruma verdikləri yüksək qiymətin göstəricisidir.

Seçkilərdə qazandığı qələbələr YAP-ın cəmiyyətdə yerinin möhkəm olduğunu təsdiqləyir. Dövlətçiliyimizin gücləndirilməsi, ölkəmizin inkişafı istiqamətində həyata keçirilən proqramların nəticəsi olaraq xalq bu təşkilata böyük etimad göstərir. Malik olduğu potensial, xalqın inamı, ideyalarının mükəmməlliyi YAP-ın hər zaman hakim partiya statusunu qoruyacağına güclü təminatdır.

YAP-ın tarixindəki əlamətdar hadisələrdən biri isə partiyanın 2005-ci ilin mart ayında keçirilən III qurultayında baş verdi. Həmin vaxt qurultay nümayəndələri çox şərəfli və tarixi bir qərar verərək cənab İlham Əliyevi partiyanın sədri seçdilər. Heydər Əliyevin siyasi əmanəti olan partiyaya sədr seçkisinə Ulu Öndərin ən layiqli davamçısı, şərəfli irsin daşıyıcısı olan İlham Əliyev alternativsiz getdi. Bu da onu deməyə tam əsas verirdi ki, YAP-ın yüz minlərlə üzvü yeni sədrini yekdilliklə dəstəkləyir və onun ətrafında sıx birləşiblər. Ötən müddət ərzində özünü tam doğruldan bu inam həm də YAP-ın daha böyük nailiyyətlər əldə etməsinə əsas zəmin oldu.

Ümumiyyətlə, YAP-ın qurultaylarının əhəmiyyətlərini xüsusi qeyd etmək istərdim. Ölkəmizin siyasi həyatında maraqla qarşılanan qurultaylarda YAP-ın qarşıya qoyduğu vəzifələrin icrası müzakirə olunmuş, ötən dövrün hesabatı dinlənilmiş, yeni qərarlar qəbul edilmişdir. Hər bir qurultay partiyanın və bütövlükdə cəmiyyətin həyatında böyük siyasi hadisəyə çevrilmişdir. YAP-ın VII qurultayı da partiya fəaliyyətinin və idarəçiliyinin təkmilləşdirilməsi baxımından mühüm qərarların qəbulu, yeni hədəflərin müəyyən edilməsi ilə yadda qaldı.

Öncə onu qeyd edim ki, YAP-ın VII qurultayının keçirilməsinin kifayət qədər güclü əsasları vardı. Təsadüfi deyil ki, cənab Prezident də nitqinə məhz bununla başladı. Dövlət başçısının qeyd etdiyi kimi, altıncı qurultaydan ötən üç il ərzində ölkə həyatında bir çox önəmli hadisələr baş vermişdir. Bu dövrdə Prezident İlham Əliyevin hələ 2018-ci ilin aprel seçkisindən sonra elan etdiyi yeni islahatlar uğurla həyata keçirilmiş, cəmiyyət həyatında olduqca mühüm keyfiyyət dəyişiklikləri baş vermişdir. Bu dövrdə Azərbaycanın daha da qüdrətli ölkəyə çevrilməsi istiqamətində atılan addımların uğurlu nəticələri isə göz önündədir. İdarəetmədə, məhkəmə-hüquq sistemində, sosial sferada həyata keçirilən islahatlar cəmiyyətimizə yeni əhvali-ruhiyyə bəxş etdi.

Ötən dövrün ən böyük hadisəsi isə, əlbəttə ki, əvvəldə qeyd etdiyim kimi, İkinci Qarabağ müharibəsində qazanılan möhtəşəm və tarixi Qələbədir. Bu qələbəni Prezident, Ali Baş Komandan İlham Əliyev sərkərdə qətiyyəti ilə təmin etdi. Öz haqqını qorumaq, pozulmuş hüquqlarını təmin etmək bugünkü ziddiyyətli və dəyişkən beynəlxalq münasibətlər sistemində hər dövlətə nəsib olan imkan deyil. Yaxın və uzaq coğrafiyamızda kifayət qədər ölkə göstərmək olar ki, haqsız şəkildə təzyiq və təsirlərə məruz qalıb, ərazi bütövlüyü pozulub. Ələlxüsus güc amilinin beynəlxalq hüquqdan önə keçdiyi indiki şəraitdə bir çox dövlət beynəlxalq ictimaiyyətin laqeyd münasibətinin formalaşdırdığı vəziyyətlə sadəcə barışmalı olur. Lakin 44 günlük müharibənin nəticəsində İlham Əliyev respublikamızın və xalqımızın pozulmuş hüquqlarını bərpa etdi. Azərbaycan Prezidenti sübut etdi ki, güc yolu ilə bu hüququ bərpa etmək mümkündür. Bununla da Dağlıq Qarabağ məsələsi ətrafında yeni tarixi şərait yaratdı. Bu şərait ondan ibarətdir ki, Azərbaycanın ərazi bütövlüyü bərpa olunub və "Dağlıq Qarabağ problemi" ifadəsi aradan qalxıb. İndi Ermənistan tarixinin ən ağır və utanc dövrünü yaşayır, erməni təəssübünü çəkən dairələr isə Azərbaycanın yaratdığı yeni reallıqla barışmağa məcburdurlar.

Bütün bu möhtəşəm hadisələr - həm Vətən müharibəsindəki Qələbə, həm də mütərəqqi islahatlar aparıcı və hakim siyasi partiyaya xalq etimadının alternativsiz ünvanı olan YAP-ın uğurlarıdır. Bu uğurların hər biri həm də YAP-ın prinsiplərində, məram və nizamnaməsində yer alan məsələlərin, məqsəd və vəzifələrin həyata vəsiqə alması deməkdir.

YAP-ın VII qurultayında qəbul edilən qərarlar da cəmiyyətimizdə son illərdə baş verən pozitiv yeniliklərə, xüsusən idarəçilikdə həyata keçirilən islahatlara adekvat idi. Bu qərarlar onu göstərdi ki, YAP köklü, sarsılmaz təməllərə malik təşkilat olmaqla yanaşı, müasir çağırışları da diqqətdən kənarda qoymayan, zamanın nəbzini tutmağı bacaran alternativsiz siyasi qüvvədir. Bu baxımdan yeni idarə heyətinin formalaşdırılması, idarəçilikdə baş verən dəyişikliklər, YAP fəallarının irəli çəkilməsi partiya fəaliyyətində keyfiyyətcə yeni mərhələnin əsasını qoyur.

Qurultayda YAP-ın yeni nizamnaməsinin qəbulu da mühüm əhəmiyyət kəsb edir. YAP-ın nizamnaməsi onun fəaliyyətini tənzimləyən hüquqi sənəddir. Partiyanın ilk nizamnaməsi 1992-ci ildə qəbul edilmiş və əvvəlki qurultaylarda əlavə və düzəlişlər olunmuşdur. Lakin zaman sürətlə dəyişir, yeni çağırışlar meydana çıxır, partiya fəaliyyətinin təkmilləşdirilməsi, çevik mexanizmlərinin formalaşdırılması təşkilatın nizamnaməsinin də yenilənməsini zəruri edirdi. Ona görə yeni nizamnamənin qəbulu partiyanın idarə olunmasının və fəaliyyətinin tənzimlənməsinin yeni mexanizminin yaradılması baxımından aktuallıq kəsb edir.

Veteranlar Şurasının yaradılması isə mənəvi məsələdir. YAP gənc təşkilat olsa da, sıralarında partiya fəaliyyətinə böyük töhfələr verən və bu gün də respublikanın siyasi-ictimai həyatında fəal iştirak edən ağsaqqallar var. Prezident İlham Əliyev çıxışında Veteranlar Şurasının yaradılmasını çox önəmli addım kimi dəyərləndirdi və qeyd etdiyi kimi, veteranlar partiyanın bugünkü və gələcək fəaliyyətində öz səmərəli işlərini davam etdirəcəklər.

Yekun nitqində "Əminəm ki, partiyanın rəhbər orqanlarında təmsil olunan üzvləri fəal olacaqlar, partiyamızın fəaliyyətində öz rolunu oynayacaqlar, ümumi işimizə öz töhfəsini verəcəklər ki, partiyamız bundan sonra da ölkəmizin aparıcı siyasi qüvvəsi olaraq qalsın" deyən Prezident, YAP sədri İlham Əliyev yeni reallıqlardan irəli gələn vəzifələr də müəyyən etdi. YAP üzvləri öz fəaliyyətlərində bu vəzifələri şərəflə və keyfiyyətlə yerinə yetirəcək, həm partiya işinə, həm də ölkədə həyata keçirilən siyasi kursun daha böyük uğur qazanmasına layiqli töhfə verəcəklər.

Azərbaycan xalqı tarixinin şərəfli dövrünü yaşayır. Qarşıdan gələn müstəqilliyimizin 30 illiyini də Qələbə qazanmış xalq kimi qeyd edəcəyik. Tariximizi şərəfləndirən bu Zəfər, cəmiyyətimizin pozitiv dəyişiklikləri, dövlətimizin yüksəlişinin hər bir nümunəsi İlham Əliyevin həyata keçirdiyi möhtəşəm siyasi kursun təcəssümüdür. Azərbaycan öz yüksəlişinin yeni mərhələsinə qədəm qoyub. Torpaqlarımızın işğaldan azad edilməsi, ərazi bütövlüyümüzün bərpası, Azərbaycanın regionda və dünyada nüfuzunun daha da artması respublikamızın bundan sonrakı inkişafı üçün yeni imkanlar yaradır.

Dövlət başçısının elan etdiyi milli prioritetlərdə artıq inkişafın yeni mərhələsinin hədəfləri də müəyyən olunub. Dövlətimiz və xalqımız bu hədəflərə də inamla çatacaq. İndi İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan özünün yeni inkişaf nümunələrini yaradır və dünyaya təqdim edir.

*YAP da Ulu Öndər Heydər Əliyevin ideyalarını, Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrini rəhbər tutaraq hakim siyasi partiya kimi bu prosesə töhfə verəcək, bundan sonra da öz fəallığı ilə nümunə göstərəcək.*

**_Zahid CƏFƏROV,_**
**_Bakı Dövlət Universitetinin Əmək və ekologiya hüququ kafedrasının professoru, hüquq üzrə elmlər doktoru_**

# Daha bir şəhidimizin yeni doğulan övladının zəruri xərcləri "YAŞAT" Fondu tərəfindən qarşılanıb

Vətən müharibəsindən sonra dünyaya gələn şəhid övladları üçün "YAŞAT" Fondunun layihəsi davam edir.



Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, daha bir şəhidimizin yeni doğulan övladının, şəhidimiz Nurlan Mustafayevin övladı Nurlanın zəruri xərcləri fond tərəfindən qarşılanıb. Bu məqsədlə anaya 1000 AZN təqdim olunub və dünyaya yeni göz açan körpənin adına 5000 AZN-lik hesab açılacaq. Həmin hesaba vəsait fonda edilən ianələr hesabına toplanmış məbləğdən köçürülür. Həmin məbləğin üzərinə mütəmadi olaraq faiz toplanacaq və şəhid övladı 16 yaşına çatdıqdan sonra toplanan məbləği özü hesabından çıxara biləcək. Qeyd edək ki, bankla ana arasında bağlanmış müqaviləyə əsasən bəzi zəruri hallarda ana həmin vəsaiti daha tez çıxara biləcək. Həmçinin ana həmin məbləği istənilən valyutaya da dəyişə bilər.



Allah şəhidimizə rəhmət etsin!

Xatırladaq ki, "YAŞAT" Fonduna müraciət etmək və fondun fəaliyyəti ilə tanış olmaq üçün **yashat.gov.az** portalı istifadədədir. Fondun hesabatlılığı ilə tanış olmaq üçün keçid: https://yashat.gov.az/report/tableau

Həmçinin fondun 8110 "Çağrı" Mərkəzi fəaliyyət göstərir.

# Erməni əsilli Maral Nacaryan Türkiyə üzərindən Livana geri göndərilib

Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva KİV-in erməni əsilli saxlanılan şəxs Maral Nacaryanla bağlı sualını cavablandırıb.

AZƏRTAC-ın məlumatına görə, Leyla Abdullayeva suala cavabında bildirib ki, Livanın Burc Hammud ərazisində anadan olan Maral Nacaryan (Maralle Najarian) həm Ermənistan, həm də Livan vətəndaşlığına malikdir. Keçmiş münaqişə bölgəsində Azərbaycan hüquq mühafizə orqanları tərəfindən birgə yaşadığı erməni əsilli Livan vətəndaşı ilə birlikdə saxlanılıb.

O, Azərbaycan ərazisinə qanunsuz daxil olması və Azərbaycan qanunvericiliyini pozan digər hərəkətlərə yol verməsi barədə ifadələr verib.

Azərbaycan tərəfinin nümayiş etdirdiyi humanizm nəticəsində M.Nacaryan bu ilin 10 mart tarixində azad edilib.

Qeyd etmək istərdik ki, o, şəxsən Ermənistana deyil, Livana qayıtmağa üstünlük verib. Qeyd etmək istərdik ki, Rusiya tərəfi ilə aparılan müzakirələr nəticəsində Livan vətəndaşı olduğu üçün onun Rusiya ərazisindən göndərilməsi mümkün olmayıb. Bu səbəbdən M.Nacaryan Türkiyə üzərindən Livana geri göndərilib.

Ümumiyyətlə bildirmək istərdik ki, hazırda Azərbaycanda saxlanılan erməni əsilli qadın yoxdur. Vətən müharibəsi zamanı saxlanılan 5 qadının hamısı, əksəriyyəti isə hətta hərbi əməliyyatlar davam edən zamanı sərbəst buraxılıb.

# FHN gözlənilən hava şəraiti ilə əlaqədar əhaliyə müraciət edib

Fövqəladə Hallar Nazirliyi (FHN) hava şəraitinin kəskin pisləşəcəyi ilə əlaqədar əhaliyə xəbərdarlıq edib.

FHN-in Mətbuat xidmətindən AZƏRTAC-a daxil olan müraciətdə bildirilib ki, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətinin məlumatına görə, bu gündən Azərbaycanın şimal və qərb rayonlarından başlayaraq martın 13-ü səhərədək ölkə ərazisində hava şəraiti qeyri-sabit keçəcək, yağıntılı olacaq, havanın temperaturu aşağı düşəcək. Xüsusilə Bakıda və Abşeron yarımadasında güclü külək əsəcəyi, çovğun olacağı, qar yağacağı, bəzi yerlərdə intensiv olacağı, əsasən dağlıq və dağətəyi rayonlarda yolların buz bağlayacağı gözlənilir.

Gözlənilən hava şəraiti ilə əlaqədar Fövqəladə Hallar Nazirliyi bir daha əhaliyə müraciət edərək təhlükəsizlik naminə ciddi zərurət olmadan güclü küləkli və çovğunlu havada bayıra çıxmamağı tövsiyə edir:

"Bununla yanaşı, əgər güclü külək və çovğun sizi küçədə haqlayıbsa, yüngül konstruksiyalı və müvəqqəti tikililərdən, bina və reklam lövhələrindən uzaq durun, elektrik dirəyi və məftillərinin, hündür ağacların altında dayanmayın. Bu zaman diqqətli hərəkət edərək yaxınlıqdakı binanın zirzəmisində və ya möhkəm tikilidə daldalanmağa çalışın.

Buz bağlamış yollarda hərəkət edərkən ayaqqabını sürüşməyə qarşı hazırlayın - ayaqqabının dabanına metal basma, quru altlığa isə yapışqan plastır, yaxud izolyasiya lenti yapışdırın. Altlığı qum və ya sumbata kağızı ilə sürtün.

Ehtiyatla, tələsmədən, ayaqqabını yerə bütövlükdə basaraq addımlayın. Bu zaman ayaqlar azca zəiflədilmiş, əllər boş olmalıdır.

Yaşlı insanların rezin ucluqlu əsadan, yaxud ucları batıcı olan xüsusi çubuqdan istifadə etməsi tövsiyə olunur.

Sürüşsəniz, zərbənin gücünü azaltmaq üçün oturun.

Yıxılanda özünüzü toparlayın, qollarınızı büküb diyirlənərək zədə almaqdan qorunun.

Unutmayın, qaydalara biganəlik - həyatımıza təhlükədir. Təhlükə zamanı 112-yə zəng edin!

# 30 kiloqramadək narkotik vasitənin qaçaqmalçılıq yolu ilə ölkə ərazisinə keçirilməsinin qarşısı alınıb

Dövlət sərhədinin etibarlı mühafizəsi və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində sərhəd mühafizə və əməliyyat-axtarış tədbirləri davam etdirilir.

Dövlət Sərhəd Xidmətinin (DSX) Mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, son günlərdə Xidmətin əməkdaşlarının sayıqlığı nəticəsində növbəti dəfə təxmini çəkisi 30 kiloqram olan narkotik vasitənin, psixotrop və güclü təsirli maddələrin, eləcə də silah-sursatın dövlət sərhədindən qaçaqmalçılıq yolu ilə Azərbaycan Respublikasına keçirilməsinin qarşısı alınıb.

Fevralın 27-də DSX-nin Sərhəd Qoşunlarının "Horadiz" sərhəd dəstəsinin xidməti ərazisində Beyləqan rayonunun İmamverdili kəndinin yaxınlığında yerləşən sərhəd zastavasının xidməti sahəsində şübhəli şəxs qismində saxlanılmış 1991-ci il təvəllüdlü Cəlilabad rayon sakini Xəlilov Natiq Mais oğlunun əlindəki bağlamaya baxış zamanı içərisində 3 kiloqram 87 qram qurudulmuş marixuana, 2 kiloqram 941,4 qram heroin, 730 həb metadon, 120 kapsul preqabalin, 1 kiloqram 945,8 qram metamfetamin, həmçinin 9 millimetr kalibrli "Baredda A6" və 8 millimetr kalibrli "Lord T822" markalı tapançalar aşkarlanaraq götürülüb.





Martın 4-də Füzuli rayonunun Arayatlı kəndinin yaxınlığında yerləşən sərhəd zastavasının xidməti sahəsində bir nəfər ərazidən bağlama götürərək hadisə yerindən uzaqlaşmağa cəhd edərkən saxlanılıb. Bakı şəhər sakini 1990-cı il təvəllüdlü Nəcəfzadə Ceyhun Eyvaz oğlu olması müəyyənləşdirilmiş həmin şəxsin əlindəki bağlamaya baxış zamanı 192,8 qram heroin, 982,2 qram tiryək, 3 kiloqram 7,1 qram həşiş qətranı, 60 ədəd metadon, 100,1 qram metamfetamin, 224 kapsulda preqabalin həbləri aşkarlanıb.

Martın 6-da Beyləqan rayonunun İmamverdili kəndinin yaxınlığında yerləşən sərhəd zastavasının xidməti sahəsində dövlət sərhədinin gücləndirilmiş üsulla mühafizəsi üzrə tədbirlər nəticəsində sərhədboyu ərazidə hərəkətdə olan "Nexia Ravon" markalı 90-PN-378 dövlət nömrə nişanlı avtomobil içərisində üç nəfər sərnişin ilə birlikdə saxlanılıb. Avtomobilə baxış zamanı göy rəngli bağlamanın içərisində 16 kiloqram 983,18 qram tiryək və 400 ədəd M40 həbləri aşkarlanaraq götürülüb. Avtomobildəki şəxslərin Bakı şəhər sakinləri 1998-ci il təvəllüdlü İbrahimov Zaur Məzahir oğlu, 1998-ci il təvəllüdlü Zeynalov Ramiz Rafiq oğlu və Şamaxı rayon sakini 1998-ci il təvəllüdlü İbadov Sərvin Sərvər oğlu olması müəyyənləşdirilib. Araşdırma zamanı onlar törətdikləri cinayət əməllərini etiraf edərək əraziyə narkotik vasitə götürməyə gəldiklərini bildiriblər.

Bütün faktlar üzrə cinayət işləri başlanılıb. Saxlanılan şəxslər təqsirləndirilən şəxs qismində cəlb olunaraq barələrində həbs qətimkan tədbiri seçilib.

# Biz birlikdə güclüyük!

## Azərbaycanda koronavirus infeksiyasına 608 yeni yoluxma qeydə alınıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasından 128 nəfər müalicə olunaraq sağalıb, 608 yeni yoluxma faktı qeydə alınıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 5 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 238 min 383 nəfərin koronavirus infeksiyasına yoluxması müəyyən edilib. Onlardan 230 min 244 nəfər müalicə olunaraq sağalıb, 3262 nəfər vəfat edib. Aktiv xəstə sayı 4877 nəfərdir.

Ötən müddət ərzində 2 milyon 682 min 116 test aparılıb. Bugünkü test sayı isə 10 min 503-dür.




## Ötən gün Azərbaycanda 11 mindən çox vətəndaşa COVID-19 əleyhinə peyvənd vurulub

Martın 10-da Azərbaycan Respublikasında 11 min 447 nəfər yeni koronavirus (COVID-19) infeksiyasına qarşı vaksinasiya olunub.

AZƏRTAC koronavirusinfo.az saytına istinadla xəbər verir ki, hazırkı dövrədək ölkəmizdə 436 min 849 nəfər COVID-19 əleyhinə peyvəndlənmə prosesində iştirak edib.

Vaksinasiya prosesi respublikamızın bütün rayonlarında uğurla davam edir.

# 118 mindən 118 milyona...

## Son 1 ildə koronavirusa yoluxanların sayı min dəfə artıb

*Əvvəli 1-ci səh.*

Belə ölkələrin ümumi sayı 111-ə çatıb. Cənubi Afrika Respublikasında aşkar edilmiş 501y.V2 ştammının yayılma coğrafiyası 58 dövlətə qədər genişlənib. İlk olaraq Braziliya və Yaponiyada aşkarlanmış P.1 ştammı isə hazırda 32 ölkədə dövr edir. Bu barədə ÜST-nin həftəlik epidemioloji bülletenində yazılır.

Qeyd edilir ki, VOC 202012/01 ştammının insanları yoluxdura bilməsi əvvəllər məlum olan SARS-CoV-2 koronavirus ştammından 36-75 faiz daha yüksəkdir. Mütəxəssislər xəstəliyin və ölüm nəticəsinin daha ağır gedişinin mümkün yüksək riskinə işarə edirlər.

Koronavirusun 501Y.V2 növünə gəldikdə, o, martın 2-dən bəri üç ölkədə əlavə olaraq aşkar edilib, onların ümumi sayı 58-ə çatıb. ÜST-də olan məlumata görə, bu ştamm, ilkin SARS-CoV-2 ştammından 1,5 dəfə daha yoluxucudur. P.1 ştammı 32 ölkədə dövr edir və bir həftə ərzində belə ölkələrin sayı 35-ə çatıb.

Bu bir il ərzində alimlər koronavirus genomunu tez bir zamanda deşifrə etməyə və infeksiya ilə mübarizə aparmaq üçün vaksinlər hazırlamağa nail olublar. Lakin onlar hələ də pandemiyanın yaranma mənbəyini müəyyən edə, iqlim və sosial-iqtisadi şəraiti oxşar olan ölkələrdə infeksiyanın tamamilə müxtəlif yollarla yayılmasının səbəblərini izah etməyə nail ola bilməyiblər.

Bir neçə aydır ki, ölkələr təhlükəli virusla mübarizədə ən effektli üsul olan vaksinasiyaya start veriblər. Azərbaycan da daxil olmaqla bir çox dövlətdə əhali koronavirusa qarşı peyvənd olunur. Ölkəmizdə koronavirus əleyhinə vaksinasiya prosesi yanvarın 18-də "Azərbaycan Respublikasında COVID-19 xəstəliyi əleyhinə 2021-2022-ci illər üçün Vaksinasiya Strategiyası"na uyğun olaraq başlayıb. Ölkəmiz Çində istehsal edilmiş "CoronaVac" peyvəndi ilə vaksinasiya aparır. Bu vaksinin 4 milyon dozasının alınması barədə müqavilə bağlanıb. Müqavilənin dəyəri 85158. 5 min manat təşkil edir. Hazırkı dövrədək ölkəmizdə koronavirus infeksiyasına qarşı 436 849 nəfər peyvəndlənmə prosesində iştirak edib. Vaksinasiya respublikamızın bütün rayonlarında uğurla davam etdirilir.

Koronavirus infeksiyasına qarşı aparılan vaksinasiya ilə bağlı Səhiyyə Nazirliyinin baş infeksionisti Təyyar Eyvazov də əhaliyə müraciət edib. O deyib ki, artıq bir ildən çox müddətdir COVID-19 pandemiyası dünyanın hər yerində, o cümlədən ölkəmizdə də tüğyan edərək həyatımızı çətinləşdirib, xeyli sayda insanın xəstələnməsinə və itkilərə səbəb olub. Pandemiyanın ilk günündən dövlətimiz bu infeksiyaya qarşı bütün resurslarını səfərbər edərək mübarizə aparır. Təəssüf ki, virusa qarşı hələlik effektiv dərman vasitəsi tapılmayıb. Belə bir durumda pandemiya ilə mübarizənin ən önəmli yolu onun profilaktikasıdır. İlk aylarda bunlar yalnız müxtəlif gigiyenik qaydalara və karantin tədbirlərinə əməl olunması ilə məhdudlaşırdısa da, artıq insanların xilası üçün daha effektiv və etibarlı vasitə olan vaksinlər də tətbiq olunur. Vaxtilə insanların kütləvi ölümünə səbəb olmuş təbii çiçək xəstəliyinə də məhz vaksinasiya yolu ilə qalib gəlinib. Vaksinasiya nəticəsində qızılca, difteriya, göy öskürək və s. kimi bir sıra infeksiyalarla xəstələnmə halları xeyli azalıb, yüz minlərlə insanın həyatı xilas edilib.

Baş infeksionistin sözlərinə görə, indiyədək yeni koronavirus infeksiyasına qarşı müxtəlif vaksinlər hazırlanıb. Bəzilərinin hazırlanma metodları elmi tərəqqinin ən son nailiyyətlərinə əsaslanır. Artıq əminliklə demək olar ki, hazırlanmış və tətbiqinə icazə verilmiş bütün vaksinlərin yetərli effektivliyi və təhlükəsizliyi aparılmış çoxsaylı elmi araşdırmalarla sübut olunub. Ölkəmizdə istifadə olunan peyvənd də təhlükəsizliyi və effektivlik dərəcəsi illərlə sınanmış ənənəvi üsulla, inaktivləşdirilmiş, yəni ölü virusdan hazırlanıb: "Hər bir vaksinin yan təsirləri mövcuddur. Bu, əsasən, az hallarda rast gəlinən, zəif ifadə olunmuş və qısa müddətli, inyeksiya yerində mülayim ağrı hissi, qızartı, yüngül ümumi zəiflik, baş ağrıları, subfebril hərarət və sairədir. Bu əlamətlər orqanizmin yeridilən yad maddələrə qarşı verdiyi təbii reaksiyasıdır və immun sistemin yetərli fəaliyyətini əks etdirir. Tətbiq olunan vaksinin qeyd olunan xüsusiyyətləri ölkə üçün vaksin seçimi zamanı bu sahənin əksər aparıcı alim və mütəxəssisləri tərəfindən nəzərə alınaraq dəstəklənib və müvafiq dövlət qurumlarına tövsiyə edilib. Nazirlər Kabineti tərəfindən qəbul olunmuş "Vaksinasiya Strategiyasına" əsasən artıq xeyli vətəndaşımız peyvənd olunub. Vaksinasiya prosesi davam edir".

T.Eyvazov qeyd edib ki, vaksinasiyanın məqsədi yoluxma hallarının əhəmiyyətli azalmasına nail olmaqla infeksiyanı nəzarət olunan həddə saxlamaq, ölüm hallarını minimuma endirməkdir. Lakin bu məqsədə yalnız əhalinin əksəriyyəti peyvənd olunduqdan sonra çatmaq mümkündür: "Lazımi sayda preparatın ölkəyə birincilər sırasında gətirilməsini təmin etmək dövlətimizin nailiyyətidir. Təəssüf ki, dövlətimizin bu uğuruna kölgə salmaq istəyənlər də var. Son günlər sosial şəbəkələrdə peyvənd edilən vətəndaşların iflic olması, ağır xəstələnməsi, hətta ölməsi, vaksinasiyanın gələcəkdə sonsuzluğa səbəb olacağı barədə heç bir elmi əsası olmayan və həqiqəti əks etdirməyən məlumatlar yayılır. Bu cür yoxlanılmayan şayiələr tirajlanaraq insanlarda çaşqınlıq yaradır. Amma Səhiyyə Nazirliyinə indiyədək vaksin olunmuş insanlarda bu tip qeyri-adi ağırlaşmalar barədə heç bir məlumat daxil olmayıb. Bir daha əhalinin nəzərinə çatdırırıq ki, əgər peyvənddən sonra hər hansı bir güclü reaksiya baş verərsə, bu haqda mütləq qaydada müvafiq tibb qurumlarına müraciət etsinlər.

Artıq 400 mindən çox vətəndaşımız peyvənd olunub və hər gün vaksin olunmaq üçün minlərlə insan könüllü olaraq müvafiq tibb idarələrinə müraciət edir. Sevindirici haldır ki, peyvənd olunanların sayı bir il ərzində bu infeksiya ilə xəstələnənlərin rəsmi statistik göstəricilərini üstələyib. Bu o deməkdir ki, yaxın gələcəkdə bu qədər insan infeksiyaya yoluxmayacaq və hətta az sayda yoluxmalar olsa belə onlar arasında ölüm halları baş verməyəcək. Tezliklə peyvəndləmənin müsbət effektini hər birimiz öz həyatımızda hiss edəcəyik. Şayiələrə deyil, elmi faktlara əsaslanaraq peyvənd kampaniyasında könüllü iştirak edin ki, bu infeksiyaya qalib gələk və normal həyatımıza qayıdaq".

Azərbaycanda iki aya yaxındır vaksinasiya prosesi aparılsa da, əhalinin əksər hissəsi peyvənd olunmadığı halda yoluxma riski qalacaq. Son günlər koronavirusa yoluxma sayı ilə bağlı vəziyyət ürəkaçan deyil. Karantin rejiminin yumşaldılmasından sonra yoluxma sayında artım müşahidə olunmaqdadır. Əslində, bu, gözlənilən idi. Çünki əvvəl də yumşaldılmalardan sonra insan təması daha da artdığı üçün yoluxma sayında artma müşahidə olunmuşdu. Digər tərəfdən, sosial məsafənin qorunmaması, tibbi maskadan düzgün istifadə edilməməsi, gigiyenik qaydalara əməl olunmaması da gündəlik statistikada artım yaradır. Etiraf edək ki, yoluxma sayı insanların bir-birinə qonaq getməsi, sıx təması nəticəsində də artır. Bu baxımdan Novruz bayramında insanların sıx gediş-gəlişinin olması yoluxma sayının artmasına, xəstəliyin sürətlə yayılmasına təsir göstərə bilər. Ona görə də mütəxəssislər hər kəsi bayramı evində qeyd etməyə, bir-biri ilə sıx təmasda olmamağa çağırır. Eyni zamanda peyvənd olunmayanlar varsa, qısa zamanda poliklinikalara müraciət edib, vaksin vurdursunlar. Unutmayaq ki, könüllü vaksinasiya olunmaqla, tibbi maskalardan düzgün istifadə etməklə, sosial məsafə qoruyub, gigiyena qaydalarına riayət etməklə pandemiyaya qalib gələ bilərik.

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

# Ermənistan prezidenti yenə də Paşinyana qarşı çıxdı

*Əvvəli 1-ci səh.*

Bütün bunların fonunda erməni iqtisadçılarını təşvişə salan daha bir məqam diqqət cəlb edib ki, bu da xaricdən pulköçürmələrin azalmasıdır. Rəsmi rəqəmlər son dövrlərədək pulköçürmələrin həcminin təxminən 2 milyard dollar təşkil etdiyini və tədiyyə balansında yaranan kəsirin 50 faizinin elə həmin vəsait hesabına maliyyələşdirildiyini göstərirdi. Ancaq indi təxmini hesablamalar göstərir ki, pulköçürmələri yarıya qədər azalıb və il ərzində bu göstəricinin daha da aşağı düşəcəyi gözlənilir.

Vəziyyətin kifayət qədər acınacaqlı olduğuna diqqət çəkən Ermənistan mediası yazır ki, ölkə uzun illərdir ki, yanlış siyasətin əsirinə çevrilmişdir. "4rd.am" saytı bildirir ki, bu siyasət bir çox sahələrdə olduğu kimi, iqtisadi müstəvidə ölkənin tənəzzülünü daha da sürətləndirmişdir: "Postmüharibə dövründə qiymətlər durmadan artır, əhalinin gəlirləri inflyasiyaya adekvat deyil. Mərkəzi Bank hər vəchlə çalışır ki, dövlət büdcəsi dolsun, inflyasiya sabit qalsın, amma mümkün olmur. Keçmiş hakimiyyət təmsilçilərinin yarıtmaz siyasəti nəticəsində nə büdcə dolur, nə də ki qiymət artımı dayanır. Əksinə, Ermənistan iqtisadiyyatı gündən-günə daha iflic vəziyyətə düşür".

Büdcənin doldurulmasında hakimiyyət bütün əsas yükü kiçik və orta biznesla məşğul olanların üzərinə qoymağa çalışır. Onlar isə öz bizneslərini dayandırır, başqa əlac olmadıqda isə xarici ölkələrə köçməyə üstünlük verirlər. Beləliklə də ölkə büdcəsinin doldurulmasında ciddi problem yaşanır. Digər tərəfdən də kiçik və orta biznesin sıradan çıxma prosesi daha geniş vüsət alır.

"İravnuk" qəzetinin verdiyi xəbərə görə, aprel ayından etibarən ölkədə ərzaqların qiymətində bahalaşma olacaq: "Müharibədən sonra ölkə iqtidarı bahalaşmanın qarşısını almaq üçün bütün imkanlardan istifadə etdi. Lakin aprel ayının ortalarından başlayaraq hökumətin "süni müdaxilələri" təsirsiz qalacaq. Tərəvəzdən başqa bütün qida növlərində bahalaşma olacaq". Qəzet qeyd edir ki, kənd təsərrüfatı naziri paytaxt Yerevanda tərəvəzin qiymətinin bahalaşmasının qarşısını almaq üçün yeni bazar açmaq qərarına gəlib. Lakin bunlar əhalini aldatmaqdan başqa bir şey deyil.

Bütün bunlar bir daha Ermənistanda siyasi və sosial-iqtisadi vəziyyətin gərgin olaraq qaldığını göstərir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

VƏTƏN SƏNƏ OĞUL DEYİR

Bu kənd "kürəyini söykədiyi" Genqüzey, Dolmatlı, Keçəməl dağlarından bolluca dəyanət payı alıb. Odur ki, övladları ta qədimdən bütün dövrlərdə qeyrətləri və igidlikləri ilə fərqləniblər. Burada hər körpənin ayağı yer tutanda, ağlı kəsməyə başlayanda ona kəndə doğru "qanad açan" əzəmətli Qara Qayanı göstərərlər: "Bax, gör necə böyükdür!" Dili təzə açılan uşaq da sözləri bölə-bölə təkrarlayar: "Bö-yük-dür..."




# Qara Qaya dəyanətli...

## İki bacının iki şəhid oğlu və Vətənə əmanət dörd körpənin hekayəti

Beləcə, bu kəndin balaca sakinləri vüqarlı dağların ətəklərində, qayalardan süzülüb gələn dumduru Axınca çayının qırağında, nərgizli-laləli Əyri Dərədə müdrik ağsaqqallardan həyat dərsi ala-ala saflıq, vətənsevərlik, mənəvi böyüklük əxz edərlər. Elburusla Elşad kimi...

Söhbətimiz Tovuzun Ağdam kəndi, bu kənddə yaşayan iki bacının iki mərd oğlu və şəhidlik zirvəsində dayanan o igidlərin hərəsinin Vətənə əmanət etdiyi iki ciyərparasından gedir.

Ağdam Tovuz rayonunun sərhəd kəndlərindəndir. Kənd 30 il mənfur qonşularımızın hücumlarına, aramsız atəşlərinə məruz qalıb. Ancaq camaat dözüb-dayanıb, başıpapaqlılar isə münaqişənin lap əvvəlindən çöllərə-düzlərə, dağların döşünə səpələnərək sinələrini yurda sipər edibləр.

Bu kəndin Məmmədalı Tağıyev, Mirəziz Əzizov, Sahib Hüseynov, Azərbaycanın Milli Qəhrəmanı Naiq Yusifov kimi torpaq və qeyrət naminə həyatından keçən oğulları olub. Erməni vandalları uşaq qatili olduqlarını burada da göstəriblər. Məktəb yaşlı Şahvələdi öz həyətində ot biçərkən qətlə yetiriblər. İsa Əliyev, Namiq Yusifov, Cümşüd Məmmədalı oğlu, Mətləb Bağırov, Çervon kişinin iki övladı - Rəhman və Rafiq, digər kənd sakinləri 1990-cı illərdə yağıya aman vermədiklərini qürurla xatırlayırlar.

Sonralar artıq ordumuz formalaşdı, təkmilləşdi, gücləndi və Ağdam kəndinin müdafiəsi də möhkəmləndi. Lakin erməni faşistləri öz mənfur niyyətlərindən əl çəkmirdilər. Nəhayət, 2020-ci ilin qanlı iyul hadisələrini törətdilər. Ermənistan silahlı qüvvələrinin bölmələri növbəti təxribata əl ataraq iyulun 12-də günorta saatlarından Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu sahəsində atəşkəs rejimini kobud şəkildə pozdular, artilleriya qurğularından istifadə etməklə mövqelərimizi atəşə tutdular, hücuma keçməyə cəhd göstərdilər.

Düşmənə adekvat tədbirlər nəticəsində lazımi cavab verildi. Lakin namərd qonşunun könlünə yeni ərazilər işğal etmək düşmüşdü. Odur ki, dayanmaq bilmirdi. Aramsız atəşlər nəticəsində kəndə böyük maddi ziyan dəydi. 77 yaşlı ağsaqqal Əziz kişinin günahsız qanı axıdıldı.

Ağır döyüşlər getdi. Bu, həmin döyüşlər idi ki, orada general Polad Həşimov öz igid əsgərləri, silahdaşları ilə birlikdə şəhid oldu. Onların arasında Ağdam kəndinin sakini, çavuş Elşad Dönməz oğlu Məmmədov da var idi.

Deyirlər, Elşad generalın bel bağladığı, xətrini çox istədiyi döyüşçülərdən imiş. "Mənim bu Qara Qaya səddimi keçməyə heç bir erməninin hünəri çatmaz" deyirmiş torpaq təəssübkeşi olan Vətən sevdalı bu gənc. Elə ətəyində boy atdığı Qara Qayada da şəhidlik zirvəsinə yüksəldi.








Atası Dönməz Məmmədov deyir ki, Elşad balacalığından qoçaq uşaq idi:

- Orta məktəbi bitirəndən sonra hərbi xidmətə getdi. Tərtər tərəfdə xidmət edirdi. Gözləmədiyimiz halda evə on günlük məzuniyyətə gəldi. Sonradan bildim ki, ona istirahət verilməsi səbəbsiz deyilmiş. 2016-cı ildə xidmətini sona çatdırıb evə dönəndə sənədləri arasında general Hikmət Həsənovun imzaladığı fəxri fərmanı gördüm. Orada yazılmışdı ki, Elşad bu fəxri fərmanla düşmənin kəşfiyyat qrupunun təxribatının qarşısının alınmasında göstərdiyi cəsurluğa və igidliyə görə təltif olunur.

Hərbi xidmətini başa vurandan sonra da Elşad bu sahədən ayrılmaq istəməmişdi. Kiçik komandirlər məktəbini bitirib çavuş rütbəsi ilə taleyini həmişəlik hərbi ilə bağlamağı qərara almışdı. Artıq üç ildir doğma yerlərdə xidmət edirdi.

25 yaşı vardı Elşadın. Anası Nuriyyə xanım deyir ki, toyunun "Vağzalı" sədaları qulaqlardan hələ heç getməmişdi. Altı aylıq oğlu Məhəmməd qundaqda qaldı. İkinci övladının isə heç üzünü də görmədi... Şəhidliyindən yeddi ay sonra onun daha bir oğul balasının dünyaya gəlişini qarşıladıq. Atasının adını verdik ona ...

Ölümündən sonra Elşad Məmmədov "Vətən naminə" medalı ilə təltif edilir, adına fəxri fərmanlar yazılır, daha bir övlad sahibi olur... Bu da bir tale yazısıdır yəqin...

Tovuz hadisələrində Elşadın xalası oğlu Elburus Yusifov da iğidliyi ilə fərqlənmişdi. Təcrübəli döyüşçü idi. 2003-cü ildə 18 yaşı tamam olandan sonra hərbi xidmətə çağırılmış və əsgəri borcunu Abşeron rayonunun Müşfiq qəsəbəsində yerinə yetirəndən sonra çavuş rütbəsində doğma kəndə dönmüşdü. Bir neçə il sonra isə Bakıya kiçik komandirlər məktəbinə oxumağa göndərilmişdi. Təhsilini başa çatdırıb yenə də doğma yerlərə qayıtmış, hərbi hissənin kəşfiyyat taqımında xidmətə başlamışdı. Artıq 12 ildən çox idi ki, burada vicdanla, Vətənə övlad sədaqəti ilə xidmət edirdi. "Qüsursuz xidmətə görə" medalına, digər medal və fəxri fərmanlara layiq görülmüşdü.

Bu 12 illik xidmət yolu onu sanki Qarabağa aparırdı, mənfur düşmənin ayaqları altında inləyən torpaqlarımızın imdadına yetməyə çağırırdı. Atası, 42 il kənd orta məktəbinin fizika müəllimi olmuş Şəmsi Yusifov deyir:

- Elburus Tovuzdakı iyul hadisələri zamanı da şəhidliyin bir addımlığında dayanmışdı. Amma şəhadətə bir neçə ay bundan sonra Murovdağ zirvəsində qovuşdu. Qarabağa Vətən müharibəsi başlanan kimi yollandı. "Mən bu müharibədə vuruşmalıydım. Ona görə iyulda şəhid olmadım" dedi. Nədənsə bu sözlər mənim qulağımda başqa cür səsləndi: "Onda şəhid olmadım ki, indi olum..."

Elburusun anası Kifayət xanım isə oğlu haqqında heç nə danışmır. Söz düşəndə isə səmimi, sadə, lakin böyük ürəkli Azərbaycan analarına məxsus bir tərzdə ikicə cümlə deyir:

- Bütün şəhidlər mənim balalarımdır. Hamısının qeyrətinə ürəyim qurban.

Elburus oktyabrın 1-də Kəlbəcər-Murov istiqamətində döyüşə silah yoldaşları ilə birlikdə anasının dediyi həmin o qeyrətlə atılmışdı. Ayın 4-də "Canavar Dişi" adlanan post uğrunda gedən döyüşlərdə başda batalyon komandiri, qərargah rəisi və bölük komandiri olmaqla ermənilərin əks-hücumuna qarşı son nəfəslərinədək vuruşdular. Sıralarında Elbrusun da olduğu 32 nəfərlik hərbçilər dəstəsi qəhrəmancasına həlak oldu...

Şəhidimizin üçrəngli Azərbaycan bayrağına bükülmüş tabutu kəndə xeyli sonra - dekabrın 21-də gətirildi. Vidaya el axışdı. Yaxından-uzaqdan, hətta Bakıdan gələnlər vardı. Və o gün kənd sakini, keçmiş döyüşçü Rasim Hüseynov onların yanında bir həqiqəti dilinə gətirdi, çoxlarının bəlkə də dərinliyinə varmadığı bir məqama toxundu:

- Doğrudan da ot kökü üstündə bitər, - dedi. - Bir neçə əsr bundan əvvəl kəndimizin Yusif ağa adında yetirməsi taleyin gərdişi ilə çar Rusiyasının ordusunda xidmət etməli olmuş və iğidliyi ilə fərqlənmişdir. Deyilənlərə görə, çar tərəfindən yüksək çinə (keçmişdə Rusiya hərbçilərinin xidmət dərəcəsi), beş ordenə və maddi mükafatlara layiq görülübmüş. Çox illər sonra o kişinin adını daşıyan nəticəsi Yusif Sadıqov İkinci Dünya savaşında Hitler faşizmi ilə döyüşlərdə göstərdiyi hünərlərə görə Sovet İttifaqı Qəhrəmanı kimi yüksək ad almışdır. Şəhidimiz Elburus Yusifov Yusif Sadıqovun dayısı Əli müəllimin nəvəsidir. Digər dayısı Yunis kişinin nəvəsi Naiq Yusifov isə Birinci Qarabağ müharibəsində şəhadətə çatmış, ölümündən sonra ona Azərbaycanın Milli Qəhrəmanı adı verilmişdir. Şəhidimiz Elşad Məmmədov isə Yusif Sadıqovun əmisi qızı Məhbub xanımın nəvəsidir. Elşadın ata tərəf şəcərəsi - Məmmədovlar da mərd və qoçaq kişilər olublar...

Beləcə, nəsillər dəyişir, qəhrəman xalqımızın qanında-canında, genində olan torpaq sevgisi, Vətən təəssübkeşliyi, qeyrət və mərdlik dəyişmir. İndi bu xalqın İlham Əliyev kimi müdrik lideri və yenilməz sərkərdəsi olduğu kimi, Elşad və Elburus kimi torpaq uğrunda canından keçən və hər an bütün varlığı ilə buna hazır olan minlərlə gənci var. Bu iki xalaoğlunun uyuduğu Ağdam kəndinin Şəhidlər xiyabanını ziyarət etdikcə bir daha düşünürsən: belə igidləri olan xalqın torpağı heç vaxt yağının ola bilməzdi və olmayacaq! Günay və Qönçə də belə düşünürlər. Bunlar iki şəhidimizin dörd oğul əmanət etdyi ömür-gün yoldaşlarıdır. Onlar Elmdar, Şəmsi, Məhəmməd və balaca Elşadı da götürüb buraya tez-tez gəlirlər. Gəlirlər ki, övladları ataları ilə qürur duysun, ürəkli-böyrəkli böyüsünlər. Cəmi şəhidlərimizin yadigarlarını böyüdən gəlinlərimizin amalı belədir. Onlar isə bu qeyrət və sədaqəti ulu nənələrimizdən ərməğan alıblar...

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Mənəvi dəyərlərə əsaslanan sosial dəstək siyasəti

## Şəhid ailələri və müharibə əlilləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunublar

Azərbaycan dövlətinin həyata keçirdiyi sosial siyasətin bir istiqamətini şəhid ailələri, müharibə əlilləri və bu kateqoriyadan olan digər şəxslərin sosial müdafiəsi təşkil edir. Həmin insanların həyat şəraitinin yaxşılaşdırılması, problemlərinin həlli istiqamətində mühüm addımlar atılır, onlara diqqət və qayğının artırılması üçün əhəmiyyətli qərarlar qəbul edilir.

Humanizm prinsipləri əsasında bərqərar olmuş bu siyasət Prezident İlham Əliyevin birbaşa rəhbərliyi altında həyata keçirilir. "Dövlət şəhid ailələri, müharibə əlilləri üçün əlindən gələni edir" söyləyən dövlət başçısı çıxışları zamanı da vurğulayır ki, onun bu sahədəki siyasəti birmənalıdır.

Azərbaycan dövləti xalqı, milləti, torpağı uğrunda vuruşan, gözünü qırpmadan bu vətən yolunda canından, qanından keçən, şəhid, qazi olan bütün qəhrəman övladlarını daim yüksək qiymətləndirir, xatirələrini əziz tutur. Torpaqlarımızın işğaldan azad olunması uğrunda apardığımız haqq mübarizəsinin iştirakçılarının fiziki, psixoloji, maddi vəziyyətlərinin yaxşılaşdırılması istiqamətində bütün zəruri işləri görür.

### Qazilər yüksək texnologiyalı protezlərlə təmin olunurlar

Müharibədə sağlamlıqlarını itirən şəxslərin müalicəsi, sosial reabilitasiyası və digər mühüm məsələlər yüksək səviyyədə həllini tapır. Prezident İlham Əliyevin tapşırığı ilə ölkəmizin ərazi bütövlüyü uğrunda döyüşlərdə yaralanaraq orqanlarını itirmiş vətəndaşların yüksək texnologiyalı, elektron protezlərlə təminatına da başlanılıb.

Son statistik rəqəmlərə əsasən, müharibədən sonrakı dövrdə 210 qaziyə 1220 reabilitasiya vasitəsi verilib, 15 hərbçi yüksək texnologiyalı protezlə təmin edilib. Vətən müharibəsində yaralanmış şəxslərin 90 faizi ilə evlərində görüş keçirilib. Amputasiyası olan 301 nəfərdən 109-nun protez ehtiyacları müəyyən edilib. 2021-ci ildə onların hamısının protezlə təmin olunması planlaşdırılır.

Vətən müharibəsi zamanı torpaqlarımızın ərazi bütövlüyü uğrunda şəhid olan hərbçilərin ailələri və qazilərimiz Heydər Əliyev Fondu tərəfindən də daim diqqətdə saxlanılır. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərlik etdiyi fond bu kateqoriyadan olan insanların problemləri ilə yaxından maraqlanır, onları narahat edən məsələlərin həlli üçün mütəmadi olaraq tədbirlər həyata keçirir.

Fondun dəstəyi ilə Vətən müharibəsində ağır yaralanan bir neçə qazimiz müalicə və reabilitasiya üçün Türkiyəyə göndərilib.

Artıq Vətən müharibəsində yaralanmış qazilərimizin mühərrikli təkərli oturacaqlarla təminatına da başlanılıb. İlk mərhələdə ölkəmizin ərazi bütövlüyü ilə əlaqədar əlilliyi olan şəxslərə, sonrakı mərhələdə digər əlilliyi olan şəxslərə mühərrikli təkərli oturacaqlar təqdim olunacaq. Yeni təkərli oturacaqlar mühərrik əsasında işləyir və əlilliyi olan insanlara kənar şəxsin köməyi olmadan sərbəst hərəkət etmək imkanı yaradır.

Onu da vurğulayaq ki, "YAŞAT" Fondunun təşəbbüsü, İsrailin Azərbaycandakı səfirliyinin və Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin təşkilati dəstəyi ilə bir müddət əvvəl İsraildən Azərbaycana tibbi-humanitar yardım məqsədi ilə oftalmoloqlardan ibarət 8 nəfərlik həkim heyəti gəlmişdi. Vətən müharibəsində yaralanmış qazilərimizin oftalmoloji cərrahi və tibbi müalicəsi üçün ölkəmizə gələn həkimlər artıq qazilərimizin müayinə və müalicəsini başa çatdırıblar.

Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyindən verilən məlumata görə, 8 gün ərzində israilli həkimlər 141 qazimizi müayinə ediblər. Onlardan 31-i əməliyyat olunub, 58-nə protez göz taxılıb.

### Reabilitasiya xidmətləri göstərilən şəxslərin sayı 30 min nəfərə çatacaq

Postmüharibə dövründə yeni müalicə, reabilitasiya mərkəzlərinin istifadəyə verilməsi də mühüm əhəmiyyət kəsb edir. Fevralın 25-də Prezident İlham Əliyevin əsaslı təmirdən sonra açılışında iştirak etdiyi Bakının Xəzər rayonundakı Şağan Reabilitasiya Pansionatı da bu qəbildən olan müalicə mərkəzlərindəndir.

Yenidən qurulan 250 çarpayılıq pansionat ildə 5 min nəfərədək xəstə qəbul edə bilər. Bu tibb müəssisəsində ürək, qan-damar, oynaq-hərəkət, əsəb sistemi, endokrin xəstəliklərdən əziyyət çəkənlərə xidmət göstəriləcək. Əsas xidmətlər isə funksional diaqnostika, fizioterapiya müalicəsi, tibbi vannalar, müalicəvi bədən tərbiyəsi, sosial-psixoloji reabilitasiyadır. Pansionatda müalicə alanların reabilitasiyasında müasir metodika ən qabaqcıl texnologiyanın tətbiqi ilə paralel təşkil olunacaq.

Bu il istifadəyə verilməsi gözlənilən Şamaxı Psixonevroloji Sosial Xidmət Müəssisəsi, Qəbələ və Şəmkir Uşaq Reabilitasiya mərkəzləri də daxil olmaqla, ümumilikdə reabilitasiya xidmətləri göstərilən şəxslərin sayı 30 min nəfərə çatacaq. Xatırladaq ki, 2018-ci ildə bu potensial cəmi 10 min nəfərə bərabər idi.

Fevralın 25-də Bakının Ramana qəsəbəsindəki yaşayış kompleksində şəhid ailələrinə və müharibə əlillərinə mənzillərin təqdim olunması mərasimində iştirak edən İlham Əliyev sözügedən reabilitasiya mərkəzi ilə bağlı söylədi ki, orada minlərlə qazi hər il müalicə alacaq, reabilitasiyadan keçəcək, öz sağlamlığını bərpa edəcək. Eyni zamanda müharibə dövründə əlini, qolunu itirmiş qazilərimiz üçün də ən müasir protezlər sifariş edilibdir: "Mənə bu gün verilən məlumata görə, 300-dən çox qazimiz bu protezlərlə təmin ediləcək. Bizim ayaqlarını itirmiş qazilərimizin artıq bir neçəsi bu protezlərlə təmin edilib və onlar normal həyata dönə biliblər. Bu protezlər dünyanın aparıcı şirkətlərinin məhsuludur, ən müasir protezlərdir. Bu protezlər imkan verəcək ki, bizim qazilərimiz normal həyata qayıda bilsinlər".

### Şəhid ailələri və müharibə əlilləri mənzillərlə təmin olunurlar

Şəhid ailələri və müharibə əlillərinin mənzillərlə, minik avtomobilləri ilə təminatı da dövlət tərəfindən uğurla həyata keçirilir. Onlar üçün müasir yaşayış kompleksləri, şəhərciklər inşa olunur.

Prezident İlham Əliyev Bakının Ramana qəsəbəsindəki yaşayış kompleksində şəhid ailələri və müharibə əlillərinə mənzillərin təqdim olunması mərasimindəki çıxışı zamanı burada otuz binanın inşa edildiyini diqqətə çatdırdı. Binaların hamısı müasir səviyyədə, yüksək keyfiyyətlə tikilib, mənzillər də çox genişdir, işıqlıdır. Uşaq bağçası, 1200 şagird yerlik məktəb də inşa edilir. "Yeni yaşayış üçün bütün imkanlar var və bu münasibətlə sizi ürəkdən təbrik edirəm. Müharibədən cəmi üç ay yarım keçib, ancaq şəhid ailələri və müharibə əlilləri üçün artıq belə gözəl yaşayış kompleksi, şəhərcik inşa olunub, təqdim edilib", - deyə dövlət başçısı bildirdi.

Məlumat üçün bildirək ki, indiyə qədər 9200-ə yaxın şəhid ailəsi, müharibə əlili dövlət tərəfindən mənzillərlə təmin edilib. Bu il isə 3 minə yaxın mənzilin verilməsi planlaşdırılır.

İlham Əliyev sözügedən mərasimdə vurğuladı ki, həm Birinci, həm İkinci Qarabağ müharibəsində şəhid olmuş övladlarımızın Bakıda, Sumqayıtda, Abşeron rayonunda yaşayan ailələrinə bu ilin sonuna qədər mənzillər veriləcək: "Yəni bu proqramı biz Bakı, Sumqayıt və Abşeron rayonunda bu ilin sonuna qədər tam icra edəcəyik. Digər şəhər və rayonlarımızda yaşayan şəhid ailələri üçün binaların, fərdi evlərin tikintisi davam etdirilir. Əminəm ki, yaxın gələcəkdə bu proqram tam icra olunacaqdır. Onu da bildirməliyəm ki, müharibə əlillərinə 7200-ə yaxın minik avtomaşını verilib".

Şəhid ailələrinin, hərbi əməliyyatlar nəticəsində əlilliyi müəyyən olunmuş şəxslərin sosial müdafiəsi sahəsində dövlət tərəfindən həyata keçirilən tədbirlərə əlavə dəstək verilməsi üçün müvafiq platformanın yaradılması məqsədilə Prezident İlham Əliyev tərəfindən "Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondunun ("YAŞAT" Fondu) yaradılması haqqında" fərman imzalanıb. Fond yaralanan şəxslərin müalicə xərclərinin qarşılanması və şəhidlərimizin ailə üzvlərinin tibbi ehtiyaclarının ödənilməsi üzrə işlərini davam etdirir.

"YAŞAT"-ın Vətən müharibəsindən sonra dünyaya gələn şəhid övladları üçün olan layihəsi də uğurla icra olunur. Şəhidlərimizin yeni doğulan övladlarının zəruri xərcləri fond tərəfindən qarşılanır. Bu məqsədlə 1 000 manat məbləğində pul anaya təqdim olunur və dünyaya yeni göz açan körpənin adına 5 000 manatlıq hesab açılır. Həmin hesaba vəsait fonda edilən ianələr hesabına toplanmış məbləğdən köçürülür. Həmin məbləğin üzərinə mütəmadi olaraq faiz toplanılır və həmin şəhid övladı 16 yaşına çatdıqdan sonra toplanan məbləği özü hesabından çıxara biləcək.

Azərbaycan dövlətinin şəhid ailələri, müharibə əlilləri və digər bu kateqoriyadan olan şəxslərlə bağlı apardığı siyasət mənəvi dəyərlərə əsaslanır. Vətən uğrunda canından keçmiş insanların yaxınları dövlət tərəfindən daim qayğı və diqqətlə əhatə olunur. Ölkəmiz humanizm prinsiplərinə əsaslanan bu siyasəti ilə dünya miqyasında da ön sıralardadır.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***




# İşğaldan azad edilmiş ərazilərdə görülən işlər böyük qayıdışın başlanğıcıdır

## Prezident ən qısa müddətdə yurd həsrətli insanları o yerlərə qaytarmaqda qərarlıdır

Əvvəli 1-ci səh.

Müharibə başa çatandan dərhal sonra ərazilərin minalardan təmizlənməsində iştirak etmək və istehkamçılarımıza treninqlər keçirmək üçün Türkiyə Müdafiə Nazirliyindən 100-dən çox mütəxəssis ezam edilib. Ağdam rayonunun ərazisinin minalardan təmizlənməsində Rusiya Fövqəladə Hallar Nazirliyinin bir qrupu da fəaliyyət göstərir. Bu qrupun əsas fəaliyyəti rusiyalı sülhməramlıların məsuliyyət zonası ilə bağlıdır, lakin onlar burada da iştirak edirlər. Hazırda zəngin təcrübəsi olan bir neçə şirkətlə danışıqlar aparılır. Məqsəd bu işdə Azərbaycan şirkətlərinin də iştirak etməsidir. Çünki bu, qısa müddətdə yekunlaşan iş deyil. Belə ki, minalardan təmizlənməli olan ərazi kifayət qədər böyükdür.

Başdan-başa viranə qoyulmuş o yerlərdə insanlar yalnız köklü quruculuq işləri aparıldıqdan sonra yaşaya bilərlər. Ona görə indi ərazilərin minalardan təmizlənməsi ilə paralel şəkildə ziyanın qiymətləndirilməsi aparılır. Şəhərlərin və kəndlərin inkişafının baş planlarının tərtib edilməsinə dair tapşırıqlar verilib. Pilot layihələrə başlanıb. “Ağıllı kənd” layihəsi həyata keçiriləcək. Zəngilan rayonunun üç kəndində - Birinci, İkinci, Üçüncü Ağalı kəndlərində bu layihəyə start verilib. Cari ilin sonuna qədər layihənin başa çatması gözlənilir. Orada bütün lazımi infrastruktur qurulacaq, əkin sahələri bərpa ediləcək və sonra təqribən 1000-ə yaxın insan yerləşdiriləcək.

Böyük şəhərlərin baş planları tərtib edilməlidir. Məsələn, Ağdam şəhərində işğaldan əvvəl 40 minə yaxın insan yaşayırdı. İndi əhalinin sayı əlbəttə, artıb. Odur ki, 50 minlik, bəlkə də 70 minlik bir şəhər salınmalıdır. Təkcə yaşayış evləri deyil, məktəblər, xəstəxanalar inşa edilməlidir, bütün infrastruktur yaradılmalıdır. Ağdamı misal kimi göstərsək də, bu işlər işğaldan azad olunmuş bütün bölgələri əhatə etməlidir.

Füzulidə hava limanının tikintisinə başlanıb. Ərazinin minalardan təmizlənməsi ilə bağlı məsələlər operativ surətdə həll olunur. Bu, beynəlxalq hava limanı olacaq. Onun uçuş-enmə zolaqları ən ağır yük təyyarələri də daxil olmaqla bütün növ təyyarələri qəbul edə biləcək. Bütün işlər plan üzrə getsə, aeroport bu il payızın əvvəlində istifadəyə veriləcək. Qarabağın mühüm logistika mərkəzinə çevriləcəyindən burada digər aeroportlar tikmək planları da var.

Şuşa şəhərinə iki avtomobil yolu çəkilir. Onlardan birinə Prezidentimiz “Zəfər yolu” adını verib. Çünki Azərbaycanın xüsusi təyinatlı qoşunları Şuşa şəhərinə məhz həmin yolla meşələrdən və vadilərdən keçərək gediblər. Nisbətən aran ərazidən keçən digər yol da hava limanından birbaşa gediş-gəlişi təmin edəcək.

Dövlət başçısı böyük qayıdış haqqında belə demişdir: “Biz hər il 3-4 min mənzil və ev inşa edə bilirik. Yəni fiziki olaraq biz Ağdam şəhəri haqqında danışırıqsa, bu şəhər hesab edirəm ki, 2-3 il ərzində tam bərpa oluna bilər. Ancaq bundan öncə minadan təmizləmə, infrastruktur layihələri həyata keçirilməlidir. Elektrik infrastrukturuna gəldikdə, biz bütün şəhərlərimizin, bölgələrimizin bir-biri ilə bağlı enerji şəbəkəsini yaradacağıq. Artıq büdcə, proqram təsdiq edilib və bu ilin sonuna qədər elektrik enerjisi təminatı başa çatdırılacaqdır. Su təminatı, qaz təminatı, yollar... Biz təkcə evlər tikməli deyilik, orada xəstəxanalar, məktəblər, bağçalar tikilməlidir. Orada iş yerləri yaradılmalıdır. Çünki orada yaşayan insanlar işlə təmin edilməlidir. Yəni bütün bu işlər bizim böyük qayıdış adlandırdığımız proqramımızın tərkib hissəsidir”.

Azərbaycan bu işləri yalnız öz daxili resursları hesabına yerinə yetirəcək. Həm də söhbət təkcə maliyyə resurslarından deyil, texniki imkanlardan da gedir.

“Bizim yarışacağımız əsas tərəf-müqabili zamandır”, - deyərək Prezidentimiz maksimum qısa müddətdə insanların yurd həsrətinə son qoymaqda, onları mərhələli şəkildə öz kəndlərinə, şəhərlərinə qaytarmaqda qərarlı olduğunu bildirmişdir. Qeyd etmişdir ki, işğaldan azad olunmuş ərazilərdə vətəndaşlarımız üçün ən yaxşı şərait yaradılmalıdır. Onlar uzun illərdir əziyyət çəkirlər, odur ki, ən qısa zamanda oraya qayıtmaq istəyirlər. Dövlətimizin siyasətinin mərkəzində həmişə vətəndaşların maraqlarının dayandığını deyən Prezident İlham Əliyev yurd yerlərinə qayıdacaq insanların layiqli yaşamağa və müasir dünyanın bütün nemətlərindən istifadə etməyə layiq olduqlarını bir daha vurğulamışdır.

*Flora SADIQLI,*
*“Azərbaycan”*

## Yanvar-fevral aylarında 12 milyard manatlıqdan çox ÜDM istehsal edilib



2021-ci ilin yanvar-fevral aylarında ölkədə 12019,0 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 3,2 faiz az ümumi daxili məhsul istehsal olunmuşdur.

İqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 7,5, qeyri neft-qaz sektorunda isə 0,4 faiz azalmışdır.

ÜDM istehsalının 41,2 faizi sənaye, 10,7 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 8,1 faizi nəqliyyat və anbar təsərrüfatı, 4,7 faizi tikinti, 3,1 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,0 faizi informasiya və rabitə, 0,7 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə sahələrinin, 19,9 faizi digər sahələrin payına düşmüş, məhsula və idxala xalis vergilər ÜDM-in 9,6 faizini təşkil etmişdir.

Əhalinin hər nəfərinə düşən ÜDM 1201,6 manata bərabər olmuşdur.

## Sənayenin qeyri-neft sektorunda məhsul istehsalı 12,1 faiz artıb

Dövlət Statistika Komitəsinin açıqlamasında bildirilir ki, ölkə üzrə 2021-ci ilin yanvar-fevral aylarında 7,1 milyard manatlıq sənaye məhsulları istehsal edilmişdir. Bu dövrdə sənayenin qeyri neft-qaz sektorunda məhsul istehsalı 12,1 faiz artmışdır.

Sənaye məhsullarının 64,1 faizi mədənçıxarma, 29,1 faizi emal, 6,1 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,7 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olunmuşdur. Mədənçıxarma sektorunda əmtəəlik neft hasilatı 4,9 faiz azalmış, əmtəəlik qaz hasilatı 9,6 faiz artmışdır.

Emal sektorunda əczaçılıq məhsullarının istehsalı 9,6, dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı 7,2, kompüter, elektron və optik məhsulların istehsalı 3, ağacın emalı və ağacdan məmulatların istehsalı 2,2, tütün məmulatlarının istehsalı 2,1, maşın və avadanlıqların istehsalı 2, maşın və avadanlıqların quraşdırılması və təmiri işləri 2 dəfə, rezin və plastik kütlə məmulatlarının istehsalı 45,3, kağız və karton istehsalı 26,5, toxuculuq sənayesi məhsullarının istehsalı 26,5, tikinti materiallarının istehsalı 13,2, kimya sənayesi məhsullarının istehsalı 6,5, elektrik avadanlıqlarının istehsalı 6,2, qida məhsullarının istehsalı 2,5 faiz artmış, geyim istehsalı 4, metallurgiya sənayesi məhsullarının istehsalı 6,1, neft məhsullarının istehsalı 17,9, içkilərin istehsalı 18,6, hazır metal məmulatlarının istehsalı 20,2, mebel istehsalı 59,6, poliqrafiya məhsullarının istehsalı 67,7, avtomobil, qoşqu və yarımqoşquların istehsalı 74,3, sair nəqliyyat vasitələrinin istehsalı 95,7 faiz azalmışdır.

Azalma elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı (3,1 faiz), su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında (0,6 faiz) da baş vermişdir.

## 2 ayda əsas kapitala 1,3 milyard manatdan çox vəsait yönəldilmişdir



Cari ilin yanvar-fevral aylarında əsas kapitala 1 milyard 338,4 milyon manat məbləğində vəsait yönəldilmişdir.

Dövlət Statistika Komitəsinin məlumatına görə, neft-qaz sektoruna yatırılmış investisiyaların həcmi 13,5, qeyri neft-qaz sektoruna yönəldilən vəsaitin həcmi 49 faiz azalmışdır. İstifadə olunmuş vəsaitin 1071,2 milyon manatı və ya 80 faizi məhsul istehsalı sahələrinə, 146,8 milyon manatı (11 faizi) xidmət sahələrinə, 120,4 milyon manatı (9 faizi) isə yaşayış evlərinin tikintisinə sərf olunmuşdur. Əsas kapitala yönəldilmiş vəsaitlərin 678,4 milyon manatını (50,7 faizini) daxili vəsaitlər təşkil etmişdir. Əsas kapitala yönəldilmiş vəsaitlərin 1143,1 milyon manatı və ya 85,4 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunmuşdur.

Əsas kapitala yönəldilmiş vəsaitin ümumi dəyərində müəssisə və təşkilatların vəsaitləri 74, bank kreditləri 9,7, əhalinin şəxsi vəsaitləri 9,1, sair vəsaitlər 3,8, büdcə vəsaitləri isə 3,4 faiz təşkil etmişdir.

## 182 min nəfərdən çox fermerə payızlıq əkinlərə görə subsidiya ödənilib



**Kənd Təsərrüfatı Nazirliyi 182650 fermerə 2020-ci ilin payız əkininə görə subsidiya ödənişi edib.**

Aqrar Kredit və İnkişaf Agentliyinin (AKİA) məlumatına görə, ümumilikdə 335 min nəfərdən artıq fermer payız əkini etdiyi barədə Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemində bəyan yerləşdirib. Fermerlərin əkin bəyanları yoxlandıqca, mərhələli şəkildə subsidiya ödənişlərinin qalan hissəsi də köçürülür.

AKİA-dan bildirilib ki, subsidiya qaydalarına uyğun olaraq, ödənişlər fermer kartlarına 25 faiz nağdlaşdırıla bilən və 75 faiz nağdsız hissə şəklində ödənilib. Nağdlaşdırıla bilməyən hissə ilə fermerlər gübrə, pestisid, toxum və ting təchizatçılarından təsərrüfatlarına lazım olan məhsulları POS-terminal vasitəsilə ödəniş etməklə əldə edə bilərlər.

2021-ci il üçün Subsidiya Şurasının təsdiqlədiyi subsidiya əmsallarındakı yeniliklər ödənilən subsidiyalarda öz əksini tapıb.

## Bu il Gədəbəy kartofu bol olacaq

Füsunkar, əsrarəngiz təbiəti ilə tanınan Gədəbəy işgüzar insanları və fərqli dadı-tamı olan meyvə-tərəvəzi ilə də seçilir. Xüsusilə bu yerlərin kartofunun əvəzi yoxdur. Hər il sahələrdə bol məhsul yetişdirən gədəbəylilər həm əhalini keyfiyyətli kartofla təmin edir, həm də yaxşı qazanc əldə edirlər.



Hər il olduğu kimi, bu il də rayon sakinləri bol məhsul əldə etmək əzmindədirlər. Rayon dövlət aqrar inkişaf mərkəzinin direktoru Asəf Nağıyev deyir ki, Gədəbəydə hər il kartof sahələri genişləndirilir: “Kartof istehsalı ilə məşğul olan fermerlər keçən il əkin sahələrini 10 min 403 hektara çatdırmışlar ki, bu da əvvəlki ildəkindən çoxdur. Əsasən yerli sortlara - “Telman”, “Əmiri”, “Ağçiçək” və s. sortlara üstünlük verən fermerlərimiz məhsuldarlığı da ildən-ilə artırırlar. Məsələn, keçən il hər hektardan 120 sentner kartof götürülmüşdür ki, bu da əvvəlki illərdəkindən xeyli artıqdır. Ancaq torpaq sahibləri bunun son hədd olduğunu düşünmürlər, cari ildə bu rəqəmi 125 sentnerə çatdırmağı qarşılarına məqsəd qoymuşlar”.

Rayonda yerli sortlarla yanaşı, kənardan gətirilən məhsuldar toxumlara da üstünlük verilir. Həmin sortlar yerli iqlimə uyğunlaşdırılaraq geniş yayılır.

Hazırda rayonda kartof əkininə geniş hazırlıq işləri görülür. Yazın gəlişi rayonda canlanma yaratmış, insanların yaz-tarla işlərinə təkan vermişdir. Rayon sakinləri hər gün əkin sahələrinə çıxaraq torpağı əkinə hazırlayırlar.

Rayonda kartofçuluqla məşğul olan çox sayda fermer təsərrüfatları var. Demək olar rayonda elə bir kənd yoxdur ki, orada kartof əkilməsin. Məsələn, Saratovka kəndinin sakini Əli İsmayılov hər il bol məhsul yetişdirir. 2019-cu ildə cəmi 20 hektar sahədə kartof yetişdirən Əli İsmayılov keçən il 10 hektarda satış üçün, 10 hektarda isə toxumluq kartof yetişdirib. İstehsal etdiyi 735 ton məhsulun 277 tonu yüksək reproduksiyalı olmuşdur. Fermer istehsal etdiyi məhsuldan götürdüyü qazancdan razıdır.

Uzun illərdir ki, bu sahədə zəngin təcrübə toplayan Əli İsmayılov təsərrüfatında kartofçuluğun inkişafı üçün hər cür şərait yaradıb. Təsərrüfatda bütün işlər texnikanın vasitəsilə görülür. İndi onun rəhbərlik etdiyi təsərrüfatda həm kartofsəpən, həm də çıxaran aqreqat, eləcə də yetişdirilmiş məhsulun daşınması üçün lazımi qədər nəqliyyat vasitələri var. Mövsümdə burada 20 nəfər çalışır. İstehsal etdiyi məhsulun bir hissəsini toxum kimi satan fermer bunun üçün kartofu çeşidləyən aqreqat da quraşdırmışdır. Məhsulun saxlanması üçün isə xüsusi yer hazırlanmışdır.

Slavyanka kəndinin sakini Nofəl Qasımov da uzun illərdir ki, kartofçuluqla məşğuldur. Cəmi 27 hektar əkin yeri olan Nofəl bunun 7 hektarında kartof əkir. Keçən il həmin sahədən 15 ton kartof götürən fermer bu il həmin rəqəmi 20 tona çatdırmağı qarşısına məqsəd qoyub.

Ramiz Əliyevin də hər il bol kartofu olur. Saratovka kəndi ərazisində kartof əkən fermer hər il əkin sahəsini xeyli genişləndirir. Qeyd edək ki, əvvəlki il 4 hektarda kartof əkən fermer keçən il bu rəqəmi 7 hektara çatdırmışdır. Söhbət zamanı fermer dedi ki, keçən il istehsal etdiyi məhsulun satışında müəyyən problemlər yaşandı. Bu il həmin problemin olmaması üçün indidən danışıqlar aparır. Qərara alıb ki, məhsulun bir hissəsini toxum kimi satsın.

Hazırda Gədəbəydə yaz-tarla işlərinə geniş hazırlıq işləri görülür. Xüsusilə kartofçuluqla məşğul olan fermerlər cari il bol məhsul əldə etmək üçün sahələri əkinə hazırlayır, münbitliyini artırmaq üçün torpağa gübrə verirlər.

*Sabir ƏLİYEV,*
*“Azərbaycan”*

## “SOCAR Marine” ötən il də lider olub

“SOCAR Marine” beynəlxalq dəniz yanacağı bazarında 650 min tonluq satış həyata keçirib.

SOCAR-dan AZƏRTAC-a bildirilib ki, 2013-cü ildən fəaliyyət göstərən “SOCAR Marine” 2020-ci ildə 650 min tona çatan satış həcmi ilə beynəlxalq dəniz yanacağı sektorunda yenidən lider olub. Hazırda “SOCAR Marine” beynəlxalq dəniz yanacağına tələbatın dörddəbirindən çoxunu təmin edir.

Türkiyənin ən böyük sənaye holdinqi “SOCAR Turkey”in investisiyalarına paralel olaraq sürətlə böyüyən “SOCAR Marine” markası növbəti dəfə beynəlxalq dəniz yanacağı sektorunun lideri olub. Ötən il bazardakı payını 26 faizə çatdıran “SOCAR Marine” türk boğazlarından keçən və Türkiyə limanlarında yük əməliyyatları həyata keçirərək xaricə yola düşən gəmiləri yanacaqla təmin edir.

“SOCAR Turkey” Emal və Neft-Kimya bölməsi rəhbərinin ticarət üzrə müavini Aqşin Səlimovun sözlərinə görə, sektorun ən gənc oyunçularından olan “SOCAR Marine”nin beynəlxalq dəniz yanacağı sahəsində liderliyi ələ almasında məhsul və xidmətlərin yüksək keyfiyyəti əsas rol oynayıb. O deyib: “Xidmət sahəsində prioritetimiz müştərilərimizin ehtiyaclarını ən yüksək səviyyədə ödəməkdən ibarətdir. Hazırda Türkiyənin Qara, Mərmərə, Egey və Aralıq dənizi bölgələrində fiziki olaraq yanacaq təchizatı ilə yanaşı, Cəbəlütariqdən Sinqapura, Rotterdamdan Cənubi Afrikaya qədər bütün beynəlxalq limanlarda həyata keçirdiyimiz yanacaq tədarükü ilə “SOCAR Marine” markasının beynəlxalq nüfuzunu hər gün daha yüksək səviyyəyə çatdırırıq”.

## Logistika sahəsinin qiymətləndirilməsinə dair müzakirələr aparılıb

Dünya Bankının ekspertləri ilə özəl sektorun diaqnostikası çərçivəsində logistika sahəsinin qiymətləndirilməsi mövzusunda növbəti onlayn görüş keçirilib.

Dövlət Gömrük Komitəsinin (DGK) Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsindən AZƏRTAC-a bildirilib ki, tədbirdə komitə sədrinin müavini, gömrük xidməti general-mayoru Cavad Qasımov, komitənin aidiyyəti qurumlarının nümayəndələri, Dünya Bankının eksperti Daniel Saslavski və bankın mütəxəssisləri iştirak ediblər.

C.Qasımov Dünya Bankının mütəxəssisləri ilə keçirilən görüşlərin ikitərəfli münasibətlərin şaxələndirilməsində, yeni prioritet istiqamətlərin müəyyənləşdirilməsində vacib əhəmiyyətə malik olduğunu vurğulayıb.

Komitə sədrinin müavini Ümumdünya Ticarət Təşkilatının (ÜTT) Ticarətin Asanlaşdırılması Sazişinin gömrük orqanları tərəfindən tətbiqi, avtomatlaşdırılmış sistemlər, Səlahiyyətli İqtisadi Operator (SİO), tranzit məsələləri və rəqəmsallaşdırma, Ümumdünya Gömrük Təşkilatının (ÜGT) dərhal buraxılış sistemi və ekspress yüklərin sürətli rəsmiləşdirilməsi barədə məlumatları mütəxəssislərin diqqətinə çatdırıb.

O, xüsusilə fiziki şəxslər tərəfindən gömrük sərhədindən keçirilən qeyri-kommersiya məqsədli yüklərin və poçt daşımalarının rəsmiləşdirilməsi istiqamətində görülən işlər barədə geniş məlumatları təqdim edib. Bildirilib ki, beynəlxalq poçt daşımaları və daşıyıcı şirkətlər tərəfindən gətirilən yüklərin sürətli rəsmiləşdirilməsinin həyata keçirilməsi məqsədilə DGK tərəfindən “Smart Customs” mobil tətbiqi və “www.e.customs.gov.az” internet portalı istifadəyə verilib ki, bu da şəxslərin sifariş etdikləri malları gömrük orqanlarına gəlmədən birbaşa ünvanlarında əldə etmələrinə imkan yaradıb. Həmçinin bu sahədə gömrük rəsmiləşdirilməsinin, daşıma xidmətlərinin daha da təkmilləşdirilməsi, malların ən qısa zaman müddətində şəxslərə təhvil verilməsi məqsədilə yeni vahid logistik mərkəz ideyasının layihələndirildiyi və həyata keçirildikdən sonra poçt daşımalarında vaxt itkisinin minimuma endiriləcəyi barədə də iştirakçılar məlumatlandırılıb.

Logistikanın və ticarətin inkişafı, o cümlədən bu sahədə həyata keçirilən layihələrdən danışan C.Qasımov Gürcüstanla sərhəddə yerləşən “Qırmızı Körpü” gömrük-sərhəd buraxılış məntəqəsinin yaxınlığında inşa edilmiş Ticarətin Asanlaşdırılması Mərkəzinin fəaliyyəti barədə məlumat verərək digər gömrük sərhəd buraxılış məntəqələrinin də yaxınlığında bu tip mərkəzlərin inşasının planlaşdırıldığını diqqətə çatdırıb. Mütəxəssislərə, həmçinin yeni gömrük-sərhəd buraxılış məntəqələrinin açılmasına dair infrastruktur layihələri barədə də məlumatlar təqdim edilib.

Dünya Bankının eksperti Daniel Saslavski logistika sektorunun qiymətləndirilməsi və özəl sektorun diaqnostikası çərçivəsində Dövlət Gömrük Komitəsi tərəfindən göstərilən mütəmadi dəstəyə görə dərin minnətdarlığını bildirərək hazırlanacaq hesabatın nəticələrinin beynəlxalq ticarətin sadələşdirilməsində mühüm rol oynayacağına əminliyini ifadə edib.

Daha sonra görüşdə logistika sektorunun qiymətləndirilməsinin aparılması, özəl sektorun iqtisadiyyatda iştirak imkanlarının artırılması mövzusunda müzakirələr aparılıb.



# DÜNYA



PANDEMİYA

# Dünyada koronavirusa həftəlik yoluxma hallarının sayı yenidən artıb

## Hökumətlər məhdudiyyətləri sərtləşdirir

Keçən həftə yeni tip koronavirus infeksiyasına yoluxmuş xəstələrin sayı əvvəlki yeddi günlə müqayisədə iki faiz artmış, ölüm hallarının sayı isə altı faiz azalmışdır. Bu məlumat Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) həftəlik epidemioloji bülletenində yer almışdır.



ÜST-ün bülletenində deyilir ki, ötən həftə 2,7 milyondan çox yeni infeksiya faktı qeydə alınmışdır. Bu da əvvəlki həftəyə nisbətən ikifaizlik artım deməkdir. Martın 1-dən 7-dək dünyada 2 734 381 yoluxma halı və 60 323 ölüm halı baş vermişdir. Martın 7-nə olan vəziyyətə görə 116 166 652 yoluxma halı və 2 582 528 ölüm halı qeydə alınmışdır. 93 milyondan çox xəstə sağalmışdır.

Son bir həftə ərzində yoluxma səviyyəsinin artımı Afrikada (10 faiz) və Şərqi Aralıq dənizində (10 faiz) və Avropada (4 faiz) xüsusilə nəzərə çarpmışdır. Ölüm hallarının sayı Şərqi Aralıq dənizi regionunda da artmış (9 faiz), bütün digər regionlarda isə azalmışdır.

Yeddi gün ərzində Şimali və Cənubi Amerikada 1,1 milyon nəfərdən çox adam yoluxmuş və 32 min nəfərdən çox adam vəfat etmişdir. Avropada 1,1 milyondan çox yeni infeksiya faktı və 20 mindən çox ölüm halı qeydə alınmışdır. Şərqi Aralıq dənizində həkimlər 228 mindən çox yoluxma halı aşkarlamışlar, 2,7 min nəfərdən çox adam vəfat etmişdir.

İnfeksiyaya yoluxma hallarının sayına görə ABŞ dünya lideri olaraq qalır. Həftə ərzində bu ölkədə COVID-19 xəstələrinin sayı 427 min nəfərdən çox artmışdır. ABŞ-ın ardınca Braziliya (413 mindən çox yeni yoluxma halı), Fransa (143 mindən çox), İtaliya (138 mindən çox), Hindistan (115 mindən çox), Polşa (87 mindən çox), Çexiya (85 mindən çox), Rusiya (76 mindən çox), Türkiyə (76 mindən çox), İran (58 mindən çox) gəlir.

Bu arada ilk dəfə Böyük Britaniyada aşkarlanmış və alimlərin ən təhlükəli hesab etdiyi VOC 202012/01 koronavirus ştammı son bir həftə ərzində daha beş ölkədə özünü büruzə vermişdir. Beləliklə, koronavirusun bu variantının aşkarlandığı ölkələrin sayı 111-ə çatmışdır. Araşdırmalara görə, koronavirusun Britaniya ştammının adamlara yoluxması qabiliyyəti SARS-CoV-2 ştammından 36-75 faiz yüksəkdir. Yeni ştamma yoluxmuş adamların xəstəxanaya düşmək riski artır. Üstəlik, xəstəlik daha ağır keçir və ölüm riski yüksək olur. Bununla yanaşı, koronavirusun digər ştamları da yayılmışdır. Belə ki, ÜST-ün verdiyi məlumata görə, Cənubi Amerika ştammı 58 ölkədə, Braziliya ştammı isə 32 ölkədə qeydə alınmışdır.

Koronavirusun yayılmasını nəzərə alaraq ayrı-ayrı dövlətlər məhdudlaşdırıcı tədbirləri sərtləşdirir. Məsələn, Estoniya hökuməti martın 11-dən aprelin 11-dək genişmiqyaslı məhdudiyyətlər tətbiq etmişdir. Baş nazir Kaya Kallas bildirmişdir ki, son məlumatlar koronavirusun aqressiv Britaniya ştamminın Estoniyada proqnozlaşdırıldığından daha geniş yayıldığına dəlalət edir. Onun fikrincə, ölkənin tibb sistemi böhran yaşayır. Baş nazir nəzərə çarpdırmışdır ki, paytaxt Tallin və Şimali Estoniyada yaranmış vəziyyət xüsusilə kritikdir: “Hökumət insanlar arasında təması minimum səviyyəyə endirmək məqsədilə əlavə məhdudiyyətlər tətbiq etməyi qərarlaşdırmışdır. Böhrandan yalnız bu cür çıxmaq mümkündür. Qarşıya qoyulmuş məqsədə tezliklə nail olmaq hər birimizin davranışından asılıdır”.

Dünəndən etibarən Estoniya məktəblərində məsafədən təhsil tətbiq olunmuşdur. Qapalı yerlərdə idman, məşq, gənclik işi, təhsil və hobbi fəaliyyəti, əlavə təhsil və ixtisasartırma ilə məşğul olmaq qadağan edilmişdir. İdman yarışları, mədəniyyət sahəsində kütləvi tədbirlər, əyləncə tədbirləri, SPA salonları, hovuzlar və hamamlar bağlanmışdır. Ərzaq mağazaları istisna olmaqla bütün mağazaların da qapılarına qıfıl vurulmuşdur.

Dünyanın bir sıra başqa ölkələrində də məhdudiyyətlərin sərtləşdirilməsi istiqamətində addımlar atılır. Koronavirusun Britaniya ştamminın yayılması hökumətləri xüsusilə narahat edir. Hətta pandemiya ilə əlaqədar sərt karantin tətbiq etməyi lazım bilməmiş İsveç hökuməti yeni tədbirlər paketi hazırlayıb həyata keçirir.

Məlum olduğu kimi, dünyada koronavirusa qarşı peyvəndləmə kampaniyasına start verilmişdir. Bununla belə planet əhalisinin peyvəndlənməsinin sürəti hələ qənaətbəxş sayıla bilməz. Vaksin təchizatının hazırkı vəziyyəti xüsusilə narahatlıq doğurur. İş o yerə gəlib çatmışdır ki, dövlətlər preparat tədarükü prosesinin yavaş getməsində bir-birini ittiham etməyə başlamışdır. Bu baxımdan Avropa İttifaqı (Aİ) ilə Böyük Britaniya arasında yaranmış qalmaqal ibrətamizdir: Brüssel və London bir-birini vaksin ixracını bloklamaqda günahlandırır. Aİ-nin nümayəndəsi koronavirusa qarşı peyvənd tədarükündə qarşıdurmanın kəskinləşməsi ilə əlaqədar Birləşmiş Krallığın Xarici İşlər Nazirliyinə çağırılmışdır. Buna səbəb Avropa İttifaqı Şurasının sədri Şarl Mişelin Britaniya hakimiyyət orqanlarının qitəyə COVID-19-a qarşı vaksin tədarükünü əngəlləməsi barədə açıqlaması olmuşdur. Mişel qeyd etmişdi ki, “Britaniya və ABŞ bu ölkələrdə istehsal olunan vaksinlərin və onların komponentlərinin Aİ-yə ixracı ilə əlaqədar əsl blokada yaratmışdır”. Bir qədər sonra Mişel əlavə etmişdir ki, Britaniya tədarükə dolayı yolla maneçilik törədir, özü də “dərman ixracına maneə yaratmağın müxtəlif üsulları var”.

Öz növbəsində Britaniya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi bildirmişdir ki, Birləşmiş Krallığın hökuməti heç vaxt vaksin ixracına mane olmayıb. Onun dediyinə görə, bu barədə hər hansı fikir irəli sürmək səhvdir. Müvafiq bəyanatı yazılı şəkildə Britaniyanın xarici işlər naziri Dominik Raab da Brüsselə göndərmişdir. Bundan əvvəl London Belçika şirkətinin zavodunda istehsal olunan bir partiya “AstraZeneca” vaksininin Avstraliyaya tədarükünü dayandırdığına görə Aİ-ni tənqid etmişdi.

***Allahverdi MEHDİYEV,***
***“Azərbaycan”***

EKOLOGİYA

# Planetin tropik meşələrinin yarıdan çoxu məhv edilib



Yeni məlumatlar göstərir ki, dünyada tropik meşələrin təxminən üçdəikisi insan fəaliyyəti nəticəsində məhv edilib, yaxud buna yaxındır. Bu barədə Norveçin Tropik Meşələr Fondunun hesabatında bildirilir.

Hesabatda deyilir ki, meşə tədarükü və torpaqlardan əsasən kənd təsərrüfatı üçün istifadə dünyada tropik meşələrin 34 faizini məhv edib, daha 30 faiz sahə deqradasiyaya məruz qalıb. Bu isə onları yanğınlar və gələcəkdə məhvolma qarşısında müdafiəsiz vəziyyətə salıb.

2002-2019-cu illər ərzində məhv edilmiş tropik meşələrin ümumi sahəsi Fransanın ərazisindən böyükdür.

2019-cu ildə tropik meşələrin itirilməsi sürəti son 20 ilin orta səviyyəsinə uyğundur. Özü də hər 6 saniyədə bir futbol meydançası boyda meşə sahələri məhv olub.

Son onilliklər ərzində Braziliyada Amazonka çayı rayonu güclü təzyiq altında olmuşdur. Çünki kənd təsərrüfatı bumu fermerləri və torpaq alverçilərini soya və digər bitkilər yetişdirmək, mal-qara saxlamaq üçün torpaq sahələrini yandırmağa məcbur etmişdir. Bu tendensiya 2019-cu ildə ölkənin sağ radikal Prezidenti Jair Bolsonaro vəzifəyə gəldikdən və ətraf mühitin mühafizəsinin zəiflədilməsi siyasətinə başladıqdan sonra güclənmişdir.

Milli Kosmik Tədqiqatlar İnstitutunun (INPE) məlumatına görə, Amazoniyanın Braziliyadakı hissəsində tropik meşələrin kəsilməsi miqyası 2008-ci ildən bəri ən yüksək göstəriciyə çatmışdır.

Amazoniya meşələri dünyada ən böyük tropik meşədir. Onları “planetin ağciyəri” adlandırırlar. Bu meşələrin əksər hissəsi Braziliya ərazisində yerləşir. Orada minlərlə nadir heyvan və bitki növləri var. Bundan əlavə, Amazoniya meşələri böyük həcmdə karbon qazı udur və qlobal istiləşməni ləngidir.

Əsasən İndoneziyaya məxsus olan Cənub-Şərqi Asiya adaları ümumilikdə 2002-ci ildən bəri meşələrin məhv edilməsinə görə ikinci yeri tutur. Özü də bu meşələrin böyük bir hissəsi palma yağı plantasiyaları salmaq üçün təmizlənmişdir.

Tropik meşələrin məhv edilməsində üçüncü yeri Şimali Afrika tutur. Özü də dağıntıların əksər hissəsi ənənəvi və kommersiya fəaliyyəti, habelə meşə kəsiminə görə Konqo çayı hövzəsi ətrafında cəmləşmişdir.

Hesabatın müəllifi Anders Kroqun dediyinə görə, daha çox meşə sahəsi məhv edildikcə iqlimin dəyişməsi ehtimalı da artır. Bu isə öz növbəsində yerdə qalan bitkilərin yaşamasını çətinləşdirir.

MEDİA

# AK Macarıstan, Polşa və Sloveniyada KİV-ə hücumları pisləyir

Avropa Komissiyası (AK) Macarıstan, Polşa və Sloveniya hakimiyyət orqanlarını söz və mətbuat azadlığına hücumları dayandırmağa çağırmışdır. Bu barədə Avropa Parlamentində müzakirələr zamanı AK sədrinin ümumi dəyərlər və şəffaflıq üzrə müavini Vera Yurova məlumat vermişdir.



Yurova qeyd etmişdir ki, son aylar üç ölkədə narahatlıq doğuran hadisələr müşahidə olunmuşdur. O, vurğulamışdır ki, Avropa İttifaqı qaydalarının pozulması davam etsə, AK müvafiq addımlar atacaq. Yurova buna misal olaraq Macarıstanda “Klubradio” radiostansiyasının lisenziyasının ləğv edilməsini, Polşada KİV-in reklam gəlirlərinə vergi tətbiq olunması təşəbbüsünü və Sloveniya hakimiyyət orqanlarının medianın müstəqilliyinə qəsd etmək üçün “davamlı cəhdlər”ini göstərmişdir.

Eyni zamanda Yurova Avropa Parlamentində çıxış edərkən deputatlardan medianı müdafiə etmək məqsədilə milli hökumətlərə təsir göstərmək üçün AK-yə daha çox vasitə təqdim etməyi xahiş etmişdir, çünki Brüsselin bu sahədə imkanları məhduddur.

Xatırladaq ki, ötən ilin sentyabrında Macarıstanın Mətbuata Nəzarət Dövlət Şurası müxalif “Klubradio” radiostansiyasının yayımladığı tezlikdən istifadə barədə müqaviləni yeniləməkdən imtina etmişdir. Şura mövqeyini radiostansiyanın qanunvericiliyi dəfələrlə pozması ilə izah etmişdi.

# Konsul COVID-19-u yaydığına görə qovulmuşdur



Ötən ay Polşa, İsveç və Almaniya rusiyalı diplomatları qovmuşdur. İndi Polşa mediasında bu qərarın izahı verilmişdir. Varşava iddia edir ki, Poznandan qovulmuş rusiyalı konsul-müşavir İqor Oşşepkov koronavirusu yayırmış.

Polşa xüsusi xidmət orqanlarının işini əlaqələndirən nazirin mətbuat katibi Stanislav Jarin bildirmişdir ki, rusiyalı diplomat və onun qızının COVID-19 testi yanvarın 21-də pozitiv çıxmışdı. Bundan üç gün əvvəl onun həyat yoldaşında da infeksiyanın mövcud olduğu təsdiqlənmişdi. Beləliklə, konsul sanitar qaydalara əməl etməmişdi. Belə ki, diplomat yaşayış yerini tərk edərək görüşlərə qatılmış və nəticə etibarilə başqa adamların həyatını təhlükəyə məruz qoymuşdu. Məsələn, konsul yanvarın 23-də müxalifətçi Aleksey Navalnını müdafiə etmək məqsədilə təşkil olunmuş mitinqin keçirildiyi yerdə görünmüşdür. Oşşepkov aksiyada iştirak etməmiş, amma onu kənardan müşahidə etmiş və baş verən hadisələri “sənədləşdirmişdir”. Jarin diplomatın hərəkətlərinin təhlükəli olduğunu bildirmişdir, çünki konsulun davranışı başqa adamların səhhətinə zərər vura bilərdi.

Keçən ay deyilirdi ki, Polşa, İsveç və Almaniyadan diplomatların qovulması Rusiya hakimiyyət orqanlarının hərəkətlərinə cavabdır. Belə ki, əcnəbi konsullar yanvarın 23-də və 31-də icazə verilməmiş aksiyalarda iştirak etmişdilər və buna görə Rusiyada persona non qrata elan edilmişdilər.

# Argentinalılar Maradonanın ölümünün təfərrüatlarını araşdırmağı tələb edirlər

Argentinada ötən il noyabrın 25-də dünyasını dəyişmiş əfsanəvi futbolçu Diyeqo Maradonanın ölümünün təfərrüatlarını təhqiq etmək tələbi ilə aksiya keçirilmişdir. Bu barədə “Anadolu” agentliyi xəbər verir.

Yüzlərlə nümayişçi paytaxt Buenos-Ayresin mərkəzində toplaşmışdır. Aksiya iştirakçıları iddia etmişlər ki, Maradona öldürülüb. Buna görə onlar cinayətdə təqsiri olanların məsuliyyətə cəlb olunmasını tələb edirlər.

Aksiyada həmçinin Maradonanın kiçik oğlu Diyegito Fernando Maradona, futbolçunun qızları Dalma və Canina, habelə keçmiş həyat yoldaşı Klaudiya Villafane iştirak etmişlər. Maradona 60 yaşında vəfat etmişdir. Argentina mətbuatı yazır ki, o, Buenos-Ayres əyalətinin Tiqre şəhərində ürək və ağciyər problemləri üzündən dünyasını dəyişmişdir. Ölümündən bir neçə gün əvvəl onun beynində cərrahiyyə əməliyyatı keçirilmişdi.

Maradonanın ölümündən sonra başlanmış tədqiqat çərçivəsində 7 nəfər, o cümlədən neyrocərrah Leopoldo Luke və psixiatr Aqustina Kosaçeva məsuliyyətə cəlb edilmişlər. İş üzrə istintaq davam edir.

# Myanmada nümayişlərdə 67 nəfər öldürüldü

Myanmanın şəhərlərində hərbi çevrilişə etiraz əlaməti olaraq keçirilən aksiyalar dağıdılarkən onlarca adam həlak olmuş, yüzlərlə nümayişçi yaralanmışdır. Bu barədə BMT baş katibinin mətbuat katibi Stefan Düjarrik məlumat vermişdir.

Düjarrik qeyd etmişdir ki, BMT-nin İnsan Hüquqları Ali Komissarının İdarəsindən verilən məlumata əsasən, Myanmada azı 67 nəfərin, o cümlədən qadın və uşaqların həlak olduğu təsdiqlənmişdir. Yüzlərlə adam xəsarət almışdır. Mətbuat katibi ölkənin yeni rəhbərliyini etirazçılara münasibətdə zorakılığı dayandırmağa çağırmış və xatırlatmışdır ki, dinc nümayişçilərə qarşı odlu silahdan istifadənin beynəlxalq hüquqda heç bir əsası yoxdur. Bildirilir ki, ölkədə təkcə bir gün ərzində 38 etirazçı öldürülmüşdür. BMT həmin günü Myanmada hakimiyyət zəbt ediləndən bəri “ən qanlı gün” kimi qiymətləndirmişdir.

# Suriyada 10 ildə 12 min uşaq həlak olub, yaxud yaralanıb

Suriyada 10 ildir davam edən münaqişə nəticəsində 12 min uşaq həlak olmuş, yaxud yaralanmışdır. Hazırda həddi-buluğa çatmayan uşaqların 90 faizi humanitar yardıma ehtiyac duyur. Bu, 2019-cu illə müqayisədə 20 faiz çoxdur. Bu barədə BMT-nin Uşaq Fondu (UNICEF) məlumat vermişdir.

UNICEF xatırladır ki, son bir il Suriyada istehlak səbətinin qiyməti 230 faiz artmışdır; yarım milyondan çox uşaq xroniki aclıqla əlaqədar inkişafdan geri qalır;

Suriyada 2,5 milyon uşaq və qonşu ölkələrdə yaşayan 750 minə yaxın suriyalı uşaq məktəbə getmir. Bundan əlavə, 5,7 mindən çox uşaq əsgər kimi hərbi münaqişəyə cəlb olunub.

Ötən il psixi pozuntu simptomları qeydə alınmış uşaqların sayı iki dəfə artmışdır. Onlar zorakılıq və ölümün şahidi olur, hər gün travmalara məruz qalırlar.

Ölkənin şimalında xüsusilə ağır vəziyyət yaranmışdır. Orada milyonlarla adam çadırlarda ömür sürür. Onlar bir neçə dəfə yaşayış yerlərini dəyişmişlər. Ötən qış ev-eşiksiz, yağış və qar altında yaşayan suriyalılar üçün əsl sınağa çevrilmişdir.

# İndoneziyada məktəb avtobusu dərəyə yuvarlandı

İndoneziyanın Yava adasında sərnişin avtobusu 20 metr hündürlükdən dərəyə düşmüşdür. Nəticədə azı 27 nəfər həlak olmuş, 39 nəfər yaralanmışdır.

Nəqliyyat Nazirliyindən verilən məlumata görə, hadisə Sumedanq şəhərinin yaxınlığında baş vermişdir. Qəzanın səbəbi kimi sürücünün idarəetməni itirməsi göstərilir. Avtobus məktəbliləri, valideynləri və müəllimləri daşıyırmış. Faktla bağlı istintaq aparılır.

Ölkədə yol-nəqliyyat hadisələri təhlükəsizlik səviyyəsinin aşağı olması və pis infrastruktura görə tez-tez baş verir.

SƏHİYYƏ

# Avropa Parlamenti Aİ büdcəsinə səhiyyə üçün əlavə pul ayırdı



Avropa Parlamenti səs çoxluğu ilə 2027-ci ilədək nəzərdə tutulan EU4Health səhiyyə proqramının inkişafı üçün Avropa İttifaqının (Aİ) büdcəsinə əlavə olaraq 5,1 milyard avro ayrılmasına səs vermişdir. Bu, əvvəlki büdcədə ümumavropa səhiyyəsinə ayrılmış xərcləri dəfələrlə üstələyir.

Dövlət səhiyyə sistemləri məsələləri ölkələrin öz səlahiyyətindədir və Aİ-nin bu sahədə imkanları məhduddur. Lakin avropalı deputatların gəldiyi qənaətə əsasən, pandemiya milli səhiyyə sistemlərində bir çox zəif yerlər aşkarlamışdır. Problemlərdən biri Aİ-yə üzv olmayan ölkələrdən dərman preparatları, tibbi cihazlar və müdafiə vasitələri tədarükündən asılılıqdır.

EU4Health proqramı çərçivəsində tibbi mallar ehtiyatı yaradılacaq, habelə səhiyyəyə qlobal təhdidlər qarşısında daha sürətli və effektiv reaksiya müxanizmləri hazırlanacaq. Bundan əlavə, proqram qocalan əhali, habelə spirtli içkilərdən və siqaret çəkməkdən asılılıq kimi çağırışlara qarşı həll yolları axtaracaq.

EU4Health proqramı ötən il mayın 28-də koronavirus pandemiyasına reaksiya kimi Avropa Komissiyası tərəfindən təklif edilmişdir. O, indiyədək dünyada ən bahalı səhiyyə proqramı sayılır.

Əmir Mustafayev - 85

# Əqidə adamı

Yazıçı-jurnalist Əmir Mustafayev 11 il əvvəl - 71 yaşında əbədiyyətə qovuşub. Azərbaycan ədəbiyyatında və jurnalistikasında özünəməxsus yaradıcılıq üslubu ilə seçilən Ə.Mustafayev ötən əsrin 50-ci illərində ədəbiyyata gəlmişdi. O, sovet hakimiyyətinin kəsəkəs vaxtında Azərbaycan kəndinin sosial-mənəvi problemlərini, kənd adamlarının ziddiyyətli yaşam tərzini, baş verən ictimai prosesləri səbrlə qələmə almışdır.



Müasir gəncliyin ata və analarından, nənə və babalarından eşitdikləri sovet kəndinin təsərrüfat həyatını, kolxoz və sovxoz işini, bununla bağlı insanların psixologiyasında olan təbəddülatları aydın və prinsipial yazıçı mövqeyindən özünəməxsus koloritlə təsvir etmişdir. Araşdırmalardan görünür ki, yazıçının diqqət mərkəzində həllini gözləyən sosial problemlər, sadə zəhmət adamlarının ailə və məişət qayğıları, insan mənəviyyatının təkamülü prosesi durur. Bu həm də ondan irəli gəlir ki, müəllif özü də kənd adamı idi, problemlərin içində böyümüşdü, həmin mühiti yaxşı bilirdi.

Əmir Gülbala oğlu Mustafayev 1936-cı il martın 12-də Azərbaycanın şimal bölgəsi olan səfalı Qusar rayonunun qədim Xuluq kəndində dünyaya göz açmışdı. Qusar şəhərindəki Maksim Qorki adına 4 saylı beynəlmiləl orta məktəbi bitirdikdən sonra Bakıya gəlmiş, ADU-nun Filologiya fakültəsinə daxil olmuşdu. Qeyd etdiyimiz kimi, Əmir Mustafayev ədəbiyyat, sənət və jurnalistika aləminə ötən əsrin 50-ci illərində, jurnalistikanın gündən-günə şöhrətləndiyi bir zamanda qədəm qoymuşdu. Fəal ictimaiyyətçi idi. Universiteti bitirdikdən sonra Moskva Mərkəzi Komsomol Məktəbində, bundan sonra isə Bakı Ali Partiya Məktəbində təhsil alsa da, ədəbi fəaliyyətini davam etdirmək, qələmindən ayrılmamaq məqsədilə respublikanın bir sıra mətbuat orqanlarında çalışmışdır.

Ə.Mustafayev universitetin ikinci kursunda oxuyarkən "Azərbaycan gəncləri" qəzetində dərc edilən "O gəldi" adlı ilk hekayəsi ədəbi aləmdə böyük rezonans yaratmışdı. Bundan sonra tələbə-yazıçının ölkənin nüfuzlu mətbu orqanlarında işıq üzü görən "Xəcalətli baxışlar", "Qonşu", "Sonuncu kürsü" və başqa hekayələri də oxucular tərəfindən rəğbətlə qarşılandı, ustad yazıçıların diqqətini çəkdi. Həmin vaxtdan etibarən Ə.Mustafayev həm də Əmir Qaraçəmənli imzası ilə hekayə, oçerk və publisistik yazıları ilə dövri mətbuatda çıxış etmişdir. Amma onu ədəbi aləmdə daha çox tanıdan 1957-ci ildə "Ədəbiyyat və incəsənət" qəzetində çap olunan "Zolaqlı çamadan" hekayəsi olmuşdur. O zaman belə yaradıcı tələbələr onun oxuduğu fakültədə tək deyildi. Əmir Mustafayevin 1953-1958-ci illərdə universitetin Filologiya fakültəsinin nəzdində jurnalistika şöbəsində təhsil aldığı qrup Azərbaycan ədəbiyyatına və elminə Yaşar Qarayev, Arif Səfiyev, Famil Mehdi, Firudin Ağayev, Şamil Salmanov, Ağacavad Əlizadə, Cəfər Cəfərov, Tofiq Hacıyev, Hüseyn Kürdoğlu, İbrahim Göyçaylı kimi tanınmış simalar bəxş etmişdir.

Bir dəfə hörmətli yazıçımızın yaradıcılığı ilə əlaqədar mətbuata material hazırlayanda "Ədəbiyyata gəlişinizi necə xatırlayırsınız?" sualımı belə cavablandırdı: "Ədəbiyyata gəlişim orta məktəb illərində Səməd Vurğunu görməyimlə və onun əsərlərinə olan məhəbbətimlə bağlıdır. Yaradıcılığa şeirlə başlamışam, təkəmseyrək də çap olunmuşam. O zaman mən yaşda olan cavanların poetik nəfəsi ilə, bədii ilhamı ilə indi özümü müqayisə eləyəndə başa düşürəm ki, niyə şair ola bilməmişəm". Əmir Mustafayevin ilk əsərlərindən sonuncularınadək yaradıcılığının sətiraltı ana xəttində, ideya mənasında ictimai-siyasi hadisələrin fonunda Azərbaycanın dövlət müstəqilliyi, ərazi bütövlüyü və bu bütövlüyün önündə kəndlinin öz torpağına sahiblik arzusu durur. Rejimin ciddi vaxtlarında bəzən ədəbiyyatşünas-tənqidçilərin ehtiyatla yanaşdığı bu problem barədə respublika yazıçılarının VIII qurultayında Azərbaycan Yazıçılar İttifaqı İdarə Heyətinin sədri İsmayıl Şıxlı "Ədəbiyyatımızın vəziyyəti və vəzifələri" adlı məruzəsində Əmir Mustafayevin yaradıcılığındakı keyfiyyətləri dəyərləndirərək deyirdi: "...geniş söhbətə səbəb olacaq hekayələrimiz yoxdurmu? Nə üçün Əmir Mustafayevin "Gecə zəngi" hekayəsi sükutla qarşılandı? Nə üçün bu hekayənin ictimai, psixoloji mahiyyəti, bədii keyfiyyəti açılıb göstərilmədi? Bu əsərdə kəndin bir neçə problemi qoyulmuşdur. Gənclər kənddən şəhərə qaçır, torpaqdan ayrı düşür. Kəndlər boşalır, rayon təşkilat rəhbərləri kənddə qalmaq, evlənib ev sahibi olub binələnmək istəyən cavanlara bir qarış yer vermirlər. Çünki torpaqdan düzgün istifadə etmirlər, artıq yerlər əkilib, kəndliyə ev tikmək üçün torpaq tapılmır. Hekayənin ikinci maraqlı cəhəti də odur ki, rayon rəhbərləri hər şeyi ələ almaq istəyirlər. Mərkəzdən gələn yoldaş kəndlinin verdiyi məktubun dərdini ürəyinə salır və az qalır ürəyi partlasın. Arxasınca "təcili yardım" gəlir..."

Sovet quruluşunun digər eybəcərlikləri, ədalətsizliyi və azərbaycanlıların soyqırımına yönəldilmiş siyasəti yazıçının bir sıra hekayələrində böyük ustalıqla oxuculara çatdırılır. Müəllifin "Qurd ürəyi" kitabında eyni adlı roman, povest və hekayələr cəmləşib. Bu hekayələrdə 1937-ci ilin qanlı-qadalı repressiya qurbanlarından, qanunsuzluqlar, ədalətsizliklər hesabına qan dənizində boğulan insanların yurd sevgisi və acı taleyindən bəhs edilir. Yazıçı boya-başa çatdığı Xuluq kəndindən Qazaxıstan çöllərinə sürgün edilən bir ailənin simvolunda bir xalqın taleyini açıqlayır. Türkiyədə təhsil görmüş ziyalılarımızdan olan Xuluq kəndinin qazısı Əbdülməcid Əfəndi sən demə 1913-cü ildə kənd məktəbində müəllim işləyən şair Əhməd Cavadın dostu olub. Qazının zəngin kitabxanası var idi. Dişi qana batmış NKVD-çilər Əbdülməcid Əfəndini həbs edərkən ərəb, türk alimlərinin evdə tapılan kitablarını onun özünə kisələrə doldurtdurub belinə şəlləyirlər. Yaşlı Əbdülməcid Əfəndi kitab dolu kisə belində, payi-piyada milis atlılarının qabağında kənddən birbaşa rayon mərkəzinə - NKVD-yə aparılır və dindirilir. Mülki, kənd uşaqlarının təhsil alması üçün tikdirdiyi üçsinifli məktəbi müsadirə edirlər. Bu zaman onun təmiz adam olduğunu söyləməyə cəhd göstərən Gülbala özünü həbsdən zorla qurtara bilir. Sonra da Qazaxıstan zülmləri başlanır...

Əmir Mustafayevin ədəbi-bədii yaradıcılığı qədər zəngin və mənalı olan həm də onun jurnalistlik fəaliyyətidir. Əli qələm tutandan, xüsusən də tələbəlik illərindən gecələr yazıçılıqla, gündüzlər jurnalistliklə məşğul olub. Əmir müəllimin əsərləri və özü haqqında yazılan məqalə və məktublarda qeyd olunduğu kimi, o, çox zəhmətkeş və məsuliyyətli yazar olub.

1957-ci ildə universitetin dördüncü kursunda oxuyarkən işləmək üçün dövrün seçilən mətbu orqanlarından olan "Azərbaycan pioneri" qəzetinə dəvət alıb. 1957-ci ildən 1969-cu ilə kimi həmin redaksiyada ədəbi işçi, şöbə müdiri, 1971-1976-cı illərdə "Ədəbiyyat və incəsənət" qəzeti redaksiyasında məsul katib, 1976-1979-cu illərdə isə Azərbaycan Yazıçılar İttifaqının orqanı "Azərbaycan" jurnalında məsul katib vəzifələrində çalışmışdır. Bir müddət Cəfər Cabbarlı adına kinostudiyada ssenarist kimi çalışsa da, sonradan yenidən "Ədəbiyyat və incəsənət" qəzeti redaksiyasına qayıtmışdır. Ədəbi yaradıcılığının və jurnalistlik fəaliyyətinin uğurlarını qəzet-jurnal redaksiyalarında reallaşdıran Əmir Mustafayev "Azərnəşr"də bədii ədəbiyyat şöbəsində müdir, 1990-cı illərdə "Karvan" kitablar seriyası redaksiyasında məsul katib işləmişdir. Hansı mətbu orqanda, hansı kollektivdə çalışmasından asılı olmayaraq, yazıçı Əmir Mustafayev ədəbiyyatın fədaisi, jurnalistikanın və kollektivin sevimlisi olmuşdur. Tale elə gətirdi ki, tanınmış yazıçı-jurnalist Əmir Mustafayev "Respublika" qəzetində (1991) baş redaktorun müavini işləyərkən onunla bir qəzetdə çalışmaq xoşbəxtliyinə nail oldum. Açığı o zaman istiqlal şairi Əhməd Cavadın həyat və yaradıcılığı ilə bağlı apardığım araşdırmalar Əmir Mustafayevlə münasibətlərimə əlavə çalarlar gətirdi. Bir dəfə məni möhkəm söhbətə tutdu və Əhməd Cavadın qarlı bir qış günü Qusara, oradan da atla Xuluq kəndinə gedişini ona nəql elədim.

Bir neçə gündən sonra gördüm ki, "Ədəbiyyat" qəzetində Əmir Mustafayevin mənim danışdıqlarım əsasında yazdığı "Qusardan gələn atlı" adlı hekayəsi çıxıb. Qəzeti götürüb Əmir müəllimin yanına getdim ki, bəs bu mənim dediklərimdi axı...

Əmir müəllim xoş əhvali-ruhiyyədə əlini çiynimə qoyub dedi:

- Bəli, söhbət sənin, hekayə mənimdir...

Bu kiçik epizodu xatırlatmaqla diqqətinizə çatdırmaq istəyirik ki, Əmir Mustafayevin istər yazıçı kimi, istər jurnalist kimi qələmə aldığı irili-xırdalı bütün əsərlər, məqalələr və publisistik yazılar öz taleyini əsl həyatdan, həyat həqiqətlərindən götürmüşdü.

Əmir Mustafayev bu cür həyatın içindən və reallıqlarından gələn 5 romanın, 20 povestin, 200 hekayənin, 500-dən artıq publisistik yazının və müxtəlif səpkili məqalələrin müəllifidir. Bir neçə povest və hekayəsi Türkiyədə, İranda, İraqda və Rusiyada nəşr edilmişdir.

Cavan yaşlarında "Azərbaycan pioneri" qəzetində sıravi müxbirliklə jurnalist fəaliyyətinə başlayan Ə.Mustafayev ömrünün sonunacan bu peşədən ayrılmamışdır. Hətta yazıçı kimi yaradıcılığının pik dövründə də o, özünü jurnalist hesab edirdi. Ötən əsrin 90-cı illərinin əvvəllərində Nazirlər Kabinetinin orqanı olmuş "Respublika" qəzetində baş redaktorun müavini idi. Həmin illər yuxarı dairələrin qərarı ilə "Respublika" o vaxt Ali Sovetin orqanı olan "Həyat" (sonralar "Azərbaycan") qəzetinə birləşdiriləndə Əmir müəllimin yaradıcılıq və xidməti taleyi "Azərbaycan" qəzeti ilə bağlanmış, müxbir, şöbə müdiri, nəhayət, 1993-2002-ci illərdə baş redaktor vəzifəsində çalışmışdır. Əmir Mustafayevin baş redaktor vəzifəsinə təyinatı yenicə müstəqilliyə qovuşmuş dövləti düçar olduğu bəlalardan xilas etmək üçün xalqın tələbi ilə ölkə rəhbərliyinə qayıdan Heydər Əliyevin təşəbbüsü ilə olmuşdur. Əmir müəllim həmişə bununla fəxr edirdi, Heydər Əliyevin imzası ilə verilmiş xidməti vəsiqəsini ərklə ürək qızdırdığı adamlara göstərməkdən qürur duyurdu:

"Məni baş redaktorluğa o kişi məsləhət bilib, onun etimadını doğrultmalıyam", - deyib vəzifənin öhdəsindən yüksək səviyyədə gəlməyə çalışırdı.

Əmir Mustafayev əqidə adamı idi. Fəaliyyətinin bütün dövrlərində xalqımızın azadlığı, respublikamızın müstəqilliyi uğrunda mübarizə aparıb. Dövlətin sükanı arxasında mətin dayanmış Ulu Öndər Heydər Əliyev siyasi kursuna həm yazar, həm də "Azərbaycan" qəzetinin baş redaktoru kimi dəstək olmuş, müstəqil dövlətimizin dayaqlarını sarsıtmaq məqsədi güdən qüvvələrə qarşı obyektiv jurnalist prinsipiallığı nümayiş etdirmiş, habelə sərt yazıçı mövqeyi göstərərək demokratik və azad cəmiyyət quruculuğu işinə öz töhfəsini vermişdir.

Oxucuların və həmkarlarının sevimlisi olan Əmir Mustafayev sözün həqiqi mənasında gözəl insan, yaxşı yazıçı və peşəkar jurnalist idi. O, yazıçı və jurnalist kimi rəsmi nümayəndə heyətinin tərkibində Türkiyədə, Kiprdə, Çində və digər ölkələrdə səfərlərdə olmuşdu. Yeri gəlmişkən qeyd edək ki, ictimai xadim Əmir Mustafayev respublikamızın ilk ziyalılarındandır ki, 1996-cı ildə Azərbaycan Prezidentinin fərmanı ilə ədəbiyyat və jurnalistikada göstərdiyi xidmətlərinə görə "Tərəqqi" medalı ilə təltif edilmişdir. Prezident təqaüdçüsü idi.

Əmir Mustafayevin son kitabı "Azadlıqdır mənə məlhəm, sənə dərman, Azərbaycan" (2004) adlanır. O, yaradıcılığının və ictimai-siyasi fəaliyyətinin ana xəttini təşkil edən bu istəklə 11 il bundan əvvəl 2010-cu ilin iyulunda dünyasını dəyişmişdir. Bu da Tanrının təsadüfidir ki, yazıçının yeganə oğlu Samir Mustafayev atasından 10 il sonra, ötən ilin iyulunda, 52 yaşında vəfat etmişdir.

Tanınmış yazıçı, peşəkar jurnalist Əmir Mustafayevin Azərbaycan reallıqlarına, xalqımızın birliyinə, ölkəmizin milli müstəqilliyinin və ərazi bütövlüyünün toxunulmazlığına xidmət edən əsərləri və məqalələri bundan sonra da əsl qələm sahiblərinə örnək olacaq.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

Elm xadimləri

# Həyatda və ədəbi tənqiddə sözünü deyən alim

AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, dövlət mükafatı laureatı, Əməkdar elm xadimi Yaşar Qarayev ədəbiyyatşünaslıq elmimizin tarixində öz fərqli imzası ilə tanınan görkəmli alimdir. Onun şəxsiyyəti, xidmətləri ədəbi-ictimai mühitə yaxşı məlumdur.



Alim "Faciə və qəhrəman", "Tənqid: problemlər, portretlər", "Realizm: sənət və həqiqət", "Səhnəmiz və müasirlərimiz", "Ədəbi üfüqlər", "Poeziya və nəsr", "Meyar şəxsiyyətdir", "Tarix yaxından və uzaqdan", "Min ilin sonu", "Azərbaycan ədəbiyyatı. XIX və XX yüzillər" kimi dəyərli əsərlərində müxtəlif metodlar, üslublar və janrlar, ədəbi məktəblər və hadisələrlə yanaşı, ədəbiyyat tarixçiliyinin qarşısında duran vəzifələri də tədqiqat obyektinə çevirmiş, hər zaman üçün aktual olan konseptual fikir və mühakimələrini irəli sürmüşdür. Görkəmli alimin rəhbərliyi ilə elmi işlər müdafiə edən yetirmələri, əsərlərindən, konsepsiyalarından faydalanan ədəbiyyatşünaslar və hazırda onun elmi-nəzəri irsindən faydalanan nəsil Yaşar Qarayev məktəbinin layiqli davamçılarıdırlar. Çox sevindiricidir ki, bugünkü və sabahkı gənclik, ümumilikdə öyrənmək istəyən hər kəc üçün indi Yaşar Qarayev məktəbi var.

Axtarışları, tədqiqatları, intellekti, işgüzarlığı, hər yerdə və həmişə yeni tipli müasir ədəbi fikir və tənqid uğrunda prinsipiallığı və mübarizliyi, ən nəhayət, uğurları ilə seçilən alim bütün müsbət keyfiyyətləri özündə cəmləşdirmişdi. Onu tanıyanlar, yaradıcılığına, elmi yeniliklərinə və nailiyyətlərinə bələd olanlar deyirlər: "Nə yaxşı ki, düşüncə tərzimizin, estetik fikrimizin Yaşar Qarayev zirvəsi var".

"Mənəvi-əxlaqi mizan və tərəzidə çəki, sınaq, seçim missiyası ilə həmişə sənət, elm, ədəbiyyat məşğul olur: dünyanı mənəviyyat və vicdan hesabatlarına hazırlayır. Ziyalının vətəndaşlıq rolu, cavabdehlik statusu da həmişə və hər yerdə onun məhz bu missiyanı hansı uğur və kamilliklə yerinə yetirməsi ilə şərtlənir: hətta zamanın da, ali mütləq qanunauyğunluğun da hakimlik və münsiflik missiyasını əslində ziyalı gerçəkləşdirir", - deyərək ziyalılığın düsturunu, alimin missiyasını, cavabdeh olduğu məsələlərin eskizini dəqiqliklə təqdim edən Yaşar Qarayev cəmiyyətlə təbiətin ünsiyyətində harmoniyanı, mütənasibliyi, qarşılıqlı anlaşmanı vacib sayır, bu ahəngdarlığın qorunmasında əxlaq anlayışını ən gərəkli faktor hesab edirdi.

XXI əsrin 20-ci ilində bütün bəşəriyyətin qarşısında aciz qaldığı COVID-19 pandemiyası bir daha göstərdi ki, bugünkü planetar xaosu əslində insan tədricən, təbiətlə yanlış və bəzən də amansız münasibəti ilə özü yaratmışdır, daha dəqiq desək, qaçılmaz etmişdir. Deməli, Yaşar Qarayev "qlobal rifaha", humanitar kamilliyə, ekologiyaya, kosmosla harmonik ünsiyyətə xidmət etməyən hər hansı ixtiranı, "texnogen atributları" renessansın, sivilizasiyanın əleyhinə hesab edəndə son dərəcə haqlı idi.

"Həqiqi böyük elm həmişə, bütün dövrlərdə və situasiyalarda zamandan və konyukturadan ucada dayana bilir, bir həqiqətə, bir də ilahidən, qüdrətdən hökm-fərman alın yazısına - etnik yaddaşa, genetik koda sədaqətdən yüksək heç nə tanımır. Əsilzadəlik, qədir-qiymət və həqiqət həmişə bir yerdə olur!" deyən Yaşar Qarayev bu söylədiklərini alim və vətəndaş kimi həyatında gercəkləşdirə bilən insanlardan idi.

Onu tanıyanların, haqqında eşidənlərin, maraqlı məruzə və çıxışlarını, mühakimələrini dinləyənlərin yaddaşında, xəyalında bir Yaşar Qarayev obrazı, portreti var. Bu obraza hansı rakursdan nəzər salsaq, işıqlı görünür. Bir məqam sual doğurur, Yaşar Qarayev şəxsiyyətinə, düşüncə və mühakiməsinə, onun məntiqinə, idrakına bu qədər işıq haradan süzülürdü? Bu işığın sirri nədədir? Sualın cavabını elə alimin çıxışlarında, yazılarında, müsahibələrində axtarmağa başladım. Və belə qənaətə gəldim ki, Yaşar Qarayevin idrakı işığı və ziyanı xaliqindən almaqla yanaşı, hər şeydə və hər yerdə, istər elmi düşüncədə, istər münasibətlərin tənzimlənməsində, istər cəmiyyət və həyat hadisələrinə baxışında onun üçün meyar olan əxlaq anlayışından alır və bir də mənəvi dəyərlərə ehtiramından qaynaqlanırdı. Ona görə Yaşar müəllimin göz önündə canlanan portreti bu qədər işıqlı və nurludur. Amma bu işıq zərrələrinin arxasında hələ nə qədər kəşf və fəth olunmamış zirvələr var...

Yaşar Qarayevin əsərlərini oxuyanda insan beyni, düşüncəsi bütünlüklə səfərbərliyə alınır. Çünki alimin çoxqatlı, çoxlaylı fikirlərini, demək istədiklərini bütün tamlığı ilə mənimsəmək istəyən kəs mütləq əqlini var qüvvəsiylə mütaliəyə cəlb etməlidir. Alimin mühakiməsi oxucusunun da düşüncələrini cilalayaraq ona parlaqlıq gətirir. Əslində, Yaşar müəllim çoxumuzun bildiyi faktları deyir. Amma fərqli biçimdə və əsrarəngiz tərzdə. Məsələn, hamımızın Nəsiminin "ənəlhəq"- mən allahdanam, ilahidən təcəllə tapmışam fəlsəfəsindən də, Çarlz Darvinin "insan meymundan yaranıb"- mən meymundanam nəzəriyyəsindən də xəbərimiz var. Amma bu iki nəzəriyyəni Qərbin və Şərqin insana, onun mənşəyinə baxışı müstəvisinə gətirmək, paralellər aparmaq, iki əks qütbün zidd mövqeyi kimi təqdim etmək ancaq Yaşar Qarayevin ağlına gəlirdi: insanın meymun mənşəyini Batıda, insanın Tanrı mənşəyini Doğuda kəşf ediblər. "Mənəm meymun!" - yox, "Mənəm Allah!" imperativini ilk dəfə dünyaya irfan Nəsimi elan edib.

Başqa bir nümunə: Alim Qərbin səmaya, qalaktikaya texniki nəqliyyatla, kosmik gəmi ilə baş tutan səyahətini zəkanın gücü, Şərqin səmayla ünsiyyətini, mənəvi meracını, ilahi vəhdətə qovuşmasını ruhi-mənəvi kamilliyin nəticəsi hesab edir və Qərb zəkası ilə Şərq mənəviyyatı və əxlaqını vəhdətə çağırırdı. İnsanın göylərlə ünsiyyətinin hər iki yolunun birləşməsini, ideal harmoniyanın məhz bununla gerçəkləşə biləcəyini irəli sürürdü. Kökü "ruh"a, "mənəviyyat"a, "əxlaq"a dayanmayan heç bir elmi ixtiranın və kəşfin bəşəriyyəti irəli aparmayacağını düşünən alim həm əxlaqda, həm də zəkada kamilliyə çatmaqla qlobal tamlığın bərpasını mümkün sayırdı.

Hər şeydə, hər bir problemin həllində əxlaq meyarına əsaslanan alim iqtisadi məsələlərin həllinə də əxlaq prizmasından yanaşırdı. İqtisadi strukturda intellektin xüsusi çəkisini artırmağın vacibliyini vurğulayan Yaşar müəllim iqtisadiyyatda əxlaq deyəndə təkcə haram və halallıq anlayışını nəzərdə tutmurdu. Onun üçün bu məfhum daha geniş anlam daşıyırdı. İnsan və təbiət arasındakı halallığı isə bəşəri əxlaqın mayası hesab edirdi.

Zənnimcə, Yaşar Qarayevin əxlaq haqqında konsepsiya xarakterli bu mülahizələri ixtisasından asılı olmayaraq ali təhsil ocaqlarında təhsil almağa başlayan gənclərin elə ilk dərsində tədris olunmalıdır. İqtisadiyyatda əxlaq və halallıq, təbiətə və cəmiyyətə münasibətdə əxlaq və halallıq, tarixi keçmişə münasibətdə əxlaq və halallıq, nəhayət, müasir elmi, texnogen kəşflər və sənaye ixtiralarında əxlaq və halallıq konsepsiyasının öyrənilməsi və tətbiqi sabahın xilası, gələcəyin zəmanəti deməkdir.

Alimin ən ali niyyəti millətin alın kitabını, onun ruhunun, mənəvi yaddaşının tarixini yazmaq idi. Bunun üçün o, düşünürdü ki, torpağın bağrındakı hər hansı bir saxsı parçası da, gil əşya da alimi genetik koda, axtarılan möhürə aparıb çıxara bilər. Amma Yaşar Qarayevin şərti var: "Mənşə ilə vüsala yetmək, əslə, kökə qovuşaraq əcdada ibadət etmək üçün öncədən dəstəmaz alıb "bismillah" edən kəs əvvəl gil, sonra dəri, lap axırda isə daş səhifələri vərəqləməlidir. Yalnız bundan sonra nüfuzlu qalın qamışların leksik və semantik qapılarını açmağa başlamaq olar". Yəqin razılaşarsınız ki, Yaşar müəllim dəstəmaz almaq deyəndə burada fiziki təmizlikdən çox, mənəvi təmizlənməni, əcdadının bu günə ötürdüyü mesajların axtarışına çıxarkən ibadətə gedirmiş kimi imanla, paklıqla, bir də məhəbbətlə çıxmağı vacib şərt hesab edirdi. Məhz bu zaman, bəlkə də hansısa kurqandan, daşdan başlamış bugünkü ağ kağızlara qədər bütün kitabələrin sirrini, mənəvi yaddaşdakı imzaları açmaq olar.

Qeyd etdik ki, Yaşar müəllim hamıya məlum olan faktları öz düşüncəsinin rəngli və çoxçalarlı, çoxelementli ornamentləriylə nəqşləyib təqdim edirdi və bunu bütün ədəbiyyat və mədəniyyət tarixini, keçmişin dərin qatlarını qələmə alan hər kəsdən tələb edirdi: Elmdə düşüncənin ən azı (!) fakt qədər əhəmiyyəti var. Düşüncəsiz fakt da binasız özül, imarətsiz təməl kimi bir şeydir. Sözdən, informasiyadan tikilən piramidada bünövrə, təməl (daş, kərpic!) işini fakt-sənəd, imarət və saray (memarlıq!) işini isə düşüncə görür. Olsa-olsa təkcə təməl (çılpaq fakt - sənəd, kərpic-daş) işini "yad ələ" etibar etmək olar, memarlıq (konsepsiya!) işini "doğma düşüncə" görməlidir... Zənnimcə, Azərbaycanın düşüncə, estetik fikir tarixini dünyaya təqdim etmək üçün Yaşar Qarayevin əsərlərini, təkcə "Tarix: yaxından və uzaqdan" kitabını müxtəlif dillərə tərcümə edib yaymaq kifayət edərdi.

Dünyada əbədi var olmağın yolunu ilkin bütövlüyün - həm mənəvi, həm coğrafi tamlığın şüurda, düşüncədə və yaddaşda sabit və sağlam qalmasında görən alim fikirləşirdi ki, hətta torpaq və sərhəddəki itkilərdən də qorxulu və ən ağırı yaddaşda baş verən itkilərdir. Ümumiyyətlə, yaddaş məsələsi Yaşar müəllimin elmi nəzəri irsindən ana xətt kimi keçir: tarixin yaddaşı, ədəbiyyatın yaddaşı, dilin, intellektin yaddaşı. Hətta ayrı-ayrı müəlliflərdən bəhs edəndə də onlara yaddaş prizmasından nəzər salırdı. Onun üçün Əli bəy Hüseynzadə kökünə və bütövlüyünə boylanan yaddaş idisə, Mirzə Cəlil ağrının, Cavid Əfəndi romantizmin, Şəhriyar Araz ağrısının, Nəcəf bəy Vəzirov kədərin, Üzeyr bəy gülüşün, Əhməd Cavad poeziyası cümhuriyyət dönəminin qorunduğu yaddaş idi. O, yaxın və uzaq tarixə yaddaşdan, onun ibrət və əxlaq dərslərinə idrakdan boylanırdı. Zaman-zaman ərazi itkilərimizin də səbəbini məhz tarixi yaddaşsızlıqda, milli unutqanlıqda görən alim ürək ağrısı ilə yazırdı: "Daşlar ovula-ovula ölür, qayalar sökülə-sökülə, bulaqlar quruya-quruya, millət isə unuda-unuda!" Məhz yaddaş özülü ilə - tarixlə və keçmişlə birlikdə, hətta ən amansız ekspo-nizmin - çağdaş erməni irqçiliyinin də hücumuna duruş gətirmək olardı. Amma mürgü vuran genetik yaddaşın diriliyinə əmin olan Yaşar müəllim alim fəhmilə yazırdı: "Gürcüstanda ana dilinə abidə var. Dinə, peyğəmbərə, İsaya ən böyük heykəli Lissabonda qoyublar. Mədəniyyətə - poeziyaya, musiqiyə, muğama heykəli isə biz qoymalıyıq. Özü də Şuşada! Çünki "külli-Qarabağın abi həyatı" ən çox məhz Şuşada həmişə bayatıdan, həmişə musiqidən və poeziyadan ibarət olub. Əsatir, folklor, dil, etnos, adət-ənənə, bədii təfəkkür və milli özəlliklə məkan, ərazi, torpaq və təbiət arasında qaynaq və qovşaq çox az bölgələrdə burada olduğu qədərdir". Yaşar müəllim bu fikirləri 1993-cü ildə - Şuşanın işğalından cəmi bir il sonra yazmışdı. Böyük alimin inam və qətiyyətlə söylədiyi bu arzusu 27 il sonra gerçək oldu. Ali Baş Komandan ordusunun yad nəfəsdən azad etdiyi Şuşanı çox keçmədi ki, mədəniyyət paytaxtı elan etdi. Bu coğrafi sərhədlərin bütövlüyünün bərpası ilə yanaşı, həm də ədəbi-mədəni xəritəmizin bərpasının, milli konsepsiyanın qələbəsinin bəyan edilməsi deməkdir.

Nə yaxşı ki düşüncə tərzimizin, estetik fikrimizin zirvələrindən olan Yaşar Qarayevin 85 illiyinə bu qələbənin yaşatdığı qürurla gəldik.

***Aygün BAĞIRLI,***
***AMEA N.Gəncəvi adına Ədəbiyyat İnstitutunun elmi işlər üzrə direktor müavini, filologiya üzrə fəlsəfə doktoru, dosent***

## Novruz bayramı münasibətilə rəssamların onlayn satış-sərgisi təşkil olunacaq

Azərbaycan Dövlət Rəsm Qalereyasının təşkilatçılığı ilə Novruz bayramı münasibətilə rəssamların onlayn satış-sərgisi təşkil olunacaq.

Dövlət Rəsm Qalereyasından AZƏRTAC-a bildirilib ki, sərgiyə 18 yaşdan yuxarı iştirakçıların Novruz bayramı ilə bağlı milli adət-ənənələrimizi əhatə edən mövzularda qrafika, rəngkarlıq, dekorativ tətbiqi sənət və heykəltəraşlıq əsərləri qəbul olunur.

Mövzu ilə bağlı əsərlərin keyfiyyətli fotoşəklini, müəllifin adı, soyadı, əsərin adı, ölçüləri, icra texnikası və qiymətini qeyd etməklə resmsergi@gmail.com elektron-poçt ünvanına göndərmək tələb olunur. Əsərlərin qəbulu aprelin 17-dək aparılacaq.



## Ələkbər Salahzadə yaradıcılığı Türkiyə ədəbiyyat portalında



Türkiyənin populyar erikagacioyku.com ("Alça ağacı") ədəbiyyat portalı Dövlət Tərcümə Mərkəzinin "Azərbaycan ədəbiyyatı beynəlxalq virtual aləmdə" layihəsi çərçivəsində tanınmış Azərbaycan şairi Ələkbər Salahzadənin türk dilinə tərcümə edilmiş "Üstümə gəlir", "Bir də gördün", "Yol" şeirlərinə və şairin yaradıcılığı haqqında məlumata səhifə ayırıb.

Bu barədə AZƏRTAC-a Dövlət Tərcümə Mərkəzindən bildirilib.

Qeyd edək ki, 2015-ci ildən fəaliyyət göstərən portal ötən ilin iyun ayından başlayaraq Dövlət Tərcümə Mərkəzi ilə əməkdaşlıq çərçivəsində Azərbaycanın klassik və müasir ədəbiyyatının seçmə nümunələrini işıqlandıran "Azərbaycan ədəbiyyatı" bölməsinin yayımına başlayıb.

## Xaqani Şirvaninin 895 illiyinə həsr olunan metodik vəsait hazırlanıb

F.Köçərli adına Respublika Uşaq Kitabxanası Xaqani Şirvaninin 895 illiyinə həsr olunan metodik vəsaiti istifadəçilərə təqdim edib.



AZƏRTAC xəbər verir ki, vəsait kitabxanaların uşaq şöbələri, Mərkəzləşdirilimiş Kitabxana Sistemlərinin şəhər, qəsəbə, kənd kitabxana filialları, və məktəblər üçün nəzərdə tutulub.

Ədibin zəngin ədəbi irsi 17 min beytlik lirik şeirlər divanı, "Töhfətul-İraqeyn" poemasından, bədii nəsrin maraqlı nümunələri olan 60 məktubdan ibarətdir. Onun ictimai-fəlsəfi məzmunlu əsərlərinə "Şiniyyə" və "Mədain xərabələri" qəsidələri, "Həbsiyyə" şeirləri və "Töhfətul-İraqeyn" poeması daxildir.

Vəsait iki hissədən ibarətdir. Birinci hissə "Azərbaycan və dünya poeziyasının qiymətli incisi" adlanır və Ə.Xaqaninin həyat və yaradıcılığından bəhs edir. İkinci hissədə isə Ə.Xaqani yaradıcılığından bəhs edən tədbirlərdən söhbət açılır.





# Mədəniyyət





İncəsənət xadimləri

**Sənət dünyasının tanınmışları zaman-zaman həyatın gözəlliklərini özlərinə məxsus forma və məzmunda ərsəyə gətirməyə çalışıblar. İstedadlı sənətkarların baxışlarında isə hər adilikdə bir qeyri-adilik, gözəllik duyulur. Bu mənada şair və rəssamların həyata baxışları digər sənət adamlarınkından bir qədər fərqli olur. Gözəlliklərlə dolu həyatımızın mənalandırılmasında sənətkar məharətinin xüsusi rolu var. Etiraf edək ki, rəssamlıq bu mənada özü qeyri-adiliklərlə dolu həyatımızı fırça dili ilə daha mükəmməl təsvir edir. Gəlin həyatımızı mənalandıran gözəllikləri kətana köçürüb canlı kimi təqdim edən, müasirliyi ilə yanaşı, hələ sağlığında ikən klassik müəlliflərdən biri kimi tanıdığımız Xalq rəssamı Oqtay Sadıqzadənin sənət dünyasına qısa da olsa nəzər salaq.**



# Humanizmə, ümumbəşəri mədəniyyətə töhfə

## Xalq rəssamı Oqtay Sadıqzadənin əsərləri zaman və məkanların təzadlı harmoniyasının inikasıdır

### Məşhurların övladı olmağın bəxtəvərliyi və bədbəxtliyi

Azərbaycan xalqının ədəbi simalarından sayılan, məşhur ədəbiyyatçıların - yazıçı Seyid Hüseynlə şairə Ümgülsüm xanımın ailəsində 1921-ci ildə Bakıda dünyaya göz açmaq kimi ona xoşbəxtlik nəsib olmuşdu. M.Ə.Rəsulzadənin əmisi qızı olan anası Ümgülsüm poeziyaya, eləcə də milli azadlıq ideyalarına maraq göstərməyə bilməzdi. Çünki o, hələ Seyid Hüseynlə ailə həyatı qurmamışdan öncə mətbuatda Azərbaycan qadınlarının azadlığı, onların hüquqlarının qorunması, ictimai fəallıq göstərmələrini nəinki istəyirdi, həm də bunun üçün mübarizənin səmərəli formalarından olan təbliğata üstünlük verir, məqalələr yazır və dövrü mətbuatda çıxış etdiyi üçün imzası tanınırdı.

Yazıçı Seyid Hüseynin ailəsinin ilk övladı olan Oqtayın rəssamlığa meyli də təsadüfi deyildi. Hələ uşaqlıq illərindən bu sənətə marağını nəzərə alan ata onun istəyinin reallaşmasına razılıq vermişdi. Beləliklə o, qəlbən bağlandığı rəssamlığı seçmiş və 1935-ci ildə Rəssamlıq Texnikumuna daxil olmuşdu.

Oqtay Sadıqzadə Azərbaycan rəngkarlığının sonrakı nəslinin korifeyləri sayılan Mikayıl Abdullayev, Böyükağa Mirzəzadə, Əbdülxalıq, Qafar Seyfullayevlə birlikdə bu sənətin sirlərinə bələd olmuş, incəliklərini öyrənmişdi.

O, hələ həyatının ən təlatümlü illərinin qarşıdan gəldiyini bilmirdi. Necə deyərlər, ağlına gəlməyənlər başına gəlirdi: ata-anasının 1937-ci ildə "xalq düşməni" kimi həbs edilmələri ailəni çıxılmaz vəziyyətə salmışdı, baxmayaraq ki, Seyid Hüseynin bacısı qızı, 21 yaşlı Səyyarə xanım onları öz öhdəsinə götürüb, həyatını dörd yetim uşağa baxmağa həsr etmişdi. Buna görə də hələ həyat təcrübəsi olmayan gənc Oqtay birdən-birə ailə başçısını əvəz etməli olmuşdu...




Çətinliklə də olsa Oqtay 1939-cu ildə Rəssamlıq Texnikumunu bitirdi. Dostları ilə birlikdə Moskvada təhsilini davam etdirmək istəsə də, ailə vəziyyəti ilə bağlı üzərinə düşən məsuliyyət və maddi çətinlik onun bu arzusunun gerçəkləşməsinə mane olub.

### 6 illik sürgün həyatı

Bilmirdi ki, həyatının keşməkeşləri hələ qabaqda idi. Lakin artıq rəsmləri respublika sərgilərində nümayiş etdirilir, yüksək qiymətləndirilirdi. Hətta1940-cı ildə Moskvadan gələn komissiya Tretyakov qalereyasında açılacaq Ümumittifaq sərgisi üçün iki əsər seçəndə onlardan biri 19 yaşlı Oqtay Sadıqzadənin "Çağırışçılar" tablosu idi. Təəssüf ki, bu uğuruna sevinməsinin ömrü qısa olur: 1941-ci ildə, yəni 20 yaşında "xalq düşməninin oğlu" kimi onu Altay diyarına sürgün edirlər.

Altı ildən sonra doğma Bakıya qayıdan Oqtay Sadıqzadə atası Seyid Hüseyndən xəbər tuta bilmirdi. Mordva vilayətinin soyuq iqlimində 7 il ağır həbs cəzası çəkməsi nəticəsində 40 yaşında ikən əlil olub Bakıya qayıtmış anası Ümgülsüm xanım isə 4 aydan sonra evindən, uşaqlarından uzaqda, Şamaxıda qəflətən dünyasını dəyişdi. Hələ bu harasıdır! 1947-ci ildə ailənin daha iki üzvü, onlara analıq etmiş bibisi və kiçik qardaşı Cığatay da bu dünyaya vida dedilər.

Amansızlıqlarla üzləşən Oqtayın həyatına və sifətinə fələyin çəkdiyi sərt sillə onu ağrıtsa da, bu qəzəbə sevgi-məhəbbət harmoniyası verərək əsərlərində təcəssüm etdirməyə başlayır.

1955-ci ildə rəssamı "Azərnəşr"ə baş bədii redaktor vəzifəsinə dəvət edirlər. O, nəşriyyatda işlədiyi illərdə poliqrafiya mədəniyyətini yüksək səviyyəyə qaldırmağa çalışır, özü də kitablara illüstrasiyalar çəkməyə başlayır.

Həmin illərdə Azərbaycan oxucuları Balzakın "Qorio ata", V.Hüqonun "Səfillər", Turgenevin "Atalar və oğullar", M.Qorkinin "Artamonovların işi" əsərlərinə çəkilmiş qəhrəmanların yaddaqalan, gözəl obrazları ilə tanış olurlar.

Oqtay Sadıqzadə H.Cavidin bütün pyeslərinə, C.Məmmədquluzadənin, S.Hüseynin, C.Cabbarlının bir çox əsərlərinə, M.F.Axundzadənin "Aldanmış kəvakib", Rəşad Nuri Güntəkinin "Çalı quşu" romanına illüstrasiyalar çəkib.

Fırça ustasının qrafika və rəngkarlıqla bağlı əl işləri Azərbaycan Milli İncəsənət Muzeyində, Nizami adına Ədəbiyyat Muzeyində, Milli Tarix Muzeyində, C.Cabbarlı adına Teatr Muzeyində, Ü.Hacıbəylinin, S.Vurğunun, Bülbülün, H.Cavidin ev muzeylərində, Dövlət Şəkil Qalereyasında, Naxçıvanın muzey və qalereyalarında, həmçinin Moskva Dövlət Tretyakov Qalereyasında, Orenburqun, Ulyanovskin muzeylərində saxlanılır.

Oqtay Sadıqzadənin tabloları ölkəmizdən kənarda, Almaniya, ABŞ, Kanada, İsrail, Rusiya, Belarus və Pakistanda da şəxsi kolleksiyalarda mövcuddur.

### Rənglərin harmoniyası, mövzuların təzadları

Oqtay Sadıqzadə dövlət, mədəniyyət və elm xadimlərinə, tarixi şəxsiyyətlərə həsr olunmuş çoxsaylı gözəl əsərlər yaradıb. Həmçinin müharibə və repressiya qurbanları mövzusunda bir neçə tablo işləyib.

Həmin əsərlərin içərisində Ulu Öndər Heydər Əliyevin, akademik Zərifə xanım Əliyevanın, şairə Xurşud Banu Natəvanın, Qonça Bəyim və Ümgülsüm xanımın portretləri xüsusi yer tutur.

Oqtay Sadıqzadənin yaradıcılığında Nizami Gəncəvinin xüsusi yer alması, əlbəttə, təsadüfi deyildi. "Nizami Gəncəvi və dünya mədəniyyəti" adlı monumental silsilə əsərləri Nizami adına Ədəbiyyat Muzeyi mərkəzi salonunun əsas divarında asılacaq ekspozisiya üçün sifariş verilmişdi. Bu mürəkkəb, eyni zamanda məsuliyyətli işə sənətkar 6 ildən çox vaxt sərf etmişdi. 1999-cu ildə təqdimatı olan əsərlər rəssamın Nizami yaradıcılığına dərin ehtiramı kimi dəyərləndirilmişdir.

Azərbaycan miniatur məktəbinin antik və orta əsrlər dövründəki yüksək ideallarına sədaqətlə yanaşan rəssamın "Nizami Gəncəvi və dünya mədəniyyəti" silsiləsi yaradıcılığının ən yüksək nailiyyətlərindən biridir. Bunu hətta sənət korifeyləri humanizmə, gözəlliyə, ümumbəşəri mədəniyyətə himn də adlandırıblar.

2011-ci ildə Milli İncəsənət Muzeyində sənətkarın 90 illik yubileyi ilə əlaqədar təşkil olunan sərgi sənətsevərlər üçün, sözün əsl mənasında, bir hədiyyə idi. Xalq rəssamının Azərbaycan təsviri incəsənətinin inkişafındakı xidmətləri dövlət tərəfindən yüksək qiymətləndirilib, fəxri fərmanlar və mükafatlarla təltif edilib.

Bu da bir ömrün son akkordları: Azərbaycan təsviri sənətinin görkəmli nümayəndəsi, Əməkdar incəsənət xadimi, Xalq rəssamı, "Şöhrət" və "Şərəf" ordenli, Azərbaycan Rəssamlıq Akademiyasının müəllimi, Dövlət mükafatı laureatı, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü Oqtay Sadıqzadə 2014-cü il dekabrın 20-də ömrünün 94-cü ilində vəfat edib.

***Məhəmməd NƏRİMANOĞLU, "Azərbaycan"***

Teatr sənəti

# Tarixi qədim, ənənələri zəngin Azərbaycan milli teatrı



**Bu gün Azərbaycanda yaraşıqlı binaları, geniş salonları ilə göz oxşayan, bir-birindən maraqlı, uğurlu səhnə əsərləri ilə sevimli tamaşaçılarının qarşısına çıxmağa hazır olan teatrlarımız çoxdur. Ancaq milli teatrımız bu günlərə gələnədək böyük və keşməkeşli tarixi yol keçib.**

### Meydan tamaşalarından teatr səhnəsinə gələn yol...

Azərbaycanda xalq teatrının tarixi çox qədimdir. Xalq arasında meydan tamaşaları əsrlərboyu məşhur olub. Məzhəkə, nəqletmə, musiqi, rəqs, yarışma və digər ünsürlərlə zəngin, baxımlı olan həmin tamaşalar açıq havada, şəhər meydanlarında, kəndlərdə, karvansaralarda, bazar və küçələrdə göstərilirdi. Azərbaycanda toy, elçilik və digər mərasimlərdə də əsrlərboyu teatr elementləri mövcud olub. Bunlardan biri toylarda göstərilən "Xan oyunu" idi. Sonrakı dövrlərdə "Şəbih" və digər dini səciyyəli tamaşalar da geniş yayılmışdı.

"Əkəndə yox, biçəndə yox, yeyəndə ortaq qardaş", "Tənbəl qardaş" kimi meydan tamaşaları, "Kilimarası" "Maral oyunu" kimi kukla teatr tamaşaları geniş kütlə tərəfindən böyük maraqla qarşılanır, yüksək əhvali-ruhiyyə yaradırdı. Bu tamaşalar xalqımızın adət-ənənələrini, milli-mənəvi dəyərlərimizi, soykökümüzə bağlılığımızı təcəssüm etdirərək yaşadıb.

XVII əsrin ikinci yarısında Azərbaycana gələn fransız səyyahı Şarden Çuxursəd bəylərbəyinin İrəvan şəhərindəki iqamətgahında qonaq olub. Ona üç hissəli bir tamaşa göstəriblər. Tamaşa Şardenə elə xoş təsir bağışlayıb ki, onu "Şərqin operası" adlandırıb.

Araşdırıcılar bu fikirdədirlər ki, mərasim, ayin və xalq oyunlarındakı tamaşa elementləri müstəqil xalq teatrının yaranmasında mühüm rol oynayıb.

1873-cü il martın 10-da Bakı realnı məktəbinin teatr həvəskarları truppası tərəfindən təqdim olunan Mirzə Fətəli Axundzadənin "Sərgüzəşti-vəziri-xani Lənkəran" tamaşası ilə Azərbaycanda milli teatrın əsası qoyulub. Tamaşanın hazırlanmasında Həsən bəy Zərdabi və Nəcəf bəy Vəzirovun əməyi böyük olub.

### Fədakarların sayəsində yaşayan sənət

Bakı şəhərində ilk teatr binasını xeyriyyəçi Hacı Zeynalabdin Tağıyev inşa etdirib. O, milli teatrın inkişafında böyük xidmət göstərib. Əlbətdə, tamaşa kollektiv əməyin məhsuludur və teatra olan sevgi, fədakarlıq estafet kimi yeni gələn nəsillərə ötürülməsə, onun var olması mümkünsüzdür. Azərbaycan səhnəsinin Cahangir bəy Zeynalov, Hüseynqulu Sarabski, Mirzağa Əliyev, Hüseyn Ərəblinski, Ülvi Rəcəb, Abbas Mirzə Şərifzadə, Mustafa Mərdanov, Məmmədrza Şeyxzamanov, Ağasadıq Gəraybəyli, Əliağa Ağayev, Lütfəli Abdullayev, Nəsibə Zeynalova, Mərziyə Davudova kimi yüzlərlə nümayəndəsi yetişdi. Bu gün də onların sənət yolunu davam etdirən istedadlı aktyorlarımız, aktrisalarımız az deyil.

Tarixi 1873-cü il martın 10-dan başlanan milli teatrımız çox çətin bir yol keçib. XIX əsrin sonları, XX əsrin əvvəllərində maddi vəziyyətinin ağırlığını düşünməli, bu istiqamətdə çalışmalı ikən onun başını digər problemlərlə qarışdırıb, inkişafını əngəlləməyə çalışıblar. Səhnə o illərdə aktyorlara məşhurluqla bərabər bəlalar gətirib. Təhqiramiz ifadələrlə, təhdidlərlə qarşılaşanlar az olmayıb. Səhnəyə çıxdığı üçün yaralananlar, qətlə yetirilənlər olub. Çünki çoxları öz qohumunun, yaxınının aktyorluq sənətini seçməsini özü üçün, bütövlükdə nəsli üçün təhqir hesab edib. Gözü qorxanları, həyatını təhlükəyə atmaqda çəkinənləri teatrdan, səhnədən uzaqlaşdırmağa müvəffəq olublar. Amma bu sənəti canından çox sevənlər heç bir təhdidə, təhqirə, fiziki və mənəvi əzab-əziyyətlərə boyun əyməyiblər. Elə milli teatrımız da belə fədakarların sayəsində yaşayıb, inkişaf edib.

Azərbaycan Xalq Cümhuriyyətinin qurulması milli teatrın fəaliyyətində də canlanma yaradıb. Qısa müddətdə teatrın inkişafı üçün zəruri işlər görülüb. Onun repertuarına Azərbaycan tarixi və milli azadlıq mübarizəsi ilə bağlı yeni əsərlər daxil edilib. Bu sahədə cümhuriyyət hökumətinin məqsədyönlü addımlarından biri də Azərbaycan Dövlət Teatrının təşkili olub. Bu, Azərbaycan peşəkar teatrının dövlət teatrı statusu alması demək idi. 1918-ci il noyabrın 4-də həmin teatrda ilk dəfə Nəriman Nərimanovun "Nadir şah" faciəsinin tamaşası təqdim olunub.

Sovet hakimiyyəti illərində də Azərbaycanda teatr sənətinin inkişafı üçün mühüm işlər həyata keçirilib. Teatrlarımızın repertuatlarında sovet ideologiyasını və rejimini tərənnüm edən əsərlərlə yanaşı, xalqın həyatı, güzəranı, tarixi keçmişi ilə bağlı əsərlərə də yer verilib.

### Tamaşaçıların intizarında...

XX əsrin sonuncu onilliyində Azərbaycan yenidən öz müstəqilliyinə qovuşdu. Xalqımızın nail olduğu bu böyük qələbə asanlıqla əldə olunmadı. Müstəqilliyimizin ilk illərində bütün sahələrdə böhran yarandı. Teatr sənəti də çətin sınaqlarla üzləşdi. Ancaq bu imtahandan da üzüağ çıxdı.

Bu gün Azərbaycan teatrı dövlət qayğısı, tamaşaçı sevgisi ilə əhatələnib. Əlbəttə, problemləri də var. Son bir ildə ən böyük qayğısı isə pandemiya ilə bağlı yaranmış vəziyyətlə əlaqədar tamaşaçılarını qarşılaya bilməməsidir. Teatrlarımız böyük intizarla koronavirusun endirdiyi pərdələri yenidən açacağı, tamaşaçı alqışları ilə kükrəyəcəyi günləri gözləyir.

***Zöhrə FƏRƏCOVA, "Azərbaycan"***

Tarixin daş yaddaşları

# Kəlbəcərdəki "Löh" qalası

**Zamanın sərt dönəmlərindən keçib günümüzə qədər yol gələrək, sözün həqiqi mənasında, tariximizə iz salan maddi mədəniyyət nümunələri arasında qalaların öz yeri var. Onların folklor nümunələrində öz əksini tapması heç də təsadüfi deyil. Yadellilərin hücumlarının qarşısının alınmasında bu daş abidələrin əvəzsiz rolu barədə əfsanəyə bənzər kifayət qədər həqiqətləri bugünümüzə çatdıran hekayətlər və rəvayətlər çoxdur.**



Qalalar uzunmüddətli dairəvi müdafiə üçün hazırlanmış, daimi qarnizonu, silahları, ehtiyatları olan strateji əhəmiyyətli məntəqə (şəhər) deməkdir.

İbtidai icma cəmiyyətində ilk qalalar möhkəmləndirilmiş məskənlər şəklində imiş. Bu məskənlər torpaq bəndlər, ağac, kərpic, daş və sairə divarlarla əhatə olunurdu. Sonralar hasarların ətrafında, adətən su ilə doldurulan, dərin xəndəklər qazılırdı. İnşaat işlərinin təkmilləşməsi qədim şəhərlər ətrafında kvadrat və ya dairəvi şəkilli qülləvari divarlar çəkməyə imkan verdi. Divarların hündürlüyü 9-10 metrə, bəzi hallarda 30 metrə çatırdı.

Ərazisində qalaların çox və əksəriyyətinin də alban dövlətinin yadigarı olmasına görə Kəlbəcər və İsmayıllı rayonları daha çox diqqət çəkib.

Kəlbəcər qalalarını tədqiq edənlərin fikrincə, onlar əsasən karvan yollarının üstündə tikilirmiş. Səbəbi də məlumdur: yollara nəzarət olunsun.

Murovdağ aşırımından sonra Kəlbəcərin "Ayrım dərəsi" adlanan ərazisidir. Tarixin yadigarı olan qalalara burada da rast gəlinir. Qalaboynu kəndi yaxınlığında, meşə massivinin içərisində uzaqdan diqqəti çəkən "Löh" qalasının maraqlı tarixcəsi var. Qalaya giriş bir yerdəndir. Sərt qaya çapılaraq qalaya cığır açılıb. Bir nəfər qayadan tuta-tuta keçib qalaya qalxa bilərdi. Aşağı baxmaq mümkün deyildi: insanın gözü qaralıb yıxılma təhlükəsi çox idi. Buna görə də hər kəs qalaya qalxa bilməzdi.

Ən məşhur qalalardan sayılan "Löh" qalasının üstündə, qayadan yonulmuş, dərinliyi 3-5 metrə çatan quyular var. Bu quyularda ərzaq, ya da su saxlanılırmış. Həmin quyuların içərisində nəhəng palıd ağacları bitmişdir ki, hər birinin diametri bir metrə çatırdı. Qalanın Lev çayı istiqamətində iki mağarası aşkar olunub. Bura ən qədim insan məskənlərindən hesab olunur. Yayda olduqca sərin, qışda isə isti olan bu mağarada istənilən ərzaq məhsulunu bir ay saxlamaq mümkündür.

***"Azərbaycan"***

Bura Vətəndir

# Dağlar gözəli:

# Qaragöl Dövlət Təbiət Qoruğu

**Təbiətin qorunması canlıların ömrünün uzadılması baxımından çox önəmlidir. Ona görə də ana dediyimiz təbiətin mühafizəsi nəinki dövlətin, həm də cəmiyyətin borcuna çevrilməlidir. Axı, təbiət yalnız bitki örtüyündən ibarət deyil, onun gözəlliyini artıranlardan biri də vəhşi heyvanları ilə zənginliyidir.**



Azərbaycanın da nadir təbiətinin qorunmasına böyük diqqət yetirilir.

Bu məqsədlə 10 milli park, 10 dövlət təbiət qoruğu və 24 dövlət təbiət yasaqlığı fəaliyyət göstərir.

Respublikamızda bu sahədə 1925-ci ildə ilk yaradılan "Göygöl" Dövlət Təbiət Qoruğudur.

Prezident İlham Əliyev yanvarın 6-da ötən ilin yekunlarına həsr olunmuş videoformatda keçirilən müşavirədə bu məsələyə də toxunaraq dedi: "Azad edilmiş torpaqlarda, eyni zamanda dövlət təbiət qoruqları və yasaqlıqlar olub. Mən bu məlumatı da Azərbaycan xalqına çatdırmaq istəyirəm... Laçın rayonunda Qaragöl Dövlət Təbiət Qoruğu 1987-ci ildə yaradılıb, 240 hektar sahəsi var idi, tamamilə məhv edilib, talan olunub və bütün ağaclar qırılıb..."

Laçınla Gorus sərhədində yerləşən "Qaragöl" Dövlət Təbiət Qoruğu da təbiətin unikal məkanlarından biridir. 1987-ci ildə yaradılan qoruğun sahəsi 240 hektar olub. Təəssüf ki, bu qoruq da erməni vəhşiliyinin qurbanlarından birinə çevrilib. Qoruğun ərazisindəki göl mühüm hidroloji və təsərrüfat əhəmiyyətinə malikdir. Suyundan yerli əhali qoyun sürülərinin, əkin yerlərinin suvarılması və balıqçılıq üçün istifadə edib.

Qoruq Qarabağ vulkanik yaylasının cənub hissəsində, Böyük İşıqlı dağının yamacındadır. Gölün suyu ərazinin hündürlüyü ilə əlaqədar olaraq bitkilərdən çox kasıbdır. Burada yalnız amfibi, qırxbuğum və qaymaqçiçəyi bitir. Ərazidə çimli dağ-çəmən torpaqları yayılıb. Bu torpaqlar əsasən humusla zəngindir.

Gölün ekoloji şəraiti və suyunun müəyyən xüsusiyyətləri burada canlı aləmin azlığına səbəb olub. Bununla bərabər, gölün suyunda zooplanktonlara, dibində isə yanüzənlərə rast gəlinib.

Ərazi seyrək meşəliklər və kolluqlar, eləcə də palıd, vələs, ardıc, yemişan, itburnu, böyürtkəndən ibarətdir. Yerin ekoloji amilləri burada heyvanların normal məskunlaşmasına tam şərait yaradıb. Ərazidə çöl donuzu, qonur ayı, canavar, çaqqal, tülkü, cüyür, dovşan, porsuq, kəklik, qırqovul, turac, bildirçin yayılıb.

***"Azərbaycan"***

## Azərbaycan Respublikasının Milli Məclisi 2021-ci il üçün saxlanma xərclərində nəzərdə tutulmuş vəsait hesabına tələbat olunan malların, iş və xidmətlərin satın alınması məqsədilə "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq təkliflər sorğusu keçirir

Təkliflər sorğusu 8 (səkkiz) LOT üzrə keçiriləcəkdir:

LOT- 1: Dəftərxana, mətbəə və təsərrüfat mallarının satın alınması.

LOT- 2: Kompüter, kompüter avadanlıqları, printer, toner, katric və idarədə istifadə olunan digər çox işlək malların satın alınması.

LOT- 3: İdarədə istifadə olunan elektrik və digər malların satın alınması.

LOT- 4: Pərdələrin, yumşaq mebellərin və döşəmələrin kimyəvi təmizlənmə işlərinin satın alınması.

LOT- 5: "Milli Məclis" jurnalının illik çap edilmə işlərinin satın alınması.

LOT- 6: İçməli suların illik (dispenser üçün 19 L) satın alınması.

LOT- 7: İnzibati binanın giriş pilləkənlərində təmir-quraşdırma işlərinin satın alınması.

LOT- 8: Fəvvarələr üçün tələb olunan mal-materialların və santexnika mallarının satın alınması.

İddiaçılar təkliflər sorğusunda iştirak etmək üçün aşağıdakı sənədləri (rəsmi blanklarda və möhürlə təsdiq olunmuş qaydada) təqdim etməlidirlər:

1. Təkliflər sorğusunda iştirak etmək üçün yazılı müraciət.
2. Təklifin qüvvədə olma müddəti zərflərin açıldığı gündən sonra azı 30 bank günü təşkil etməlidir.
3. Təklifin təminatı (bank zəmanəti) təklifin ümumi qiymətinin 1 (bir) faizi məbləğində olmaqla təklifinin qüvvədə olma müddətindən azı 30 (otuz) bank günü çox olmalıdır.
4. İddiaçılar haqqında tələb olunan sənədlər aşağıdakılardır:

- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.
- iddiaçının son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyət dövründəki) maliyyə vəziyyəti barədə bank sənədi;
- vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayışlar;
- müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması;
- müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki və maliyyə imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin olması - potensial imkanları haqqında məlumat;
- müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziya və ya icazəyə malik olması.

